Xalqın qəzeti!

# Xalq qəzeti

№ 239 (30355) 1 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**İndi zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir.**

# Azərbaycan "enerji inqilabı"nın önündə gedir

**Beynəlxalq Enerji Agentliyinin son hesabatında 2030-cu ilə qədər dünyada elektrik enerjisinin yarısının bərpaolunan mənbələr hesabına təmin ediləcəyi proqnozlaşdırılıb. Son illər dünyada bu sahədə inqilabi bir proses gedir. Artıq bəzi Avropa ölkələrində ölkənin enerji tələbatının 50 faizə yaxını bərpaolunan enerji mənbələri hesabına təmin edilir.**



2022-ci ildə qlobal enerji kompleksində bərpaolunan enerji mənbələrinin payı bir il öncə ilə müqayisədə 1,5 bənd artaraq 30 faizə yüksəlib. Bu rəqəm 2010-cu il səviyyəsindən 10 bənd yuxarıdır. Enerji balansında bərpaolunan enerji mənbələrinin payı əvvəlki kimi Braziliya, Kolumbiya, Kanada, Yeni Zelandiya, İsveç və Norveç kimi böyük su ehtiyatlarına malik ölkələrdə xüsusilə yüksək olub. Bu gün həmin ölkələrdə istehsal olunan elektrik enerjisinin 2/3 hissəsi bərpaolunan mənbələr hesabına əldə edilir.

(ardı 3-cü səhifədə)

# Bakı – İrəvan sülh gündəliyi

**Azərbaycan və Ermənistan liderlərinin bu il oktyabrın sonunda Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilməsi nəzərdə tutulan görüşünün baş tutmamasından sonra rəsmi Bakıdan İrəvanla sülh müqaviləsinin imzalanması perspektivinə dair mesaj var.**



Azərbaycanın Xarici işlər nazirinin müavini Elnur Məmmədov bildirib ki, bununla bağlı layihənin əksər bəndləri üzrə razılığa gəlinib. "Hesab edirik ki, Azərbaycan Qarabağda beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdikdən sonra sülh sazişinin əldə olunması prosesi asanlaşıb və onun imzalanması ehtimalı daha yüksək olmalıdır", – deyən E.Məmmədov əlavə edib ki, ölkəmiz mövcud istiqamətdə Ermənistandan hərəkət gözləyir. Bakının sülh gündəminə sadiqliyini vurğulayan nazir müavini, eyni zamanda, bildirib ki, Azərbaycanın bununla əlaqədar təklifi qüvvədədir. Yəni, əsas məsələ Ermənistanın adekvat davranmasıdır. Bəs, İrəvan adekvat davranacaqmı?

Təbii ki, E.Məmmədov Bakının İrəvandan konkret hansı addımları gözlədiyini deməyib. Ancaq ondan fərqli olaraq, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsi üzrə üç əsas saydığı prinsipi açıqlayıb. Nikolun sözlərinə görə, tərəflər bu prinsiplərə sadiq qalarlarsa, sülh və münasibətlərin tənzimlənməsinə dair sazişin imzalanması reallaşacaq. Söhbət, birincisi, Ermənistanın 29,8 min, Azərbaycanın isə 86,6 min kvadratkilometr ərazidə suveren haqlarının qarşılıqlı şəkildə tanınmasından gedir: "Deməliyəm ki, bu rəqəmlər Sovet İttifaqının son ensiklopediyalarında qeyd olunanlardan götürülüb. Orada Ermənistan SSR-in və Azərbaycan SSR-in ərazisinə dair qeydlər var - Ermənistan Respublikası 29800, Azərbaycan Respublikası 86600 kvadratkilometr yazılıb".

(ardı 4-cü səhifədə)

# Qarabağ ermənilərinə Avropa Şurasından "bədbəxtlik paketi"

**BMT kimi, Avropa Şurasının miqrasiya və qaçqınlar üzrə xüsusi nümayəndəsi (SRSG) var imiş və onun adı Leyla Kayacıkmış. Leyla xanım Ermənistana 2023-cü il oktyabrın 11-dən 13-dək olan səfərindən sonra ölkəyə qaçqın axınına cavab vermək üçün kompleks tədbirlər paketi hazırlayıbmış. Bununla bağlı məlumat isə Avropa Şurasının rəsmi saytında yer alıb. Məlumata görə, sözügedən paket Qarabağı tərk etməyə məcbur olmuş 100 mindən çox bölgə ermənisinin, o cümlədən 30 minə yaxın uşağın yerləşdirilməsi ilə bağlı məsələlərin həllində Ermənistana dəstək məqsədi daşıyır.**



Əlqərəz, Leyla Kayacık xanım və başının dəstəsi, yeni SRSG təmsilçiləri Ermənistana səfərləri zamanı ölkənin aidiyyəti dövlət qurumları, beynəlxalq tərəfdaşlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə olub, Qarabağ ermənilərinin məskunlaşdıqları bir neçə sığınacağa baş çəkiblər. Nəticədə Avropa Şurasının Ermənistan üçün Fəaliyyət Planına (2023-2026) və Miqrasiya və Sığınacaq Kontekstində Həssas Şəxslərin Müdafiəsi üzrə Fəaliyyət Planına (2021-25) daxil edilmiş xüsusi dəstək sahələrini müəyyənləşdiriblər. Guya ki, bu sadalananları Ermənistana səfər etmədən reallaşdırmaq mümkün deyildi...

(ardı 4-cü səhifədə)

## Zamanın dəhlizində azanlar



Səhifə ⇨ 4

# Deportasiyaya uğrayan kimdir: ermənilər, yoxsa azərbaycanlılar?



**Azərbaycan Ermənistan tərəfi ilə uzun illər sülh danışıqları adı altında keçirilən görüşlərin səmərəsiz və yorucu proses olduğu qənaətinə gəldikdən, həmçinin rəsmi İrəvanın təxribatlarının sayının xeyli artdığını gördükdən sonra 44 günlük Vətən müharibəsi aparmaq məcburiyyətində qaldı. Müharibə ölkəmizin qələbəsi ilə başa çatdı. Torpaqlarımız işğaldan azad olundu. Bundan sonra Azərbaycan üçün məsələnin siyasi tənzimlənməsi mərhələsi başlandı.**

Müharibənin başa çatmasını rəsmiləşdirən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatına reinteqrasiyası istiqamətində işlərə start verildi. Ancaq Qarabağdakı erməni azlığını girovluqda saxlayan xunta rejimi hər cür təşəbbüslərə qarşı çıxdı, onlara uzanan barışıq əlini geri qaytardı. Onlar nəinki barışıq istəmədilər, həmçinin ərazilərimizi minalarla çirkləndirməkdə davam etdilər. Yeni təmas xətti yaratmağa çalışdılar, fortifikasiya qurğuları qurdular. Hətta, Qarabağ üzərindən uçan mülki təyyarələrimizə belə radiomaneələr tətbiq etdilər. Bütün bunlar Azərbaycanın, necə deyərlər, səbr kasasının daşmasına gətirib çıxardı. Nəticədə ordumuz sentyabrın 19-da ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması istiqamətində tədbirlərə başladı. Lokal xarakterli antiterror tədbirləri bir sutkadan az davam etdi.

(ardı 6-cı səhifədə)

# Dünya Bankı ölkəmizdə gerçəkləşdirilən beynəlxalq layihələri dəstəkləyir




Səhifə ⇨ 7

# Kanada Cənubi Qafqazda da özünə əlavə problemlər axtarır

**Hər bir dövlətin beynəlxalq aləmdə öz siması mövcuddur. Dövlətin siması isə onun tarixindən qaynaqlanır. Politoloqlar və tarixçilər üçün dövlət qurmağa tarixi aborigen xalqlara qarşı kütləvi qətliam törətməklə başlayan ölkələrin dünya üçün konstruktiv və sülhpərvər rol oynayıb-oynamaması məsələsini araşdırmaq, təbii ki, aktualdır. Bununla yanaşı, siyasi-diplomatik fəaliyyətin konkret faktları da həmin suala cavab axtarışlarında müəyyən nəticə verə bilər. Nümunə kimi, son illər Kanada rəsmi dairələrinin Cənubi Qafqaz istiqamətində apardıqları siyasətin faktlarını göstərə bilərik.**



Öncə deyək ki, rəsmi Ottava diqqətini daha çox Qarabağa yönəltmişdir. II Qarabağ savaşı zamanı Kanada "Bayraktar"ların Azərbayan tərəfindən istifadəsinə görə Türkiyəyə sansksiya tətbiq etdi. Lakin qısa müddət sonra aydın oldu ki, Ottava xülya içindədir. Belə ki, hətta Fransa Türkiyəyə hərbi ləvazimatlar verməklə bağlı yeni saziş imzaladı. Bununla Kanada çıxılmaz və gülünc vəziyyətdə qaldı. Aydın oldu ki, bu dövlətin ardıcıl, düşünülmüş və məntiqi siyasəti yoxdur.

(ardı 6-cı səhifədə)

## "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı arasında "2023-cü il üzrə Ümumdünya Məskunlaşma Gününün Beynəlxalq Səviyyədə Qeyd Edilməsi" tədbirinin Azərbaycan Respublikasının Bakı şəhərində keçirilməsi və ev sahibliyi məsələlərinə dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il sentyabrın 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı arasında "2023-cü il üzrə Ümumdünya Məskunlaşma Gününün Beynəlxalq Səviyyədə Qeyd Edilməsi" tədbirinin Azərbaycan Respublikasının Bakı şəhərində keçirilməsi və ev sahibliyi məsələlərinə dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Millətlər Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

## Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 23,74 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1471; 2021, № 8, maddə 949) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi"ndə dəyişikliklər təsdiq edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikası prokurorluq orqanlarının saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

## Milli Məclisin Sədri Koreya Respublikasında



**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 31-də Koreya Respublikasının paytaxtı Seul şəhərinə rəsmi səfərə gəlib.**

Nümayəndə heyətinə Milli Məclisin Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov, deputatlar Afət Həsənova, Anar Məmmədov, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

Seulun "Gimpo" Beynəlxalq hava limanında nümayəndə heyətini Koreya parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Suh Byunq Su, Azərbaycanın Koreyadakı səfiri Ramin Həsənov və digər rəsmi şəxslər qarşılayıblar.

**XQ**

## Azərbaycan İnsan Orqanları Alverinə qarşı Konvensiyaya qoşulub



**DTX-nın mətbuat xidməti bildirir ki, oktyabrın 30-da Avropa Şurasının Strasburq şəhərində yerləşən mənzil-qərargahında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevlə AŞ-nin baş katibi xanım Mariya Peyçinoviç Buriç arasında görüş keçirilmiş və Azərbaycan tərəfi Avropa Şurasının İnsan Orqanlarının Alverinə qarşı Konvensiyasını imzalamışdır. Baş katib Azərbaycanın bu konvensiyaya qoşulmasını çox vacib hadisə kimi dəyərləndirmiş və uzun illərdir formalaşmış ikitərəfli münasibətlərə toxunaraq əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə inamını bildirmişdir.**

General-polkovnik Əli Nağıyev regionda təhlükəsizlik baxımından yaranmış mövcud vəziyyət barədə məlumat verərək ölkəmizin hər zaman bölgədə davamlı sülhün yaradılmasında maraqlı olduğunu vurğulamışdır. O, Azərbaycanın Qarabağ ərazisindəki erməni əsilli vətəndaşların əmin-amanlıq şəraitində yaşamasına hərtərəfli təminat verməsindən, onların hüquq və azadlıqlarının qorunması üçün dövlətimizin gördüyü işlərdən, regionda rifahın, əsaslı və etibarlı sabitliyin təmin olunması naminə dövlətimizin göstərdiyi səylərdən, Ermənistanla münasibətlərin normallaşdırılmasının və tezliklə sülh müqaviləsinin imzalanmasının vacibliyindən ətraflı söhbət açmışdır.

Baş katib M. Buriç Avropa Şurasının Cənubi Qafqazda hər zaman sülhün qorunub saxlanılmasına önəm verdiyini və təşkilatın bu prosesə lazımi dəstək göstərə biləcəyini qeyd etmişdir.

Söhbət əsnasında Ermənistanın Azərbaycan vətəndaşlarına qarşı həyata keçirdiyi etnik təmizləmə və mina terroru barədə danışan Əli Nağıyev Avropa Şurasının baş katibinin təşkilatın əhatə etdiyi ölkələrdə yaşayan şəxslərin Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş bütün hüquq və azadlıqlarından tam istifadə etmək hüququna malik olması fikrinə münasibət bildirərək, qeyd olunan beynəlxalq hüquqi sənədin müddəalarının Azərbaycanın xeyli zaman ərzində qaçqın və məcburi köçkün halında yaşamış, itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin Ermənistan tərəfindən basdırılmış minalardan sağlamlıqlarını itirmiş vətəndaşlarının hüquqlarının müdafiəsi məsələsində də tətbiq ediləcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

**XQ**

## Çinlə hərbi əməkdaşlıq müzakirə edilib



**Çin Xalq Respublikasında işgüzar səfərdə olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov 10-cu Pekin Syanşan Forumunun açılış ziyafətində iştirak edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ziyafət çərçivəsində general-polkovnik Z.Həsənov Çinin Mərkəzi Hərbi Şurasının sədr müavini, general-polkovnik Can Yousia ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

**XQ**

## Qərbi Azərbaycandakı yer adları bu torpaqların milli pasportudur

**Dünən Milli Məclisdə Regional məsələlər komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan toponimləri: tarixin təhrif olunmasından ədalətin bərpa edilməsinədək" mövzusunda ictimai dinləmə keçirilib.**



Tədbirdə Milli Məclisin deputatları, Prezident Administrasiyasının, AMEA-nın, Ədliyyə Nazirliyinin məsul işçiləri, Milli Məclis yanında Toponimiya Komissiyasının, Qərbi Azərbaycan İcmasının üzvləri, hüquqşünaslar və tədqiqatçılar, bələdiyyələrin, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak ediblər.

Müzakirəni giriş sözü ilə açan Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Vətən müharibəsində əldə edilmiş Qələbənin Qərbi Azərbaycandan olan soydaşlarımızın öz tarixi torpaqlarına qayıdışı üçün yaratdığı imkanlardan danışaraq qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Ermənistan hökumətinin Qərbi Azərbaycan torpaqlarında milli irsimizə qarşı törətdiyi cinayətlərlə bağlı kəskin mövqe bizim üçün yol xəritəsidir.

AMEA-nın prezidenti, Milli Məclis yanında Toponimiya Komissiyasının sədri, deputat İsa Həbibbəyli "Qərbi Azərbaycan toponimlərinin Ermənistan tərəfindən saxta yollarla təhrif edilməsi və ədalətin bərpası yolları" mövzusunda məruzə ilə çıxış edib. Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və müasir mərhələdə zorakılıqla dəyişdirilmiş toponimlərin bərpa edilməsi çalışmaları" mövzusunda məruzəsində doğma yurda qayıdış tələbinin insan hüquq və azadlıqlarına, beynəlxalq hüquqa tam uyğun olduğunu bildirib.

Çıxış edənlər Qərbi Azərbaycanda mədəni irsimizin planlı şəkildə məhv edilməsindən və mənimsənilməsindən söz açıblar. Onlar tarixi torpaqlarımızdakı toponimlərin və digər coğrafi adların, milli irsimizin bərpası, xalqımızın öz yurduna qayıdışının təmin edilməsi barədə qeyd və təkliflərini irəli sürüblər.

***Əliqismət BƏDƏLOV***
**XQ**

## TÜRKSOY Teatr Festivalının iştirakçıları Şuşada



**Azərbaycanda keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalı dünən türk dünyasının mədəniyyət paytaxtı Şuşada start götürüb.**

Beynəlxalq teatr məclisi Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileylərinə həsr olunub.

Festivalın ilk günündə Şuşada TÜRKSOY-a üzv ölkələrin dövlət teatrları rəhbərləri Şurasının 9-cu toplantısı keçirilib. Məclisdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyətinin və Qaqauz Yerinin (Moldova) dövlət teatrlarının rəhbərləri iştirak ediblər.

Qonaqlar Şuşa şəhərinin tarixi məkanları və əsrarəngiz təbiəti ilə də tanış olublar. Gəzinti zamanı teatr xadimlərinə işğal dönəmində mədəniyyət abidələrimizə ermənilər tərəfindən vurulan ziyan, qədim artefaktlarımızın saxtalaşdırılması barədə də məlumat verilib. Bildirilib ki, Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb.

I Beynəlxalq TÜRKSOY Teatr Festivalı ölkəmizdə noyabrın 4-dək davam edəcək.

**XQ**

## Suriyadan 11 vətəndaşımız ölkəmizə qaytarılıb

Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində Prezidentin 2023-cü il 28 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın müvafiq müddəalarına uyğun olaraq, oktyabrın 31-də Suriyada yerləşən düşərgələrdə saxlanılan 9-u uşaq və 2-si qadın olmaqla, 11 nəfər həmvətənimizin ölkəmizə repatriasiyası həyata keçirilib.

Bu barədə XİN-in Mətbuat xidməti idarəsi məlumat yayıb.

**XQ**

# Xalqa başucalığı gətirən xarici siyasət

## Prezident İlham Əliyevin diplomatiyası işğalçını döyüş meydanında tək qoydu




**Geridə qalan 20 il respublikamızda sürətli inkişafın təmin edilməsi, hərtərəfli islahatlara rəvac verilməsi, sosial rifahın yaxşılaşdırılması, cəmiyyətin daha da demokratikləşdirilməsi, regionların sosial-iqtisadi inkişafına nail olunması, müstəqil siyasət yeritməkdə nümunə xarakterli nəticələr qazanılması, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, ölkəmizin kosmik ailədə öz yerini tapması və möhkəmləndirməsi, hərbi əməliyyatları beynəlxalq aləmdə dərsliklərə salınan güclü ordu yaradılması, gənc müstəqil dövlətimizin beynəlxalq aləmdə mühüm aktorlardan birinə çevrilməsi və nəhayət, 30 il düşmən tapdağında qalan ərazilərimizin işğaldan azad olunması ilə yaddaşlara yazılmışdır.**

Fikrimizcə, bunların hər biri ayrılıqda bir qürur mənbəyi sayılacaq uğur, nailiyyətdir. Bu da faktdır ki, dövlətimizin son 20 ildə yeritdiyi xarici siyasət xalqımıza daha böyük üzağlığı, başucalığı gətirmiş, düşmənimizi beynəlxalq aləmdə təkləmişdir. Cənab Prezident 2003-cü ildəki çıxışlarında dönə-dönə deyirdi ki, bizim xarici siyasətimizin əsas məqsədi işğal altında olan torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpasına nail olmaqdır. Bu isə o demək idi ki, Azərbaycan öz ərazilərini hərbi yolla deyil, məhz siyasət, diplomatiya və danışıqlar yolu ilə geri qaytarmaq istəyirdi. Bu qətiyyət, gənc müstəqil dövlətin olduqca böyük miqyaslı humanizm nümayişi idi.

Çox təəssüf ki, Ermənistan da, onun havadarları da, üstəlik, beynəlxalq təşkilatlar da Azərbaycan dövlətinin sivil yanaşmasından nəticə çıxara bilmədilər. Ona görə də, İlham Əliyev 2008-ci ildə keçirilmiş prezident seçkilərindən sonra bəyan etdi ki, biz öz ərazilərimizi istənilən yolla qaytaracağıq. Yəni artıq hərbi yol da istisna olunmurdu. Çünki həm Ermənistan getdikcə daha da həyasızlaşırdı, həm beynəlxalq aləmdə mövcud olan ikili standartlar münaqişənin həllinin uzanmasına “xidmət edirdi”, həm də bəzi dövlətlər Cənubi Qafqaza sülh və əmin-amanlıq gətirilməsini istəmirdilər.

2013-cü ildə keçirilmiş prezident seçkilərindən sonra isə Prezident İlham Əliyev beynəlxalq aləmə xitabən dedi ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan – Azərbaycan münaqişəsinin həllinə dair qəbul etdiyi məlum qətnamələri özümüz icra etmək məcburiyyətindəyik. Çünki baynəlxalq aləmdəki söz sahiblərində ədalət yoxdur, qəlbində, fikrində ədalət olanların isə sözü, səsi eşidilmir. Dövlət başçımız üçüncü dəfə and içəndən iki il yarım sonra ermənilərə və onların havadarlarına Aprel “dərsləri” verdi. O zaman türkiyəli ekspertlər yazmışdılar ki, Aprel döyüşləri hərbi əməliyyatdan daha çox siyasi-diplomatik xəbərdarlıq kimi xarakterizə olunmalıdır. Zaman sübut etdi ki, onlar haqlı idilər.

Biz dayanıqlı və qətiyyətli xarici siyasətlə dünya ölkələri ilə bərbabərhüquqlu və qarşılıqlı münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksək səviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması və beynəlxalq ədalətin təmin olunmasını istəyirdik. Bu istiqamətlərin bir çoxunda istədiyimizə nail olsaq da, münaqişənin ədalətli şəkildə həllinin işartıları belə görünmürdü.

Fəxrlə deyə bilərik ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində son 20 ildə dostlarımızın sayı daim çoxalıb, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olunub. Azərbaycan son iki onillikdə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edib və onun beynəlxalq miqyasda siyasi nüfuzunun artırılmasına əvəzsiz xidmətlər göstərib. Ölkəmiz Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq əlaqələri qurub, regionda mehriban qonşuluq siyasətini təşviq etməklə Cənubi Qafqazın sülh məkanına çevrilməsinə töhfə verib və sair. Ancaq münaqişə həll edilməmiş qalırdı.

Bizim xarici siyasətimizin əsas uğurlarından biri də “Bakı prosesi”ndən başlayaraq, müntəzəm şəkildə sivilizasiyalararası dialoqa töhfələr verilməsi idi. Hamını gözünün qabağındadır ki, Azərbaycan hər il müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi edir. Ekspertlərin fikrincə, Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq Forumu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu və digər tədbirlərin təyinat məntəqəsi ona görə Bakıdır ki, Azərbaycan heç bir hərbi təşkilatın üzvü deyil. Ölkəmizin güclü beynəlxalq nüfuzu var. O, bütün qonşuları və müttəfiqləri ilə qarşılıqlı etimad əsasında əməkdaşlıq edir. Artıq hamı etiraf edir ki, Azərbaycan regionda və dünyada əsas sabitləşdirici faktordur.

Yeri gəlmişkən, 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimovla NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarıda yenə general Gerasimovla NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş Komandanı Kertis Skaparatti , 2019-cu ilin iyul ayında Rusiyanın eyni ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında və nəhayət, 2019-cu ilin noyabr ayında Rusiya Müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimovla NATO Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsi bizim xarici siyasətimizin uğurlarından idi. Ancaq, bütün bunlar günün reallıqları olsa da, çox təəssüf ki, məlum münaqişə həll edilməmiş qalırdı.

Son 20 ildəki xarici siyasətimiz milli dövlətçilik maraqlarının müdafiə edilməsi üçün həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilmişdir. Ekspertlərin fikrincə, həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Mütəxəssislər xatırladırlar ki, Prezident İlham Əliyev “siyasi şahmat lövhəsi”ndə “siyasət qrossmeysteri” olaraq daim rəqibini “mat” etməyi bacarır.

Təbii ki, 2003-cü ildən bəri davam edən xarici siyasətimizdə uğurlar da çox olub, heç zaman unudulmayacaq əlamətdar günlər də. Ancaq mən bu yazını Prezident İlham Əliyevin əksər həmkarlarına nəsib olmayan qətiyyətli ( həm də riskli) bir addımı haqqında söz açmaqla yekunlaşdırmaq istəyirəm. Hamının yadındadır ki, 2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə–Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta iş o yerə çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində “Sivilizasiyalar alyansı” adlanan bir tədbir təşkil edərək, orada ABŞ-ın yeni prezidenti Barak Obamanın və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi planlaşdırmışdılar.

Təbii ki, məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edərək, onu prinsiplərindən daşındırmaqdan ibarət idi. Azərbaycan Prezidenti isə dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etmişdi. Dövlət başçımız bununla da sübut etmişdi ki, Azərbaycan ərazicə o qədər də böyük dövlət olmasa belə, sözünün mənası, liderinin qətiyəti və iradəsi böyükdür. Bütün bunların nəticəsidir ki, İstanbulda bizə tələ qurmaq istəyən böyük dövlətlər Azərbaycan Prezidentinin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar.

Dövlət başçımız nə üçün həmin riskli addımı atmışdı? Çünki rəsmi Ankara Türkiyə–Ermənistan sərhədlərini bilavasitə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyinə görə bağlamış və bu fakt İrəvana sarsıdıcı iqtisadi zərbə olmuşdu. Qərb dövlətləri isə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini uzaq gələcəyə saxlamaqla Türkiyə – Ermənistan sərhədinin açılmasına nail olmaq istəyirdilər. Ancaq məlum oldu ki, Prezident İlham Əliyev onların fikirlərinə təsir göstərə biləcəyi diplomat deyilmiş. Həmin sərhədlər hələ də bağlıdır.

Amma, artıq həmin sərhədlər açıla bilər. Çünki Azərbaycan son üç ildə işğaldakı torpaqlarının düşmən tapdağından azad edilməsinə də nail oldu, ərazi bütövlüyünün bərpasına da, suverenliyinə də. Bütün bunlar isə hərbi qüdrətimizlə yanaşı, bizim “Əsrə bərabər 20 il” adlandırdığımız dövrdə həyata keçirilən xarici siyasətin, mükəmməl diplomatiyanın nəticəsidir. İnanırıq ki, əldə olunmuş nailiyyətlər dövlətimizin daha böyük uğurlarına zəmin yaradır.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Azərbaycan “enerji inqilabı”nın önündə gedir

## Ölkəmiz “mavi qaz”la yanaşı, elektrik enerjisi də nəql edəcək

**(əvvəli 1-ci səhifədə)**

Avropada 2010-cu ildən indiyədək bərpaolunan mənbələr hesabına enerji istehsalı 18 bənd artaraq 43 faizə yüksəlib. Müqayisə olunan dövrdə bərpaolunan mənbələr hesabına enerji istehsalının payı Böyük Britaniyada 36 faizdən 43 faizə, Hollandiyada 30 faizdən 40 faizə, Almaniyada 27 faizdən 44 faizə, Avstraliyada 22 faizdən 31faizə, Çilidə 14 faizdən 55 faizə, ABŞ-da 12 faizdən 22 faizə qədər arta bilib. Türkiyədə bu dövrdə ən yüksək artım qeydə alınıb. Belə ki, qardaş ölkədə göstərilən dövrdə bərpaolunan mənbələr hesabına istehsal olunan enerjinin xüsusi çəkisi 15 faizdən 42 faizə qədər yüksəlib.

Avropa İttifaqı bərpaolunan enerji mənbələrinin ümumi elektrik enerjisi istehlakında payını bu onilliyin sonuna qədər əvvəllər nəzərdə tutulan 32 faizdən 45 faizə çatdırmaq qərarına gəlib.

Beynəlxalq Enerji Agentliyinin verdiyi məlumatlara görə, dünyada elektriklə işləyən avtomobillərin payı son 3 ildə 5 dəfə artıb. Əgər 2020-ci ildə dünyada satılan hər 25 avtomobildən yalnız biri elektrik mühərriki ilə təchiz edilmişdisə, 2023-cü ildə satılan hər 5 avromobildən birinin elektrik mühərriki ilə təchiz ediləcəyi gözlənilir.

Son üç il ərzində qlobal miqyasda elektriklə işləyən avtomobillərə tələbat 5 dəfə artıb. 2022-ci ildə bütün dünyada hərəkət edən elektromobillərin sayı 60 faiz artaraq 26 milyona çatıb. Əgər 2022-ci ildə dünyada satılan avtomobillərin ümumi sayında elektromobillərin xüsusi çəkisi 14 faiz təşkil etmişdisə, bu il həmin rəqəmin 18 faizə yüksələcəyi gözlənilir. Müqaisə üçün bu göstərici 2020-ci ildə cəmisi 4 faiz təşkil etmişdı.

Neft-qaz ölkəsi olan Azərbaycan dünyanın enerji balansında baş verən bu proseslərin ciddi fərqindədir. Prezident İlham Əliyevin yürütdüyü enerji siyasətində “yaşıl enerji” istehsalı xüsusi yer tutur. Son illərdə Azərbaycanda bu istiqamətdə çox işlər görülüb.

Bütövlükdə, bu gün Azərbaycanda elektrik enerjisi istehsalının və onun ixracının sürətli artımı baş verir. Biz artıq regionun ən etibarlı elektrik enerjisi təchizatçılarından birinə çevrilə bilmişik. Azərbaycan Respublikası Energetika Nazirliynin məlumatlarına nəzər salmaq yetərlidir ki, son 14 ildə elektrik enerjisi ixracı sahəsində hansı inqilabi dəyişikliklərin baş verdiyini əyani şəkildə görə bilək. Belə ki, 2022-ci ildə Azərbaycan 121 milyon 598,37 min dollar dəyərində 1 milyard 711 milyon 432,88 min kVt.saat elektrik enerjisi ixrac edib.

Bununla da, 2022-ci ildə Rusiyaya 3 milyon 644,23 min dollar dəyərində 91 milyon 529,56 min kVt.saat, Gürcüstana 33 milyon 213,97 min dollar dəyərində 551 milyon 878,8 min kVt.saat, Türkiyəyə 79 milyon 267 min dollar dəyərində 964 milyon 453,7 min kVt.saat, İrana 5 milyon 473 min dollar dəyərində 103 milyon 571,21 min kVt.saat elektrik enerjisi ixrac olunub.

Cari ilin yanvar–iyul aylarında Azərbaycan ümumi dəyəri 314 milyon dollardan çox olan 2 milyard 829 milyon kVt/saat elektrik enerjisi ixrac edib. Bu isə 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,1 dəfə və 8,9 dəfə artım deməkdir. Ötən 7 ayda elektrik enerjisi ixracının Azərbaycanın ümumi ixracında xüsusi çəkisi 1,5 faiz, qeyri-neft sektoru




ixracında isə 15,7 faiz təşkil edib.

Azərbaycan artıq elektrik enerjisi ixracının yeni müstəvisinə keçid edir. Bərpaolunan enerji resurslarının yetərincə geniş olduğu ölkəmiz “yaşıl enerji” istehsalını və onun ixracını sürətlə artırmaq kimi hədəflər müəyyənləşdirib.

Bu istiqamətdə atılan ən real addımlardan biri 2022-ci ilin dekabr ayında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişinin imzalanması olub. Saziş Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını təmin etməyi nəzərdə tutub. Bu kabellə ötürülən elektrik enerjisi daha sonra Macarıstana və Avropa nəqletmə sistemi vasitəsilə qitənin qalan hissəsinə nəql ediləcək.

Azərbaycan bu istiqamətdə xarici investisiyaları cəlb etməklə ciddi addımlar atmağa başlayıb. Oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib. Bu layihənin təməli 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, “AzərEnerji” ASC və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələrin imzalanması ilə qoyulub.

Təməli 2022-ci il martın 15-də qoyulan, ümumi dəyəri 262 milyon ABŞ dolları olan stansiyanın tikintisi 1 il 7 ay ərzində başa çatdırıldı. Xarici sərmayə hesabına tikilən bu stansiya hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət etməyə imkan verəcək.

Ölkəmizin ərazisi, xüsusən də Abşeron yarımadası, Vətən müharibəsində işğaldan azad edilmiş ərazilər bərpaolunan enerji mənbələri ilə kifayət qədər zəngindir. Ölkə Prezidenti artıq işğaldan azad olunmuş ərazilərimizi “yaşıl enerji” zonası elan edib. Bütövlükdə, Azərbaycanın quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi bütövlükdə 157 qiqavat təşkil edir. Azərbaycan ərazisindəki dağ çaylarının potensialı enerji istehsal gücü 520 MVt həcmində qiymətləndirilir.

Bu sahədə dövlətin qarşıya qoyduğu əsas hədəf isə 2030-cu ilədək ölkənin elektrik enerjisinin istehsalının ümumi həcmində bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmaqdan ibarətdir. Bu hədəfə çatmaqla Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin etməklə yanaşı, xarici ölkələrə, ilk növbədə, Avropa ölkələrinə enerji ixracının həcmini əhəmiyyətli dərəcədə artıracaq.

Beləliklə, Azərbaycan Avropanın təkcə “mavi qaz” deyil, həm də elektrik enerjisi təchizatında layiqli yer alacaq. Bu isə ölkəmizə böyük iqtisadi və siyasi dividendlər qazandıracaq.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru,***
***professor***

1 noyabr 2023-cü il, çərşənbə Xalq qəzeti

# Bakı – İrəvan sülh gündəliyi

## Ziddiyyətlərə və mövqe yaxınlıqlarına baxış



(əvvəli 1-ci səhifədə)

N.Paşinyan bildirib, növbəti prinsip Alma-Ata Bəyannaməsi əsasında delimitasiyanın həyata keçirilməsidir. Onun sözlərinə görə, belə olan halda da Sovet İttifaqının sərhədləri əsas götürülür: “Bu, o deməkdir ki, Ermənistanla Azərbaycan arasında Sovet İttifaqı dövründə mövcud olan inzibati sərhədlər dövlət sərhədlərinə çevrilib və onun toxunulmazlığını tərəflər Alma-Ata Bəyannaməsi ilə tanıyıb və tanıyır”.

Qeyd edək ki, delimitasiya prosesində Alma-Ata Bəyannaməsinin imzalanmasınadək mövcud vəziyyəti əks etdirən xəritələrin olması da müstəsna əhəmiyyət daşıyır. Göründüyü kimi, tərəflərdə xəritələr var və onların siyasi iradəsi ilə bu proses kifayət qədər tez və effektiv şəkildə irəliləyə bilər. Paşinyanın haqqında söz açdığı üçüncü prinsipə əsasən isə regional kommunikasiyalar suveren yurisdiksiyalar əsasında açılmalıdır: “Tərəflərin hər biri öz ərazisində, öz sərhədində sərhəd gömrük nəzarətini təmin edir. Bundan əlavə, onlar öz daxillərində ümumilikdə kommunikasiyaların təhlükəsizliyini təmin edirlər. Söhbət magistral və dəmir yollarından gedir”.

N.Paşinyan onu da bildirib ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin tərkibində xüsusi bölmə yaradılacaq və həmin bölmə kommunikasiyaların təhlükəsizliyini təmin edəcək. Amma bu məntiq 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın doqquzuncu bəndini inkar edir. Çünki orada təhlükəsizliyə nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən gerçəkləşdirilməsi yazılıb. Həm bu məqama görə, həm də ümumən onu da demək lazımdır ki, heç də hər şey Paşinyanın bildirdiyi qədər sadə deyil. Çox güman ki, onun özü də bunu bilir. Nikol üç əsas prinsipə fokuslanır, ancaq məlumdur ki, o, oktyabrın 5-də keçirilmiş Qranada sammiti zamanı imzalanmış sənədləri də əsas götürmək yolunu tutur. Azərbaycan Prezidenti İlham Əliyevin qol çəkmədiyi, Paşinyanın, Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun və Aİ Şurasının prezidenti Şarl Mişelin təsdiqlədikləri həmin sənədlər faktiki olaraq Qarabağ avantürasının davamıdır. Onlarda Qarabağ ermənilərinin bölgəyə qayıtmaları üçün beynəlxalq təminatlar məntiqi əsas götürülür ki, bu, Azərbaycanın suveren hüquqlarına ziddir. Yəni, Azərbaycanın konstitusion əsasda Qarabağın erməni sakinləri üçün verdiyi hüquq və təhlükəsizlik təminatları heçə sayılır. Elə isə Nikolun yuxarıdakı üç prinsipi və reallıq necə dəyərləndirilsin?

Digər tərəfdən, Ermənistanın siyasi kluarlarında gərginlik var ki, Azərbaycan Prezidenti Ermənistanın 29800 kvadratkilometrlik ərazidə suveren hüquqlarını tanıdığını açıq şəkildə bildirməyib. Belədə sual yaranır: hazırda Paşinyanın ölkəmizin ərazi bütövlüyünü tanıdığını bildirməyinin önəmi varmı? Nəzərə alaq ki, o, bir yandan Azərbaycanın suverenliyi ilə qəbullandığını vurğulayır, başqa bir yandan isə Qarabağ erməniləri üçün beynəlxalq təminatdan dəm vurur. Hələ beynəlxalq miqyasda ölkəmizə qarşı aparılan anti-təbliğat da var. Aydındır ki, bu ritorika sülh məntiqinə ziddir.

Bir məsələ də vurğulanmalıdır ki, Ermənistanın baş naziri sərhədlərin delimitasiyası dedikdə 1975-ci il xəritəsini əsas götürməkdən danışır. Nəyə görə məhz bu xəritə, aydın deyil. Üstəlik, Azərbaycan tərəfi Nikolun barəsində danışdığı xəritədən söz açmır. Daha bir məqam isə ondan ibarətdir ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bu günlərdə bir qədər atmacalı şəkildə bildirmişdi ki, tərəflər Brüsseldə bəxtini sınaya bilərlər, ancaq SSRİ-nin ən son xəritələri Rusiyadadır. Bu deyimin nəyə hesablandığını söyləmək çətindir. Çünki istər Azərbaycanda, istərsə də Ermənistanda Lavrovun haqqında danışdığı xəritələr qalmaqdadır...

Üstəlik, İrəvanın siyasi kluarlarında delimitasiya və demarkasiya prosesinə avropalı mütəxəssisləri cəlb etmək çağırışları özünü göstərməkdədir. Mövcud xüsusda Litva və Belarus təcrübələrini özündə birləşdirən ATƏT-in təlimatının da demarkasiya üçün əsas rolu oynamalı olduğunu söyləyənlərin səsi gəlməkdədir. Ermənistanda, həmçinin sülh müqaviləsində mübahisəli məsələləri həll edəcək beynəlxalq arbitr təyin etməyin vacibliyini vurğulayanlar da önə çıxmaqdadır. Mövcud xüsusda, hətta, ərazi məsələlərinə dair rəy bildirmək təcrübəsi olan BMT-nin Ədalət Məhkəməsinin uyğun seçim ola biləcəyi bildirilməkdədir. Əlbəttə, bütün bunları təsadüf saymaq olmaz. Məlumdur ki, Paşinyan iqtidarı, necə deyərlər, gündəm yaratmaq şakərindən qalmır...

Başlıca məqamlardan biri də Paşinyanın bir qədər əvvəl diqqətə çatdırdığımız sözləridir. Erməni baş nazirin ölkəsinin Təhlükəsizlik Xidmətində xüsusi bölmənin yaradılmasından və həmin bölmənin Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda təhlükəsizliyi icra etməsindən danışırsa da, məlumdur ki, Azərbaycan həmin yolun Ermənistan deyil, İran ərazisindən keçməsi üzərində dayanır. Bu, o deməkdir ki, ölkəmiz İrəvanın təhlükəsizlik zəmanətinə etibar etmir. Ancaq hazırkı məqamda Paşinyanın inadından görünən budur ki, Ermənistan sözügedən yolun açılmasında çox maraqlıdır. Hətta məsələyə ad da tapıb – “Dünyanın kəsişməsi”.

Bəli, Ermənistan yaxşı anlayır ki, Naxçıvana yol onun üçün həyati əhəmiyyət daşıyır. Bu səbəbdən məsələni Azərbaycanla sülh danışıqları müstəvisinə gətirməyə ciddi cəhd göstərir. Paşinyan iqtidarı yaxşı dərk edir ki, bu yolun olmaması Ermənistanın təcriddə qalması deməkdir.

Əslində, paradoksal durum yaranır. Vaxtilə Azərbaycan tərəfi deyirdi ki, sülh müqaviləsinə kompleks yanaşmaq lazımdır, Ermənistan rəsmiləri isə Qarabağı ayrıca tuturdular. İndi İrəvan regional kommunikasiyaların açılması müstəvisində müəyyən mənada kompleks yanaşma irəli sürməkdədir. Bu yanaşmanın üçtərəfli bəyanat məntiqinə zidd olduğu aşkardır. Görünür, elə ona görə də Azərbaycan Naxçıvana gedən yolun İrandan keçməsini təklif edir. Əlbəttə, Ermənistanın iddiası səbəbindən Rusiyanı kənara qoymamağın prinsipial xətt kimi seçilməsi labüddür. Digər məsələni isə vurğuladıq – Azərbaycana qlobal əhəmiyyət daşıyacaq layihə üçün Ermənistanın təhlükəsizlik təminatları yetərli sayıla bilməz. Deməli, İrəvanın razılaşmaqdan başqa əlacı yoxdur. Razılaşmayacağı təqdirdə isə kommunikasiyaların açılması sülh müqaviləsində yer almayacaq.

Əlbəttə, Azərbaycan – Ermənistan münasibətləri və sülh müqaviləsi ilə bağlı bir çox substantiv suallar var. Ancaq hazırda əsas sual birdir: Ermənistan və Azərbaycan liderləri, habelə ölkələrin xarici işlər nazirləri danışıqlar üçün nə vaxt və harada görüşəcəklər? Azərbaycan Rusiyada və Tbilisidə görüşlər keçirməyi təklif edib. Ermənistan hakimiyyəti hər iki formatı özü üçün riskli sayır. Hesab edir ki, belə olduqda Rusiya münaqişə tərəfinə çevriləcək. İrəvanda onu da düşünürlər ki, Tbilisidə və Moskvada baş tutacaq görüşlər ABŞ-ı və Aİ-ni Azərbaycana təsir göstərməkdən uzaqlaşdıracaq.

Ümumən, Ermənistan ikitərəfli danışıqlar formatından kənar dayanmağa çalışır. Ancaq Azərbaycan XİN rəhbərinin müavini Elnur Məmmədovun açıqlamasındakı müsbət paradiqma onu deməyə əsas verir ki, harada keçirilməsindən asılı olmayaraq, Azərbaycan və Ermənistan liderlərinin, o cümlədən rəsmilərinin ikitərəfli görüşü tezliklə baş tuta bilər.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Qarabağ ermənilərinə Avropa Şurasından “bədbəxtlik paketi”



(əvvəli 1-ci səhifədə)

Leyla xanımın paketi çox böyük imiş. Orada həssas vəziyyətdə olan qaçqınların hüquqlarının müdafiəsinin gücləndirilməsi, xüsusi həssaslığın qiymətləndirilməsi, xidmətlərə çıxış və qaçqınların öz hüquqları barədə məlumatlılığının artırılması, psixoloji dəstək daxil olmaqla, səhiyyə və psixi sağlamlıq xidmətlərinə çıxışın asanlaşdırılması, həssas insanlarla işləyən mütəxəssislərin potensialının gücləndirilməsi, təhsilin inklüzivliyi məsələlərinin həlli və peşə hazırlığı proqramlarına yenidən baxılması, habelə uşaq hüquqlarının müdafiəsi, yerli hakimiyyət orqanlarının dayanıqlığının artırılması və sair məsələlər əksini tapıb.

Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriç isə deyib ki, rəhbərlik etdiyi qurum belə bir məqsədyönlü və diqqət mərkəzində olan paketlə üzv Ermənistanı və onun xalqını misli görünməmiş çağırışlar şəraitində dəstəkləməyi nəzərdə tutur.

Göründüyü kimi, Avropa Şurası Qarabağ erməniləri ilə bağlı məsələni dramatikləşdirmək yolunu tutur və bu yol ümumən Qərbin Ermənistana dəstək ritorikasından irəli gəlməkdədir. Bu ritorikada iki məqsəd var: birincisi, baş nazir Nikol Paşinyan iqtidarına maliyyə ayrılmasını leqallaşdırmaq, ikincisi, İrəvanın Azərbaycanla sülh gündəliyinə təsir göstərmək və nəticə etibarilə Bakıya Qarabağ erməniləri müstəvisində təzyiq yollarını gücləndirmək.

Təxminən belə bir ssenari nəzərdə tutulur ki, bölgənin erməni əhalisi ilə bağlı durum şişirdiləcək və bu, yekun nəticədə Azərbaycanın güzəştə getməsinə gətirəcək. Güzəşt deyilərkən isə nələrin nəzərdə tutulduğu məlumdur – Qarabağ ermənilərinin bölgəyə ayrıca statusda qayıtmaları, onlar üçün xüsusi beynəlxalq təminatlar və s. Bir sözlə, Azərbaycanın konstitusion əsasdakı təminatlarını heçə saymaq, əvvəlki separatizmi leqallaşdırmaq, ən başlıcası Ermənistanın gələcəkdə Qarabağla bağlı iddialar səsləndirməsi üçün zəmin hazırlamaq.

Avropa Şurasının Ermənistanla bağlı canıyananlığına başqa aspektdən də yanaşmaq mümkündür. Sual yaranır: Qurum Azərbaycanın Ermənistanın işğalı nəticəsində öz ev-eşiyini, yurd-yuvasını tərk etmiş vətəndaşlarının taleyinə nə üçün belə həssas yanaşmamışdı? AŞ azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunmasına nəyə görə bu cür kompleks münasibət ortaya qoymamışdı?

Əlbəttə, biz heç vaxt demirik ki, Qarabağ ermənilərinin problemləri yoxdur. Onlar onsuz da bədbəxtdirlər. Bəxtsizdirlər ki, erməni avantürasının qurbanı olublar. Bədbəxtdirlər ki, Qarabağda otuz ildən də artıq müddətdə mövcud olmuş separatçı rejimin alətinə çevriliblər. Çox şanssızdırlar ki, müharibə cəlladlarının, idarəçiliyə quldarlıq dövrü qaydaları baxımından yanaşan təfəkkür sahiblərinin oyuncaqları olublar. Yəni, onlara kömək hər bir halda lazımdır. İndi Paşinyan administrasiyası bir qədər ədalətli davransa, dünyadan gələn maliyyə axınını azacıq da olsa, Qarabağ ermənilərinə çatdırsa, bu şəxslər əvvəlki illərlə müqayisədə xeyli yaxşı yaşayacaq, necə deyərlər, bir gün görəcəklər. Ancaq məlumdur ki, bu, ümumən yanaşma sayıla bilməz. Axı, nə vaxtadək Ermənistan Qarabağ qaçqınları kimi ayrıca təbəqə halına gətirilən şəxsləri xaricdən gələn maliyyə yardımları ilə bəsləyəcək? Nəzərə alaq ki, avropalılar pulu boşuna xərcləməzlər. Onlar bir müddətdən sonra nəticə hasil olmadıqda, geri çəkiləcəklər və Paşinyan iqtidarı qaçqınlarla üz-üzə qalacaq. Görəsən, onda nə edəcək?

***

Əslində, istər, Avropa Şurası, istərsə də, digər beynəlxalq təsisatlar ədalətli davransaydılar, ikili standartlar məntiqindən çıxış etməsəydilər, erməni avantürizminin davamına qol qoymaz, ərazi bütövlüyü və suverenlik prinsiplərinə əsasən, Qarabağ ermənilərinin Azərbaycanın yurisdiksiyası altında yaşamaları məntiqini rəhbər tutardılar. Görünür, bu məqam heç kəsi düşündürmür. Yekun nəticədə bölgənin erməni əhalisi yenə də alətə çevrilir. Onlar əvvəllər girov həyatı yaşayırdılarsa, indi isə qaçqınlığa məhkum duruma düşüblər. Avropalıların belə proqram, paket təklifləri isə onu göstərir ki, heç kəs onların geri qayıtmalarını əsla düşünmür.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Zamanın dəhlizində azanlar

## Azərbaycana qarşı “səlib yürüşü”nə qoşulanlar XXI əsrdə yaşadıqlarını unudublar

**Keçən əsrdən qalmış dini-siyasi təzyiq metodları ilə “silahlanan” Qərbin ermənipərəst gücləri, eləcə də Şimali Amerika qitəsinin iki dövləti Cənubi Qafqazın kandarındakı sülhə hər vəchlə əngəl olmağa çalışırlar. Eyni mərkəzdən idarə olunduğu, bir dirijorun çubuğu ilə hərəkət etdiyi şübhə doğurmayan “xor kapellası” son vaxtlar anti-Azərbaycan notlarını daha ucadan ifa etməyə başlayıb. Bu ansamblın tərkibində “peşəkarlarla” yanaşı, xaric səslər çıxaran, necə deyərlər, ifasında “xoruz buraxan” diletantlar da az deyil.**



Avropa Birliyi Bakını və İrəvanı 2023-cü ilin sonuna qədər yekun sülh sazişinə imza atmağa çağırır. İlk baxışdan bu çağırışlar xoş niyyətdən, sağlam yanaşmadan xəbər verir. Doğrudan da ilin sonunadək Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin bağlanması üçün münbit şəraitin yarandığı hiss olunur. İntəhası, Aİ özünün ikibaşlı davranışına, qurumun üzvü olan bəzi ölkələrin açıq pozuculuq fəaliyyətinə həssas və diqqətli yanaşsa, bölgəyə sülh daha tez gələr. Bəli, Fransa və onunla eyni məxrəcdən çıxış edən Qərbin bir çox ölkələri indiki məqamda Cənubi Qafqazda sülh prosesinə ciddi əngəl törədir və Aİ özündə cəsarət tapıb bunu etiraf etməli, üzərindəki basqını yenməyi bacarmalıdır. Məhz bu prizmadan baxanda, Parisin “çətirinə” sığınan Ermənistan hakimiyyətinin “böyük bacının” xeyir-duası olmadan Azərbaycanla sülh müqaviləsini imzalayacağı o qədər də ağlabatan deyil.

Ermənistanı silahlandırmağa girişən Makron Fransasının sülh prosesindən tamamilə kənara çəkilməsi indi vacib amillərdən biridir. Elə Aİ-nin Bakı və İrəvanı ilin sonunadək yekun sülh sazişini imzalamağa çağırması uzun müddət prosesə manelər yaradan əsas günahkarı – Fransanı səhnə arxasına keçirməyə hesablanıb.

Fransanın dominantlıq etdiyi bu qaragüruhun məqsədi sülh danışıqlarında, eləcə də, regionla bağlı bir sıra məsələlərdə Azərbaycanı Ermənistana güzəştə getməyə, ədalət prinsipinə və beynəlxalq hüquqa söykənən mövqeyindən geri çəkilməyə məcbur etməkdir. Bu cəhdlərin heç biri alınmayacaq.

### Sülhə qənim kəsilənlərin “birliyi”

Sözdə ABŞ da, Qərb də Cənubi Qafqazda sabitliyin tezliklə bərqərar olmasını, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasını dəstəklədiklərini deyirlər. Onlar özlərini regiona sülhü gətirəcək bitərəf vasitəçilər kimi göstərməyə çalışırlar. Fəqət reallıqda isə son vaxtlar hər iki cəbhənin siyasi kluarlarında sülh prosesinə əngəl ola biləcək hərəkətlərə meylin artması müşahidə olunur. Bu isə Qərbin ermənipərəst dairələrinin, ABŞ-ın oxşar mövqeli senator və konqresmenlərinin Azərbaycana, bütövlükdə, Cənubi Qafqaza münasibətdə ikili standartlı oyun vərdişlərindən hələ əl çəkmədiklərini göstərir.

### Ağ ev müttəfiqlərin “səlib yürüşü”nə qoşulurmu?

Bu il sentyabr ayında birgə təlimlər çərçivəsində amerikalı iki general, ardınca senator Cerri Pitersin başçılıq etdiyi Konqresin nümayəndə heyəti İrəvana səfər etdi. Sentyabrın sonlarında isə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin direktoru Samanta Pauer Ermənistanın suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və demokratiyasına dəstəyini təsdiqləmək və Qarabağda “son zorakılıqdan” irəli gələn humanitar ehtiyacları həll etmək üçün Ermənistana təşrif buyurdu. Son günlər isə ABŞ-ın bu ölkədəki səfiri Kristina Quinn Ermənistan–Azərbaycan sərhədinə, xüsusilə Qafana tez-tez səfərlərə çıxır. Burada səfir Quinn Qarabağdan köçən ermənilərlə görüşür, onlarla söhbət edir, Ermənistan hökumətinin “qaçqınlara” yaşayış yeri tapmaq səylərini dəstəklədiyini açıqlayır.

“ABŞ Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasını dəstəkləyir”. Bu açaqlamanı “Azadlıq” radiostansiyasına Vaşinqtonun İrəvandakı səfirliyindən veriblər. Aİ missiyasının genişlənəcəyi barədə dəqiq informasiyanın olduğunu nəzərə alaraq, Ağ evin də müşahidə missiyasına qoşulmasının mümkünlüyü barədə “Azadlığ”ın sualını səfirlikdəki mənbə cavabsız buraxıb. Səfirlikdən, sadəcə olaraq, onu qeyd ediblər ki, Vaşinqton regionda qarşılıqlı etimadın qurulması, Ermənistan və Azərbaycan arasında birbaşa dialoq üçün səmərəli atmosferin təmin edilməsi istiqamətində tərəfdaşların, o cümlədən Aİ-nin səylərini alqışlayır.

“Amerika Birləşmiş Ştatları Ermənistanın suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir” – səfirliyin cavabında xüsusi olaraq vurğulanıb.

Məgər Bakı Ermənistanın ərazi bütövlüyünü tanımır? Azərbaycan Prezidenti İlham Əliyev bunu bir neçə dəfə təkrarlayıb. Hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması sülh danışıqlarının həm Moskva, həm Brüssel, həm də Vaşinqton platformalarında öz təsdiqini tapıb. Bəs, Fransanın, Almaniyanın, Serbiyanın, Kanadanın, indi də ABŞ-ın bu məsələnin üstünə israrla gəlməsinin səbəbi nədir? Onlar İrəvanın Bakıya qarşı siyasi qarayaxma kampaniyasına dəstək verməklə nəyə nail olmağa çalışırlar? Bəlkə Ağ ev ermənipərəst koalisiyanın “səlib yürüşü”nə qoşulmaqla Qərbdəki müttəfiqlərinin yanında durduğunu nümayiş etdirir? Yoxsa, respublikaçılar gələn il keçiriləcək prezident seçkilərində ABŞ-dakı güclü erməni diasporunun – yarım milyonluq elektoratın səsini qazanmağın qeydinə indidən qalırlar?



### Özünə umac ova bilməyən Kanada...

Müttəfiqlərin “xor kopellası”nda ən azı bek-vokalistliyə iddia edən Kanada da birdən-birə ermənilərin təəssübkeşinə çevrilib. Ölkəsinin İrəvanda səfirliyinin açılışına gələn Kanadanın xarici işlər naziri Melani Colinin bölgədəki vəziyyət barədə yarımçıq təsəvvürə malik olması onun verdiyi bəyanatlardan, Azərbaycana qarşı nümayiş etdirdiyi qərəzli mövqeyindən aydın görünür. Fransız əsilli kanadalı nazirin bölgədə heç bir humanitar böhranın olmadığı bir vəziyyətdə bunun tamamilə əksini iddia etməsi suyu kimin dəyirmanına tökməsinin bariz nümunəsidir. Rəsmi Bakı Azərbaycana qarşı addımlardan biri kimi sanksiya variantını istisna etməyən həmin Melani Coliyə xatırlatdı ki, bizimlə təhdid dilində danışmaq kökündən yanlışdır və bu ritorika heç bir tərəfə uğur gətirə bilməz. Yəni, xanım nazirin erməni yalanlarına bürünmüş təxribatçı və avantürist bəyanatları beynəlxalq hüquq prinsiplərinə ziddir. Görünən budur ki, diplomatik cəbhədə tam püxtələşməmiş Kanadanın xarici işlər naziri belə məsuliyyətsiz açıqlamaları ilə bölgənin sabitliyinə və tərəqqisinə maneçilik törətdiyini özü də dərk eləmir.

Rəsmi Bakı İrəvanı vasitəçilərsiz sülhə, regional əməkdaşlığa və səmimiyyətin hakim kəsiləcəyi “Qafqaz evi”nə dəvət edir. Dünyaya səpələnmiş erməni daşnakları və onların qərbli, amerikalı “züy tutanları” isə Azərbaycana qarşı şər-böhtan kampaniyasından, uydurma ittihamlardan əl çəkmək istəmirlər. Hətta bəzən baş nazirlərinin açıqlama və etiraflarına daban-dabana zidd mövqe sərgiləyirlər. Paşinyana beyinləri “miatsum”-la zəhərlənmiş bu pasiyentlərin əlində naçar qalmış həkim obrazında baxanda, düzü, adamın ona yazığı gəlir.

Deyəsən, qocalıb taqətdən düşmüş “köhnə qitə” dövrün, zamanın yerini də səhv salıb. Hazırda Qərbin Azərbaycana qarşı bir koalisiyada birləşmiş ermənipərəst qüvvələrə məqsədinə çatmaqdan ötrü yararlandığı metod və taktikanın artıq işə yaramadığını, onların keçən əsrdə qaldığını anlatmağın vaxtı çatıb. Deyəsən, onlar zamanın dəhlizlərini də səhv salıblar. Daha çox geosiyasi maraqlarını güdən, dini təəssübkeşlik nümayiş etdirən bu koalisiyanın heç nəyə nail ola bilməyəcəyi hər kəsə yaxşı bəllidir.

*İmran BƏDİRXANLI*
*XQ*

# Anton Koçinyan: 1968–69-cu illərdə Dağlıq Qarabağ məsələsini həll etməyə yaxın idik...

## *Amma Heydər Əliyevin hakimiyyətə gəlişi və onun Moskvadakı nüfuzu bunu həyata keçirməyə imkan verməyib*



**Azərbaycan ədəbi mühitində öz imzası və dəsti-xətti olan görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibəmiz davam edir.**

(əvvəli ötən sayımızda)

***– Hidayət müəllim, bildiyimə görə, Anton Koçinyan Heydər Əliyevin Ermənistanın Azərbaycandan torpaq qoparmaq istəklərini ürəklərində qoyduğunu sonralar hansısa mətbuat orqanına verdiyi müsahibədə də etiraf edib. Belə bir əhvalat olubmu?***

–1974-cü ilin noyabrında Anton Koçinyan istefaya göndəriləndən xeyli sonra – 1988-ci ildə Qarabağda separatizm baş qaldıranda, "Qarun" (Azərbaycan dilində "Bahar") jurnalına müsahibə verir. Orada müxbir ona sual verir ki, "8 il Ermənistana rəhbərlik etmisiniz. Bu müddətdə Qarabağ məsələsi heç qaldırılmadımı?" Koçinyan cavab verir: "Niyə qaldırılmadı, qaldırıldı. Hətta 1968–69-cu illərdə bunu həll etməyə yaxın idik. O vaxt bunu reallaşdırmaq daha asan idi. Amma Heydər Əliyevin hakimiyyətə gəlişi və onun Moskvada yüksək hakimiyyət pilləsində nüfuzu bunu həyata keçirməyə imkan vermədi".

Bu həqiqət idi, Koçinyan belə millətçi hərəkətlərə cəhd edirdi və bununla erməni milləti qarşısında özünün korrupsiya əməllərini ört-basdır etməyə çalışırdı. Ona görə də Sov.İKP MK Siyasi Bürosunun çox nüfuzlu üzvü, "boz kardinal" ləqəbi almış M.Suslov bir dəfə Anton Koçinyanı Moskvaya çağırıb ona bildirir ki, "bəsdir erməni millətçiliyini təbliğ etdiyiniz, yetər!" Bu irad Koçinyanın yaddaşında sərt şillə kimi qalmışdı...

***– Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra, ümumən, Qərbi Azərbaycandakı soydaşlarımızın həyatında nə dəyişdi, bu hadisənin sizə hansı təsiri oldu?***

– Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələn gündən Qərbi Azərbaycanla çox yaxından maraqlanırdı. İrəvanda işləyən azərbaycanlılarla, nomenklatur vəzifələrdə çalışan soydaşlarımızla, ziyalılarımızla imkan daxilində əlaqə yaratmağa çalışırdı, onlara yerlərdə olan münasibəti öyrənirdi, imkan düşən kimi Ermənistan rəhbərliyinə iradlarını bildirir və sözünü deyirdi.

Yaxşı yadımdadır, o zaman Bakıda "Ədəbiyyatların dostluğu xalqların dostluğudur" adı altında böyük bir konfrans keçirilirdi. Ermənistandan Yazıçılar İttifaqının sədri Vardqes Petrosyan gəlmişdi. Heydər Əliyevin onu qəbul etməsi ilə bağlı Ermənistanda az qala əfsanələr dolaşırdı. Çünki Petrosyan Heydər Əliyevin qəbulunda olduğuna və görüş uzandığına görə İrəvana uçan təyyarəni iki saatləngidib uçmağa qoymamışdılar. Petrosyan qayıdandan dərhal sonra mənə zəng vurdu ki, gəl görüşək. Gedib görüşdüm. Dedi: "Heydər Əliyev sizi yaxşı tanıyırmış. Məndən sizi soruşdu, işlərinizlə maraqlandı". Dedim: "Heydər Əliyev məni cəmi bir dəfə görüb, inanmıram mən onun yadında qalım". Petrosyan əlini çiynimə qoyub dedi: "Sən Heydər Əliyevi yaxşı tanımırsan. Mən sənin haqqında danışdım. Sözümü ağzımda qoyub dedi, hə biz də onu izləyirik. Çox maraqlı işlər görür". Dedi, "Heydər Əliyev sizin teatrınızla, onun binası problemi, burada işləyənlərin sosial vəziyyəti ilə maraqlandı". Təbii ki, mən qürur hissi keçirdim və elə bil arxamda bir dağ əmələ gəldi. Deməli, Ermənistanda biz yiyəsiz deyilik.

Sonra Heydər Əliyevin bizim teatrla maraqlanmasını mənə Ermənistanın mədəniyyət naziri də, Mərkəzi Komitənin katibi də dedi.

***– Heydər Əliyev, yəqin ki, hələ Azərbaycanın birinci katibi olanda İrəvanda hər hansı bir tədbirdə iştirak edib və siz bunu görməyə bilməzdiniz. Çünki o zaman siz İrəvan Teatrının direktoru, həm də orda elitada təmsil olunan azərbaycanlılardan idiniz. Ermənilər öz məkr və xislətlərini açıq bürüzə verirdilərmi?***

– Əlbəttə, Heydər Əliyev İrəvanda bir çox tədbirlərdə iştirak edirdi. Məsələn, 1970-ci ilin payızında Ermənistan SSR-nin 50 illiyi idi. Sov.İKP MK-nın Baş katibi Brejnev də İrəvana gəlmişdi. Təbii ki, Heydər Əliyev də o tədbirdə iştirak edirdi. Həmin tədbirdə Brejnevin çıxışından sonra ən çox alqışlanan Heydər Əliyevin çıxışı oldu. Heydər Əliyev auditoriyanı bir andaca ələ almağı bacarır və xarizması ilə özünə simpatiya aşılayırdı. Məsələn, o tədbirdə Heydər Əliyev çıxışının əvvəlində zala müraciətlə erməni dilində dedi: "Hörmətli yoldaşlar!" Dərhal gurultulu alqışlar qopdu. Bundan sonra onu bir neçə dəfə belə sürəkli alqışlarla müşayiət etdilər. Sonda da ikinci dəfə erməni dilində dedi: "Yaşasın Sovet Ermənistanı". Alqışlar bir neçə saniyə dayanmaq bilmədi. Bütün bunlara baxmayaraq, artıq zalın baxışından hiss olunurdu ki, qatı millətçilərin içində bir qısqanclıq, paxıllıq, riyakarlıq var.

Onu da deyim ki, Heydər Əliyevin Sovet İttifaqında şöhrəti yayıldıqca ermənilər bundan son dərəcə qəzəblənir və müxtəlif iyrənc, cılız hərəkətlərə yol verirdilər. Məsələn, bir gün Ermənistan Yazıçılar İttifaqının sədri Vardqes Petrosyanı, məşhur yazıçı, SSRİ Dövlət mükafatı laureatı Gevork Emini və bir də məni İrəvan Pedaqoji İnstitutuna görüşə dəvət etmişdilər. Görüş keçiriləcək akt zalı ilə üzbəüz institutun Azərbaycan bölməsi yerləşirdi.

Heydər Əliyev Siyasi Büroya namizəd seçilməmişdən əvvəl, Ermənistanda dövlət müəssisələrində, ali məktəblərdə Siyasi Büro üzvləri ilə yanaşı, namizədlərin portretlərini də divara vururdular. Heydər Əliyev Siyasi Büro üzvü seçiləndən sonra yalnız Büro üzvlərinin portretlərini vurdular ki, nə var-nə var Heydər Əliyevin portreti olmasın. Mən bu institutda estetikadan mühazirələr oxuyurdum deyə, bura teztez gəlirdim və burada Heydər Əliyevin portreti var idi. Görüşə gələndə diqqət etdim ki, Heydər Əliyevin portreti yoxdur. Universitetin Azərbaycan bölməsinin dekani, təbii azərbaycanlı müəllim yanımda gedirdi. Ondan soruşdum: "Heydər Əlirzaoğlunun portretini görmürəm?" Dedi: "Bunlar çıxarıblar, indi biz də Heydər Əliyevin o ölçüdə şəklini axtarırıq". İnstitutun rektoru da mənim sol tərəfimdə gedirdi. Başqa bir sözümüz olmadı. Zala girdik. Rektorun bir tərəfində mən, o biri tərəfində Petrosyan oturmuşdu. Rektor yavaşca mənə tərəf əyilib dedi: "Sizin dekanla söhbətinizi eşitdim. Siz elə şeylərə fikir verməyin. Hansısa axmaq o şəkli ordan çıxarıb... Mən özüm tapşıraram Heydər Əliyeviçin portretini gətirib ora vuracaqlar". Mən də sözümü deməliydim, amma lazımı tərzdə. Dedim: "Yox, mən ona bir söz demirəm, amma belə bir təhsil müəssisəsində hansısa axmağın portreti ordan salması təəssüf doğurur. Fikirləşirəm 30 il Mikoyanın şəkli bizim başımızın üstündə olub. Bir azərbaycanlı onu divardan qoparıb düşürməyib. Siz elə bilirsiz bizim içimizdə axmaq yoxdur, var. Amma heç kim bunu etməyib". Rektor qızardı, bozardı, amma bu iradı zəhər kimi uddu.

Açığını deyim ki, Heydər Əliyevə və mənə olan münasibət bununla bitmədi. Mənə söz verdilər, danışdım və sonda zala müraciət edib dedim, " kimin sualı varsa qalxıb birbaşa şifahi versin". Son kurs tələbəsi, ya da aspirant olan gözəl bir qız yerindən qalxıb dedi: "Yoldaş Hidayət, Siz Leninə, Stalinə, Xruşova və Brejnevə necə baxırsınız?" Dərhal hiss etdim ki, bu sual Heydər Əliyevə yönəlik bir sualdır. Dedim: "Bilirsiniz, mən teatrda işləyirəm, mənim leksikonumda teatr terminləri çoxdur. Lenin dramatik qəhrəmandır, Stalin faciəvi qəhrəmandır, Xruşov komik qəhrəmandır. (Hamı diqqət kəsilib, Brejnev haqqında nə deyəcəyimi gözləyir.) O ki qaldı Brejnevə..., onu sonra deyərəm". Zal sükuta daldı və bir neçə saniyədən sonra alqışladılar.

***– Elə bilirəm Heydər Əliyevin artan nüfuzu erməniləri elə də rahat buraxmazdı. Bunu hansısa formada daha necə və hansı miqyasda bürüzə verirdilər?***

– Təbii, ulu öndərin nüfuzu artdıqca ermənilərin ona qarşı qəzəbi də artırdı və bunu gizlədə bilmirdilər. Bir dəfə xidməti avtomobilimdə Basarkeçərə gedirdim. Sürücüm bir erməni idi. Kamo (köhnə adı Kəvərdir) yaşayış məntəqəsindən çıxıb qarşıdakı dərədən yuxarı qalxırdıq. Baxdım ki, yol göstəricisinin üstündə bir şəkil vurublar. Elə bil ürəyimə damdı və öz-özümə dedim: "Birdən Heydər Əliyevin şəkli olar". Maşını saxlatdırdım. Düşüb 50-60 metr geridə qalan bu yol göstəricisinə yaxınlaşdım. Gördüm Heydər Əliyevin şəklidir, üzünə palçıq vurub, asıblar. Əslində bu azərbaycanlılara sataşmaq üçün edilmiş bir hərəkət idi. Şəkli ordan götürüb gətirib maşına qoydum. Həmin o erməni sürücü neçə dəfələrlə belə epizodların şahidi olub, elə ermənilərin ünvanına söyə-söyə şəkili qoparıb gətirib maşına qoyub. Əslində bu erməni cılızlığının, paxıllığının aydın bir göstəricisi idi.

...1982-ci il noyabrın 10-da Sov.İKP MK-nın Baş katibi Brejnevin vəfatı xəbəri yayılanda, bütün Ermənistan bunu bayram kimi qarşıladı. Hətta onun şəkillərini tramvayların arxasına vurmuşdular, ictimai yerlərdə onu məsxərəyə qoyurdular. Onların gözündə Brejnev Heydər Əliyevin Moskvadakı dayağı sayılırdı və ona görə belə edirdilər. Bütün bunlar, əlbəttə Heydər Əliyevin böyüklüyünü və ermənilərin onun qarşısında acizliyini göstərən faktlar idi.



Onlar o zaman başa düşmüşdülər ki, Heydər Əliyev nə qədər vəzifə başındadır, Azərbaycana qarşı məkrli planlarını həyata keçirə bilməyəcəklər.

***– Hidayət müəllim, 1987-ci ildə Heydər Əliyev Qorbaçovun namərdcəsinə təzyiqləri altında hakimiyyətdən uzaqlaşdırılmasaydı, ermənilər Qərbi Azərbaycandakı soydaşlarımızı deportasiya edə bilərdilərmi? Ümumiyyətlə o, iş başındaykən erməni separatizmi Azərbaycana qarşı böyük təcavüzə çevrilərdimi?***

– Birmənalı şəkildə deyirəm ki, mümkün deyildi. Bilirsiniz, bunu mən dünən, bu gün demirəm. Hələ erməni separatizmi tüğyan edən illərdə, Azərbaycana qarşı erməni təcavüzü böyük miqyas alanda yazırdım və deyirdim ki, əgər Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırılmasaydı, xalqımız 1990-cı illərdə qarşılaşdığı faciələrlə üzləşməzdi. Heydər Əliyevi 1987-ci ilin noyabrında, Oktyabr inqilabının 70 illiyində istefaya getməyə məcbur etdikdən iki həftə sonra Qorbaçovun köməkçisi Aqanbekyanın Fransanın "Humanite" qəzetindəki məlum məqaləsi dərc edildi və bu məqalə Ermənistanın Azərbaycana qarşı bütün cəbhə boyu hücuma keçməsinə sanki bir işarə oldu.

Yaxşı xatirimdədir, Dağlıq Qarabağ Muxtar Vilayətinin 50 illiyi tədbirində Heydər Əliyev çıxış etdi və ağzınacan ermənilərlə dolu olan zalda cəsarətlə bəyan etdi ki, "bəziləri deyirlər guya Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistana verilməlidir. Bu absurddur və bunun heç bir əsası yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və həmişə də belə olacaq". Orada oturan azərbaycanlılar bir yana qaldı, ermənilərin gurultulu və sürəkli alqışları ərşə ucaldı. Belə olan halda mümkün olardımı ki, Heydər Əliyev hakimiyyətdə olsun, ermənilər at oynatsınlar? Əlbəttə yox.

Yeri gəlmişkən, bu hadisələrlə bağlı bir əhvalatı da danışım. O zaman Xankəndidə separatçı hərəkat baş qaldıranda məni də ora göndərdilər. Şəhərə çatanda bildim ki, Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov da buradadır. Baxdım ki, Vilayət Partiya Komitəsinin qarşısındakı meydanda 10-15 min erməni toplaşıb. Bunların hərəkətlərindən görünürdü ki, yaxşı hazırlıq keçiblər. Erməni yazıçı, əslən qarabağlı olan, amma Bakıda yaşayan Levon Adyan da Xankəndiyə gəlmişdi. Partiya komitəsinin binasında qarşılaşdıq. Açıq millətçi deyildi, amma sonradan məlum oldu ki, o da qatı millətçiimiş. Görüşdük, hadisələrlə bağlı fikir mübadiləsi apardıq. Soruşdum: "Bunu kimlər təşkil edib belə? Sənin məlumatın olmamış deyil". Dedi: "Bütün bunları aqrapromun sədri maliyyələşdirir. Çox imkanlı adamdır". Sonra Levon meydanı mənə göstərib dedi: "Heydər Əliyeviç burada olsaydı, özü çıxıb bu meydanı dağıdardı". Yəni bəyənmədiyimiz ermənin yazıçıya da bunu deyirdi.

Levon harasa getdi, mən də buranın birinci katib oturan mərtəbəsinin foyesində pəncərədə durub meydanı müşahidə edir və düşünürdüm, namərd dünya, Heydər Əliyevin hakimiyyətdə olmayan günləridir, bunlar belə meydan sulayırlar. Bu məqamda Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov Gevorkovun kabinetindən çıxıb mənə yaxınlaşdı. Bir az da gərgin vəziyyətdə rus dilində soruşdu: "Orada nə qışqırırlar?" Dedim: "Deyirlər Ermənistana birləşək". Dedi: "Nəsə oxşamır..." Dedim: "Erməni dilində "miatsum" birləşmək deməkdir də". Ayılan kimi oldu, qayıtdı: "Hə, doğrudan, axı, Siz erməni dilində bilirsiniz..." Bir qədər sükuta daldı və sual verdi: "Yaxşı biz neyləyək ki, qırğına yol verməyək?" Mən, yalan olmasın, 15 dəqiqə buna bütün məsələləri təfsilatı ilə danışdım. Dedim: "Bu meydan bu gün-sabah dağıdılmalıdır. Burada komendant saatı tətbiq edilməlidir. Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar rayonlarında komendant saatı tətbiq edilməlidir. Qan tökülməsini istəmiriksə, bunlar olmalıdır". Üç-dörd dəfə təkrar soruşdu: "Neyləyək ki, qan tökülməsin?" Mən dediyimin üstündə dururdum. Bir anlıq mənə diqqətlə baxıb yenidən birinci katibin kabinetinə qayıtdı...

Bir saat sonra Kamran Bağırov çıxıb meydandakılara elan etdi ki, Vilayət Partiya Komitəsinin bürosu qərar verib, bu gün plenum çağırılsın və birinci katib Gevorkov vəzifəsindən azad edilsin. Meydanda alqış sədaları qalxdı, papaqlar göyə tullanır, şadyanalıq daha necə. Bir neçə dəqiqədən sonra meydan sakitləşdi ki, görək Kamran Bağırov daha nə deyəcək. O sözünə davam edib dedi: "Vilayət Partiya Komitəsinin bürosu tövsiyə edir ki, Poqosyan hansısa gorbagor oğlu Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə namizəd irəli sürülsün". Levon da gəlib yanımda durmuşdu, soruşdum: "Bu Poqosyan kimdir?" Bu dəfə qürurunu gizlətməyib dedi: "Aqrapromun sədridir də". Mən dəhşətə gəldim və elə tez-tələsik orada tanıdığım Azərbaycan rəhbərliyindən qabağıma çıxana-çıxana bu Poqosyanın kim olduğunu bildirdim. Amma çifayda, məni eşidən olmadı...

(ardı var)

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Deportasiyaya uğrayan kimdir: ermənilər, yoxsa azərbaycanlılar?



(əvvəli 1-ci səhifədə)

Müdrik atalarımız "ilan ulduz görməzsə, ölməz!" deyiblər. Separatçı rejimin "qlavarları" da qüvvələr nisbətinin qeyri-bərabər olduğunu başa düşərək, tədbirlərin başlanmasından az sonra danışıqlar aparmağa hazır olduqlarını bildirdilər. Beləliklə, Azərbaycan öz məqsədinə nail oldu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildi.

Antiterror tədbirləri başa çatdıqdan dərhal sonra Qarabağ bölgəsində yaşayan insanların zəruri humanitar ehtiyaclarının ödənilməsinə başlandı. Müxtəlif ərzaq məhsulları yüklənmiş yardım karvanları, habelə yanacaq daşıyan maşınlar bölgəyə göndərildi. Elə həmin günlərdə reinteqrasiya planı açıqlandı. Bütün bunlara baxmayaraq, küyə düşən erməni əhali Qarabağı tərk etdi. Onlar hazırda Ermənistanın 10 vilayətində məskunlaşıblar və düşdükləri vəziyyətdən heç də məmnun deyillər. Bu yaxınlarda Ermənistanın müstəqil mediasında Qarabağdan olan uşaqların məktəblərin bədən tərbiyəsi məşğələsi zallarında gecələməyə davam etdikləri barədə reportaj yayımlanmışdı.

Ermənistan və Qərbin bir sıra ermənipərəst dairələri Qarabağdan erməni əhalinin köçünü hazırda Azərbaycana qarşı təzyiq alətinə çevirməyə çalışırlar. Onlar bütün platformalarda keçirilən tədbirlərdə, görüşlərdə bu məsələni qaldırırlar. Əslində isə onların istəyi erməni azlığın Qarabağa qayıdışı deyil. Bu məsələdən qeyd etdiyimiz kimi təsir vasitəsi kimi yararlanmağa cəhdlər edirlər. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, Azərbaycan erməni əhalinin gedişində maraqlı olmayıb. Elə həmin günlərdə – sentyabrın 28-də Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bu barədə deyilirdi: "Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin, guya, "etnik təmizləmə"yə məruz qaldığı barədə verdiyi bəyanatı qətiyyətlə pisləyir və rədd edirik. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərin hansısa hissəsi Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq".

Erməni əhalinin Qarabağdan gedişi ərəfəsində yayılan saysız-hesabsız videolarda onların öz evlərini tərk etməyə məcbur edildikləri görünmür. Əksinə, ermənilərə qalmaq təklifi edilib. Bunun bir nümunəsini "Azadlıq Radiosu"nun erməni xidmətinin ("Radio Azatutyun") hazırladığı reportajda da görmək mümkündür. "Azərbaycanlılar bizi saxladıb deyirdilər ki, getməyin, qalın!" sərlövhəli reportajda dörd uşaq anası Məryəm Şekyan deyib ki, azərbaycanlılar "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsində bizi maşından düşürüb dilə tuturdular ki, getməyin: "Bizi saxladıb deyirdilər ki, hara tələsirsiniz, getməyin, qalın, inteqrasiya edin. Sizə dəyməyəcəyik. Biz onlara cavab vermirdik, sadəcə, tez bir zamanda həmin məntəqədən keçib getmək istəyirdik. Onlara bir kəlmə belə demədik. Onlar da sənədlərimizə baxmadı. Sadəcə, maşınımızı yoxlayıb buraxdılar".

Radionun erməni xidməti yazır ki, bir çox gedənlər kimi Məryəm də Qarabağa qayıdıb orada yaşamaq istəyir. Lakin təhlükəsizliyinə təminat istəyir.

Azərbaycan isə ölkə vətəndaşlığını qəbul edərək Qarabağda yaşamaq istəyən erməni sakinlərin təhlükəsizliyinə təminat verdiyini ən müxtəlif səviyyələrdə bəyan edib. Sonuncu dəfə bu istiqamətdə fikirlərini Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev açıqlayıb. Oktyabrın 30-da Avropa Şurasının Strasburq şəhərində yerləşən mənzil qərargahında təşkilatın baş katibi xanım Mariya Peyçinoviç Buriçlə görüş zamanı Ə.Nağıyev regionda təhlükəsizlik baxımından yaranmış mövcud vəziyyət barədə məlumat verərək ölkəmizin hər zaman bölgədə davamlı sülhün bərqərar olmasında maraqlı olduğunu vurğulayıb. Xidmət rəisi Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli vətəndaşların əmin-amanlıq şəraitində yaşamasına Azərbaycan hökumətinin hərtərəfli təminat verməsindən, onların hüquq və azadlıqlarının qorunması üçün dövlətimizin gördüyü işlərdən, regionda rifahın, əsaslı və etibarlı sabitliyin təmin olunması naminə Azərbaycanın göstərdiyi səylərdən, Ermənistanla münasibətlərin normallaşdırılmasının və tezliklə sülh müqaviləsinin imzalanmasının vacibliyindən ətraflı söhbət açıb.

***

Bütün bunlar Azərbaycanın, iddia olunduğu kimi, Qarabağdan erməniləri deportasiya etmədiyini, hansısa etnik təmizləməyə məruz qoymadığını sübut edən məlumatlardır. Məsələnin digər tərəfi isə azərbaycanlıların özlərinin XX əsrdə deportasiyadan, etnik təmizləmə və ya soyqırımından əziyyət çəkdikləri ilə bağlıdır. 1918-ci ildə İrəvan şəhəri ermənilərə güzəştə gedilib. İrəvanı özlərinə paytaxt seçən haylar digər tarixi torpaqlarımızda özlərinə dövlət qurublar. 1920-ci il avqustun 10-da Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycan rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxarıb, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazi" elan olunub. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan edilib. Hərçənd ki, daşnak hökuməti bölgələrdə hələ tam süqut etməmişdi.

Bir gün sonra – noyabrın 30-da Azərbaycan K(b)P Mərkəzi Komitəsinin siyasi və təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla Zəngəzurun taleyi həll olunub. Zəngəzur qəzasının 6742 kvadratverstlik ərazisindən 3105 kvadratversti Azərbaycan SSR tərkibində qalıb, 3637 kvadratverstlik hissəsi isə Ermənistana verilib. Zəngəzur mahalı hazırda Ermənistanın tərkibində olan Qafan, Gorus, Qarakilsə (Sisian), Meğri (Mehri) rayonlarını, habelə hazırda Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan, Qubadlı və Laçın rayonlarını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 azərbaycanlı kəndi var idi. Ancaq başqa xalqlara və konfessiyalara dözümsüz münasibəti ilə dünyada məşhur olan haylar tədricən tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırıb çıxarmağa başlayıblar. Nəticədə Qərbi Azərbaycandan azərbaycanlılar, ümumiyyətlə, müsəlman əhali XX əsrdə üç dəfə deportasiyaya məruz qalıblar.

Birinci mərhələ 1905-1907-ci, ikinci mərhələ 1948-1953-cü, üçüncü mərhələ isə 1988-1991-ci illərdə baş verib. Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və ya yandırıb, ahıllar, uşaq və qadınlar da daxil olmaqla 140 min insanı vəhşicəsinə qətlə yetirib, 750 mindən çox azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiyada isə 250 mindən çox azərbaycanlı doğma yurd-yuvasını tərk edib. Bundan sonra ermənilər bölgədən azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi, mədəni, dini abidələri darmadağın ediblər. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda vandallar azərbaycanlılara məxsus 2000-dən artıq qəbirstanlığı dağıdıblar. Bundan əlavə, ərazinin toponimləri dəyişdirilib. Qərbi Azərbaycan ərazisindəki Azərbaycan mənşəli toponimlər XX əsr boyunca dəyişdirilərək erməniləşdirilib.

Göründüyü kimi, ermənilər Qarabağdan könüllü şəkildə çıxıb getdikləri halda azərbaycanlılar deportasiyaya, etnik təmizləməyə məruz qalıblar. Bu gün Ermənistan tərəfi ermənilərin Qarabağa qayıdışı məsələsini qaldırdığı kimi, Azərbaycan da haqlı olaraq azərbaycanlıların Qərbi Azərbaycana qayıdışını tələb edir. Sentyabrın 13-də BMT İnsan Haqları Şurasının 54-cü sessiyasında çıxışı zamanı Xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, 1988-ci ildən 1991-ci ilə qədər yüz minlərlə azərbaycanlı Ermənistandakı dədə-baba yurdlarından zorla qovulub. XİN rəhbəri, bunu beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirib. C.Bayramov Ermənistan hökumətinin qovulmuş azərbaycanlıların həqiqi dialoqa başlamaq və vətənə təhlükəsiz və ləyaqətli qayıdışını təmin etmək üçün çağırışlarını israrla rədd etdiyini diqqətə çatdırıb. Nazir vurğulayıb ki, beləliklə, Ermənistan qaçqınların statusu və digər mühüm beynəlxalq aktları pozur.

Ceyhun Bayramovun da vurğuladığı kimi, Azərbaycan beynəlxalq təşkilatlardan, BMT-nin insan hüquqları üzrə ali komissarından və BMT-nin digər ixtisaslaşmış qurumlarından Ermənistandakı evlərindən qovulmuş azərbaycanlıların hüquqlarına toxunmasını gözləyir. Azərbaycanlılara qarşı beynəlxalq insan haqları qanunlarını kobud şəkildə pozduğuna görə Ermənistanın beynəlxalq arenada məsuliyyətə cəlb edilməsi çox vacibdir. Bu, belə cinayətlərin qurbanları üçün ədalətin əldə edilməsi istiqamətində əhəmiyyətli addım olacaq.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Əziz ƏLƏKBƏRLİ,**
**Milli Məclisin deputatı,**
**Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri**

**– Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi demək olacaq. Hər kəsin öz əzəli vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün qeyd edilən istiqamətdə hərtərəfli işlər görülür. Prezident İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələ ilə bağlı yol xəritəsini müəyyən etdi. Dövlətimizin başçısı bildirdi ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar.**

**Qeyd etdiyim kimi, insanların öz tarixi vətənlərinə, torpaqlarına qayıdışı beynəlxalq hüquqda, konvensiyalarda təsbit olunub. Soydaşlarımızın Qərbi Azərbaycandan çıxarılmasına, etnik təmizləməyə, soyqırıma məruz qalmasına dair çoxlu tarixi sənədlər və faktlar mövcuddur. Ona görə də Azərbaycan monoetnik dövlətə çevrilən Ermənistanın bu məsələdə hər hansı manipulyasiyasına imkan verə bilməz. İkincisi, ölkəmiz qayıdışa, təbii ki, dinc yolla nail olmaq istəyir. Bununla bağlı dövlət başçısımız da öz mövqeyini bəyan edib. Qərbi azərbaycanlıların qayıdış tələbi haqlı, ədalətli olduğu qədər də beynəlxalq hüquqa tam uyğundur. Azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı həm də iki ölkə arasında sülhə, etimada böyük töhfə verə bilər.**

Köşə

# Turist olmaq istəmirəm

## Sultan Əhmləddə su satan uşaqdan örnək götürməli çox şey var

**Üzləşdiyim səhnə heç yadımdan çıxmaz. Türkiyədə, dəqiq desəm, İstanbulda səfərdəydim. Türk lirəsinin ucuzlaşmağa doğru getdiyi dönəm yenicə başlamışdı. Hiss olunurdu ki, insanlarda bununla bağlı narazılıq var. Hər kəsdən gileygüzar eşidirdik. Havanın istiliyi də bir yandan. Bu mənzərəni Sultan Əhməd meydanında var-gəl edən balaca uşaqlar tamamlayırdı. Onlar yarım litrlik qablarda su satırdılar. Birinə yaxınlaşıb suyun qiymətini soruşmağımla "iki lirə" cavabını almağım bir oldu. Tam pulu ona uzadırdım ki, uşaq başını qaldırıb mənalı nəzərlərlə baxdı. Türkcə danışdığımın fərqinə varmışdı. Biləndə ki, Azərbaycandanam "abi, su sana 50 kuruş" – dedi.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Əlbəttə, bu girişlə məqsədim heç də su satan uşağın özünəməxsus nəzakətini diqqətə çatdırmaq deyildi. Hərçənd onun hərəkəti çox xoşuma gəlmişdi. Məşhur Azərbaycan filmində deyildiyi kimi, söhbət iki kilo sosiskada deyil, diqqətdədir. Ən əsası isə uşaq Azərbaycan türkü olaraq məni başqalarından fərqləndirdi. Yəni, turist kimi yanaşmadı.

İstər-istəməz Türkiyəyə ilk səfər etdiyim çağları xatırladım. O zaman da Azərbaycana münasibətdə yaxşı mənada fərqlilik var idi. Ancaq indiki qədər deyildi. Fikrimcə, ötən illərdə Türkiyə və Azərbaycan cəmiyyətləri çox yaxınlaşıblar. Nəinki Türkiyə və Azərbaycan, ümumən türk dünyasının bu mənada xeyli məsafə qət etdiyi düşüncəsindəyəm.

Bəli, yaşadığımız dövrdə Türk dünyasının konsolidasiyası artıq qlobal faktora çevrilib. Prosesi səciyyələndirən ən müxtəlif səviyyəli işlər görülüb. Bu fəaliyyət məmnunluq, qürur və fəxarət hissi doğurmaqdadır. Mətləbə keçməzdən əvvəl isə bir müsbət məqamı da diqqətə çatdırım. Məlum olduğu kimi, artıq bir neçə ildir ki, Azərbaycan vətəndaşları Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə gedib-gələ bilmək imkanına malikdirlər. Əlbəttə, bu da "Bir millət, iki dövlət" deyiminin əməldəki təzahür formasıdır. Ancaq bizim bu deyimdən daha böyük gözləntilərimiz və həm də umacaqlarımız var. Güman edirəm ki, bu yazı vasitəsilə qaldırdığım məsələ də arzu və istək kimi qiymətləndiriləcək, tezliklə həllini tapacaq.

Əlqərəz, Türkiyədən gələn övladım Efes və Pamukkale kimi tarixi abidələrə baş çəkib. Dediyinə görə, qardaş ölkənin vətəndaşları bu yerlərə qiyməti 60 lirəyə olan muzey kartı ilə daxil olurlar. Vətəndaşlığı olmayan şəxslər isə ora ilə tanışlıq üçün 700 lirə ödəməlidirlər. Açığı bunu eşidəndə qəribə hisslər keçirdim. Amma tez də özümə toxtaxlıq verərək düşündüm ki, dünyanın hər yerində eyni vəziyyətdir. Əcnəbilər üçün tarixi abidələrə, muzeylərə girişdə fərqli qiymət tətbiq edilməkdədir. Türkiyə də necə deyərlər, bu trenddən geri qalmalı deyil. O an Azərbaycandakı durumu da düşündüm. Böyük ehtimalla bizdə də xarici ölkə vətəndaşlarından, məsələn, Qız qalasına daxil olmaq üçün fərqli rüsum alınır.

Bir anlıq Türkiyə vətəndaşının gəlib Tarix muzeyinə və ya Qobustan arxeoloji muzeyinə baş çəkmək istəməsini düşündüm. Yəqin, əcnəbi vətəndaş olduğu üçün onunla tutaq ki, Danimarka, Fransa, Hollandiya, Almaniya vətəndaşı arasında fərq qoyulmayacaq. Ağlımdan bunu keçirdim. Böyük çoşğu ilə söylənilən "Bir millət, iki dövlət" deyimini də həmçinin. Üstəlik, Türk Dövlətləri Təşkilatının və digər belə genişmiqyaslı birliklərin toplantılarında səslənən və ortaq türk birliyini, mədəniyyətini təbliğ edən ideya və fikirləri yada saldım. Bu istiqamətdə görülmüş işlərin böyüklüyü fonunda övladımın söylədikləri əhvalımdakı qəribəlik notlarını daha da dərinləşdirdi.

Görəsən, vəziyyətə necəsə təsir etmək olarmı, – deyə düşündüm. Amma çox da düşünmədən öz-özümə qərara gəldim ki, mümkündür. Bir halda ki, Azərbaycan vətəndaşları Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə səfər edə bilirlər, muzeydə ekskursiya bunun yanında nədir axı? Yaxşı olar ki, Azərbaycanın və Türkiyənin müvafiq qurumları mövcud istiqamətdə iş aparsınlar. Həm qardaş ölkənin, həm də bizim vətəndaşlarımız ölkələrimizdəki görməli yerlərə, muzeylərə, tarixi abidələrə turist kimi yox, vətəndaş kimi baş çəkmək imkanı əldə etsinlər.

Bir qədər geniş götürsək, məsələni bütövlükdə Türk dünyası müstəvisində qaldırmağa da ehtiyac var. Yəni, yeddi türk dövlətinin vətəndaşlığını daşıyan şəxslər türk dövlətinə səfər etdiklərini əməli iş müstəvisində duysunlar. Fikrimcə, bu cəhət onları bir-birinə daha çox bağlayar. Əlbəttə, heç də hesab etmirəm ki, tutalım, Türkiyə dövlətinin öz vətəndaşlarına şamil etdiyi bütün imtiyazların Azərbaycan, yaxud Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan vətəndaşlarına da şamil edilməsi mümkündür.

Ancaq tarixin və mədəniyyətin, birgəyaşamın, adət-ənənələrin yaşadılmasının, çatdırılmasının vacibliyi baxımından bu dəyərləri təbliğ edən məkanlara fərqli yanaşmaq çox yerinə düşər. Eləcə də bütün türk dövlətlərinin də bir-birinə münasibətdə analoji addımı atmasına ehtiyac var. Yeri gəlmişkən, övladım artıq belə bir addımın Türkiyə ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında atıldığını öyrənib. Bunu ona Efesdəki bələdçi deyib. Deməli, artıq təcrübə var. Nə gözəl!

Sonda yenə də Sultan Əhməd meydanındakı uşaqdan danışım. Birilirsinizmi, o, başqalarına iki lirəyə satdığı suyu mənə 50 kuruşa verəndə başqa nə dedi? Dedi ki, abi, sən bu ətrafdakı ingilis, fransız, alman deyilsən. Sən mənimsən.

# Kanada Cənubi Qafqazda da özünə əlavə problemlər axtarır



(əvvəli 1-ci səhifədə)

Lakin məsələ bununla məhdudlaşmadı. İndi yeni faktlar özünü göstərir. Kanadanın xarici işlər naziri Melani Coli oktyabrın 25-27-də Ermənistana səfəri zamanı baş-ayaq danışmış və reallığa uyğun olmayan bəyanatlar səsləndirmişdir. O, konkret olaraq Azərbaycanı ittiham etmişdir. M.Coli bildirmişdir ki, rəsmi Bakı Qarabağdakı ermənilərin hüquqlarını pozur və həmin regionu tərk etmiş ermənilərin geri qaytarlıması vacibdir. Guya, Azərbaycan "Dağlıq Qarabağa qarşı aqressiya nümayiş etdirmişdir". Bundan başqa, rəsmi Bakı Ermənistanın ərazi bütövlüyünə hörmət etməsə, ona qarşı sanksiyalar "masanın üstündədir".

M.Coli Kanadanın Avropanın "mülki missiyası"na qoşulduğunu xüsusi vurğulamışdır. Sən demə, Ermənistan Cənubi Qafqazda sabitliyin təmin edilməsi üçün əlindən gələni edirmiş və Kanada özünə mənəvi borc bilir ki, İrəvana bu prosesdə dəstək versin. Bunun belə olmadığını hər kəs bilir, lakin sual yaranır ki, nə üçün rəsmi Ottava bu cür ağ yalan danışır?

Bir qədər Kanadanın və Ermənistanın dövlət kimi yaradılması prosesinə baxsaq, görərik ki, onların anatomiyası oxşardır. Kanada aborigen hindularına qarşı soyqırımı etməklə başqalarının dəstəyi ilə dövlət olmuşdur. Ermənistan isə aborigen türklərə qarşı soyqırımları törətməklə başqaları tərəfindən "dövlət oldu". Kanada özünün kimliyini yaxşı bildiyinə görə, Ermənistanın 30 il azərbaycanlılara qarşı nə faşist davranışlarını, nə də mədəni abidələri məhv etməklə bəşəriyyətə zərər verdiyini dilinə gətirmədi. O mərhələdə Kanada rəsmilərinin dili tutulmuşdu. Ancaq Azərbaycan öz ərazi bütövlüyünü təmin edəndə dilləri açıldı. Başladılar demokratiyadan, insan haqlarından əzbərlədikləri nağılları erməni dığalarına danışmağa.

Lakin bir məqamı da Kanada rəhbərliyinə xatırlatmaq yerinə düşərdi. COVID-19 pandemiyası dövründə kasıb ölkələrin payına düşən peyvəndləri qanunsuz mənimsəyən "inkişaf etmiş ölkələr" arasında Kanada ilk pillələrdə idi. Bu barədə Azərbaycan Prezidentinin "ədalətli olmaq lazımdır" çağırışına rəsmi Ottavadan bir reaksiya olmadı. Çünki onların duyğularının ədalət aspekti hələ hindulara qarşı soyqırımı törədəndə itirilmişdi. İndi də ermənilər kimi ədalətsiz, haqsız bir icmanın yanındadırsa, o mərəzdən qurtulmaları mümkün görünmür.

Bütün bunların fonunda nə Colinin İrəvanda Kanada səfirliyinin açılışında təntənəli iştirakı, nə binoklla diplomat etiketinə uyğun olmayan formada Azərbaycan ərazilərini izləməsi, nə Cermuxa gedib ermənilər qarşısında kanadalı primitivliyi ilə nitqində süni improvizələr etməsi, nə sanksiyalar barədə sərsəm fikirlər söyləməsi elə də ciddi görünmür. Bu cür artistlik Ermənistanın baş naziri və xarici işlər naziri kimi siyasətçilərin aşağı səviyyəli siyasi təfəkkürünə sığal çəkə bilər ki, onlar da növbəti uydurmalar və yalanlardan "siyasi anlamda feyzyab" olarlar.

Lakin müasir mərhələdə Kanada nümunəsində dövlətin idarəedilməsi fəlsəfəsinin mahiyyəti baxımından maraqlı məqamlar üzərində düşünmək olar. Fransalı tarixçi Maksim Quen Kanadanın xarici işlər naziri Melani Colinin Ermənistana səfəri çərçivəsində Azərbaycana qarşı səsləndirdiyi əsassız ittihamlara münasibət bildirərkən demişdir ki, Kanada problemli ölkədir və onun probleminin "böyük bir hissəsi dövlət idarəçiliyindəki çatışmazlıqlarla bağlıdır".

Doğrudan da, faktlar tarixçinin haqlı olduğunu göstərir. Belə ki, Kanada "təsadüfən seçilən liderlər" kimi adlandırılan cəfəng bir lideroloji təlimi öz idarəetməsində tətbiq etməyə cəhd göstərmişdir. Bu, lider seçmək üsuluna görə, idarəetmə üçün kadrlar 8-9 nəfər arasından təsadüfi seçmə, daha doğrusu, püşkatma yolu ilə müəyyənləşmə üsuludur. Yəni burada püşk kimin üzünə gülsə, lider də o olur.

Belə görünür ki, M.Coli həmin yanaşmanın misallarından biridir. Hər halda Cənubi Qafqaz kimi mürəkkəb bir geosiyasi məkanda haqsıza "haqlı" demək, təcavüzkarı "sülhpərvər" adlandırmaq, bir dövlətin öz ərazi bütövlüyünü təmin etməsini kimlərinsə hüquqlarının pozulması kimi tədqim etməyin başqa izahını vermək mümkün olmur. Lakin bunlar Kanadanın öz problemləridir!

***Füzuli QURBANOV,***
***"XQ"nin analitiki***

# Dünya Bankı ölkəmizdə gerçəkləşdirilən beynəlxalq layihələri dəstəkləyir

## *“Yaşıl enerji”nin 2030-cu ilədək 30 faizə çatdırılmasına xüsusi önəm verilir*




**Prezident İlham Əliyev Dünya Bankının (DB) respublikamızda həyata keçirdiyi texniki yardım və maliyyə dəstəyi layihələrini daim yüksək qiymətləndirir. Uzun illər ərzində ölkəmizin DB ilə əlaqələrində özəl sektorun diaqnostikası, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı və digər sahələrdə əlaqələrin getdikcə möhkəmlənməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqinə xüsusi önəm verilməsi daha qabarıq nəzərə çarpır. DB-nin Azərbaycanla son dövrdəki çoxşaxəli əməkdaşlığında isə regional və beynəlxalq əhəmiyyətli enerji layihələrinə davamlı dəstəyi xüsusi diqqət çəkir.**

Maliyyə institutu Azərbaycanla apardığı dənizdə külək enerjisinin istehsalına dair Yol Xəritəsi, ölkəmizdə elektrik enerjisi bazarının inkişafı, enerji səmərəliliyi, uzun müddətli enerji və iqlimlə bağlı planları, həmçinin yeni əməkdaşlıq imkanlarına dair müzakirələrdə fəal iştirak edir. Bütün bu istiqamətlərin dekarbonizasiya prosesini əhatə etdiyi və ölkənin 2050-ci ilədək karbon emissiyalarının 40 faizədək azaldılmasının hədəflədiyi vurğulanır. Eyni zamanda, DB-nin həyata keçirilən və planlaşdırılan bərpaolunan enerji layihələrinin respublikamızın qlobal enerji keçidi prosesinə milli səviyyədə töhfəsini gerçəkləşdirir.

Energetika naziri Pərviz Şahbazov bununla bağlı deyib: “Bu xüsusda, dövlət başçısı tərəfindən sosial-iqtisadi inkişafın başlıca meyarlarından biri kimi müəyyənləşdirilən “yaşıl artım“ ölkəsinə çevrilməklə bağlı tədbirlər mühüm rol oynayır. Cənub Qaz Dəhlizi layihəsinin nümunəsində olduğu kimi, DB ilə birgə əməkdaşlığımız əsasında dənizdə külək enerjisi potensialından istifadə etməklə “yaşıl enerji”ni də müxtəlif formalarda və müxtəlif marşrutlarla Avropaya ixrac edə bilərik”.

Energetika naziri Pərviz Şahbazov ilə DB-nin enerji və infrastruktur üzrə regional direktoru Çarlz Cozef Kormier arasında oktyabrın 30-da keçirilən görüşdə də bu barədə ətraflı danışılıb. Energetika Nazirliyindən redaksiyamıza daxil olan məlumatda həmin görüşdə Azərbaycanın təbii qaz və bərpaolunan enerji sahələrinin inkişafına dair siyasətinin hazırkı vəziyyəti çərçivəsində DB ilə əməkdaşlığın inkişafının müzakirə edildiyi bildirilib. Bu beynəlxalq maliyyə qurumunun apardığı təhlillər əsasında qaz tədarükünə tələbat və mövcud sahəyə investisiya cəlbinin perspektivi haqqında ətraflı bəhs edilib. Görüşdə, eyni zamanda, respublikamızın enerji keçidi istiqamətində fəaliyyəti və bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilədək 30 faizə çatdırılması hədəfinin reallaşdırılması ilə bağlı da fikir mübadiləsi aparılıb. Söhbət əsnasında diversifikasiya layihəsi sayəsində Cənub Qaz Dəhlizinin genişləndirilməsinin əhəmiyyəti, bu xüsusda maliyyə institutları ilə əməkdaşlığın gücləndirilməsi, bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində DB ilə birgə reallaşdırılan layihələrin əhəmiyyəti də vurğulanıb.

Yeri gəlmişkən, bu gün respublikamız bərpaolunan enerji layihələrinin reallaşdırılmasını diqqət mərkəzində saxlayır və bununla bağlı dünyanın nüfuzlu maliyyə qurumları ilə əməkdaşlığını genişləndirir. Məsələn, Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə dənizdə külək enerjisindən istifadə üzrə Yol Xəritəsi çərçivəsində, eləcə də “Azərbaycan üçün Çevik Texniki Yardım Proqramının (AZTAF) enerji səmərəliliyi komponenti üzrə məsləhətçi xidmətlərinin göstərilməsi”, “Azərbaycanın enerji sistemində bərpa olunan enerji güclərinin genişləndirməsinə dəstək” layihələri üzrə əməkdaşlıq edir. Eyni zamanda, 1862 MVt gücündə bərpaolunan enerji stansiyalarının şəbəkəyə inteqrasiyası məqsədilə elektrik enerjisi sisteminin gücləndirilməsi ilə bağlı Dövlət Proqramı hazırlanması üzrə iş gedir.

Energetika naziri Pərviz Şahbazov DB-nin enerji və infrastruktur üzrə regional direktoru ilə fikir mübadiləsi zamanı “Gürcüstan–Rumıniya Qara dəniz sualtı enerji və rəqəmsal qoşulma xətti” layihəsinin texniki-iqtisadi əsaslandırılması prosesində iştirak edən DB ilə “yaşıl enerji”nin “Xəzər-Avropa İttifaqı (Aİ) Yaşıl Enerji Dəhlizi” və Naxçıvan üzərindən Türkiyə-Avropa xətti ilə ötürülməsi, həmçinin digər potensial istiqamətlər üzrə də əməkdaşlıq imkanlarını yüksək dəyərləndirib.

Azərbaycanın bərpaolunan enerji layihələrinin icrası DB Qrupunun üzvü Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən də daim dəstəklənib. Energetika Nazirliyi ilə bu korporasiya arasında respublikamızda dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair 2021-ci il aprelin 14-də Anlaşma Memorandumu imzalanıb. Sənəddə ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, həmçinin energetika sektorunun maliyyə davamlılığı və səmərəliliyinin artırılması üçün bu sahədə özəl sektorun iştirakının dəstəklənməsi kimi ümumi məqsədlərin reallaşdırılması nəzərdə tutulub.

Memoranduma əsasən, IFC ilə əməkdaşlıq Azərbaycanda dənizdə külək enerjisi potensialının qiymətləndirilməsini və yol xəritəsinin işlənib hazırlanmasını, növbəti mərhələdə isə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər önə çəkilir.

Anlaşma Memorandumu ilə nəzərdə tutulan bütün bu işlər IFC-nin “Dənizdə Külək Enerjisinin İnkişafı Proqramı” çərçivəsində yerinə yetirilir. Bu proqram DB Qrupunun təşəbbüsü olan “Enerji Sektorunun İdarə edilməsində Yardım Proqramı”–ESMAP çərçivəsində maliyyələşdirilir.

Bütün bu təşəbbüslərin gerçəkləşdirilməsinin nəticəsidir ki, son illər ərzində təkcə neft-qaz sektorunda deyil, eyni zamanda, bərpaolunan enerji sahəsində də nəzərəçarpacaq uğurlar əldə edilir. Bunun bir səbəbi vurğulandığı kimi, Azərbaycanın bu istiqamətdə beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlığı ilə bağlıdırsa, digər səbəbi ölkəmizin zəngin bərpaolunan enerji potensialına malik olması ilə əlaqədardır. Xatırladaq ki, respublikamızın Xəzər dənizində təsdiqlənmiş 157 QV, quruda isə 135 QV külək enerjisi potensialı, ümumilikdə, 290 QV-dan çox bərpaolunan enerji ehtiyatı var. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da alternativ və bərpaolunan enerji mənbələri ilə diqqət çəkir. Təsadüfi deyil ki, dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərlə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda həmin iqtisadi ərazilər “yaşıl enerji” zonasına çevriləcək əsas istiqamətlərdən biri hesab olunur.

Prezident İlham Əliyev çıxışlarının birində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında alternativ və bərpaolunan enerji mənbələri ilə bağlı deyib: “İstər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən Qarabağda böyük potensial var. Artıq dediyim kimi, biz 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaolunan enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalamışıq. Onun təxminən 500 meqavatı üçün artıq tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq”.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**



İşğaldan azad olunmuş ərazilərdə 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialının mövcud olması əsasında aparılan quruculuq işlərində məhz “yaşıl enerji” layihələrinə üstünlük verilir. Eyni zamanda, Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir.

Bu istiqamətdə “yaşıl elektrik” enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçın, Kəlbəcər və Suqovuşanda 20,2 MVt gücündə 4 su elektrik stansiyasının bərpası başa çatdırılıb və artıq istismara verilib. Belə ki, Həkəri çayı üzərində yerləşən 8 MVt gücündə “Güləbird” SES, Tərtər rayonu ərazisində yerləşən 4,8 MVt gücündə “Suqovuşan-1” və 3 MVt “Suqovuşan-2” kiçik su elektrik stansiyaları, o cümlədən 4,4 MVt gücündə “Kəlbəcər-1” kiçik su elektrik stansiyası işğaldan azad olunmuş sahələrin və bu ərazilərdə həyata keçirilən infrastruktur layihələrinin elektrik enerjisi ilə təmin olunmasını gerçəkləşdirib.

Regiondakı digər mühüm enerji obyektləri Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində inşası hazırda davam etdirilən və qoyuluş gücü 200 MVt olan “Xudafərin” və 80 MVt olan “Qız Qalası” su elektrik stansiyalarıdır. Hər iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir və inşasının 2-2,5 il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

Bütün qeyd olunan layihələr, imzalanmış müqavilələr, planlaşdırılan layihələr Azərbaycanın enerji strategiyasının nə dərəcədə uğurlu olduğunu, ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyinin nə dərəcədə möhkəmləndiyini göstərir. Bunun nəticəsidir ki, daha çox dövlət Azərbaycanla əlaqələrini inkişaf etdirməyə, onun enerji resurslarına çıxış əldə etməyə çalışır.

“Yaşıl enerji” zonasının yaradılması ilə bağlı 2022-2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti təşviq edir. Bu çərçivədə azad olunmuş ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox binada günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampa ilə təchiz olunub və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Bütün bunlar davamlı proseslərdir və bütün səylər bu innovativ təcrübənin geniş tətbiqinə, azad edilən əraziləri enerji səmərəliliyində nümunəvi bölgəyə çevirməyə səfərbər olunub.

## “Azərkosmos” da “Türksat”la “qardaşlaşıb”

**Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) Türkiyənin peyk rabitə operatoru “Türksat” ilə yeni müqavilə imzalayıb.**




“Azərkosmos”un bununla bağlı yaydığı məlumatda bildirilir ki, müqaviləyə əsasən, qardaş ölkənin “Türksat” peyk operatoru respublikamızın “Azerspace-2” telekommunikasiya peykinin tutumundan Afrika bölgəsində “data” layihələrində istifadə edəcək.

## Qeyri-neft ixracı 10,6 faiz artıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın oktyabr sayına əsasən, cari ilin yanvar–sentyabr ayları ərzində Azərbaycanın ümumi ixracı 26,5 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,6 faiz artaraq 2,4 milyard dollar təşkil edib.**




Hesabat dövrü ərzində yeyinti məhsulları üzrə ixrac 616 milyon dollara bərabər olub. Spirtli və spirtsiz içkilərin ixracı 3,3 dəfə, elektrik enerjisi 2,7 dəfə, qara metallardan məmulatların ixracı 34,3 faiz, meyvə-tərəvəz ixracı isə 7,1 faiz artıb.

Bu ilin yanvar–sentyabr ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 8,4 faiz çoxalaraq 641milyon dollar olub. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,4 faiz artaraq 146 milyon dollar təşkil edib.

## Ölkəmiz Özbəkistanla birgə avtomobil istehsal edəcək

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında Azərbaycan və Özbəkistanın birgə minik avtomobilləri istehsalı kompleksi yaratdığını bildirib. Nazir, eyni zamanda, Azərbaycan–Özbəkistan birgə müəssisəsi “Azərmaş CP” MMC-yə Hacıqabul Sənaye Məhəlləsinin rezidenti statusu verildiyini və rezidentlərin sayının14-ə çatdığını vurğulayıb.**



Mikayıl Cabbarov diqqətə çatdırıb ki, şirkət tərəfindən sənaye məhəlləsinin ərazisində investisiya həcmi 104 milyon manat olan minik avtomobillərin istehsalı kompleksi yaradılacaq və 1200 nəfər işlə təmin ediləcək.

***XQ***

# İlin əvvəlindən vergi daxilolmaları 12,8 milyard manata çatıb

## *Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz çoxdur*



**Azərbaycanda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət–müəyyənləşdirilən hədəfə nail olmaq üçün dövlət tərəfindən dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsində qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlərə nail olunur.**

Son illərdə bütün bu istiqamətlərdə gerçəkləşdirilən təşəbbüslər ölkəmizin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırıb, sahibkarlıq sahəsində sürətli inkişafın davamlılığını təmin edib və rəqabət qabiliyyətini möhkəmləndirib, eyni zamanda, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırıb.

Azərbaycanda hazırda “kölgə iqtisadiyyatı”nın azaldılması məqsədilə vergi qanunvericiliyində dəyişikliklər edilməklə yanaşı, vergi inzibatçılığında da mütəmadi olaraq təkmilləşdirmələr aparılır. Bu, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsini, vergiödəyicilərinə xidmətlər çeşidinin artırılmasını və özəl bölmədə biznesin fəaliyyətinə səmərəli şəraitin yaradılması şərtləndirir.

Vergi orqanları tərəfindən ictimai əməkdaşlıq nöqteyi-nəzərindən bir sıra əhəmiyyətli tədbirlər platforması da yaradılıb. Sahibkarlar, onların ictimai birlikləri, assosiasiyalar və ekspert cəmiyyəti ilə mütəmadi görüşlər çərçivəsində qarşılıqlı əlaqələr genişləndirilib. Bu görüşlərdə səsləndirilən bir çox rasional təkliflərin reallaşdırılması ilə biznes mühiti daha da təkmilləşdirilib. Bununla da sahibkarlıq fəaliyyətini təşviq edən alətlər artıb, Vergi Məcəlləsində müxtəlif dəyişikliklər edilib və fiskal maraqlar iqtisadi inkişafla uzlaşdırılıb.

Dövlət Vergi Xidmətinin məlumatına görə, həyata keçirilən tədbirlər nəticəsində bu ilin 9 ayında 12,8 milyard manat vergi daxilolması təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz çoxdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə hesabat dövründə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə yığımların həcmində də yüksək göstəricilər diqqət çəkir:

–məcburi dövlət sosial sığorta haqları üzrə 3,8 milyard manat vəsait Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə köçürülüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz çoxdur;

–işsizlikdən sığorta haqları üzrə 132,8 milyon manat vəsait toplanıb. Bu, keçən illə müqayisədə 15 faiz artıq vəsait deməkdir;

–icbari tibbi sığorta haqları üzrə isə 683 milyon manat vəsait aidiyyəti fonda ödənilib ki, bu da ötən illə müqayisədə 15,3 faiz əlavə vəsaitdir.

Ümumilikdə, Dövlət Vergi Xidməti tərəfindən qeyd edilən istiqamətlər üzrə yığımlar 17,4 milyard manat olub ki, bu da ölkə üzrə ümumi fiskal yığımların 80 faizini təşkil edib.

Bütün bunlarla yanaşı, qeyri-neft sektoru üzrə vergi daxilolmaları 7 milyard 425 milyon manat təşkil edib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,3 faiz çoxdur. Başqa sözlə, bu, proqnozdan artıq 415,5 milyon manat əlavə vəsaitin yığılması deməkdir.

Hesabat dövründə qeyri-neft sektorunda ÜDM-in nominal artım tempi 11,6 faiz olduğu halda, qeyri-neft sektoru üzrə vergi daxilolmalarının nominal artım tempi 19,3 faizə yüksəlib. Nominal artım tempi üzrə verginin ÜDM-i üstələməsi 7,7 faiz artıb, bu da iqtisadiyyatda şəffaflaşmanın və “boz zona”da olan gəlirlərin vergiləndirilməsinin bariz göstəricisidir.

Qeyri-neft sektoru üzrə dövriyyələrin həcmi 9,2 faiz, qeyri-neft sektorunda ƏDV üzrə dövriyyənin həcmi 9 faiz artıb. Elektron qaimə-faktura üzrə dövriyyələrin həcmi isə 22 faiz çoxalıb.

Ölkədə fəal vergiödəyicilərinin sayı 5,7 faiz artaraq 750 min nəfəri keçib. Fəal ƏDV ödəyicilərinin sayı 11 faiz, fəal obyektlərin sayı isə 6,8 faiz artıb.

***XQ***

# Bir Güney demokratının tarixçəsi

**Firudin Kazım oğlu Kazimi 1932-ci ildə Bakı şəhərində anadan olub. 1937-ci ildə İran təbəələri Azərbaycandan çıxarılanda həyatının ilk sürgününü yaşayan Firudinin cəmi 5 yaşı var idi. Bakı dəniz limanında sovet NKVD-si məmurlarının sərt nəzarəti ilə dustaq kimi gəmilərə doldurulub İranın Ənzəli limanına deportasiya olunma səhnələri onun yaddaşında çox dumanlı qalıb. Söhbətlərində o günləri bir yuxu kimi xatırladığını deyir.**

Mühacir kimi butay Azərbaycandan sürgün olan ailə otay Azərbaycanda da mühacir kimi qəbul edildi. Bu hadisələrin iştirakçıları xatırlayırlar ki, mühacirləri gətirən gəmi limana yan alanda Ənzəlidə insanlar bir-birinə dəyibmiş. Tacirlər dükanlarını bağlamış, imkanlılar şəhərdən çıxmış, sadə əhali də qorxusundan bayıra çıxmamışdı. Hamı dəhşətli hadisələrin baş verəcəyini gözləyirmiş.

Təbrizə gəlmiş ailə az müddətdən sonra başçısını itirdi. Köməksiz ailə şəhərin ağır illərində ayaqda qalmaq üçün çox əziyyətlər çəkməli oldu. Burada keçən uşaqlıq illəri, böyük çətinliklər Firudini də vaxtından əvvəl böyüməyə məcbur etdi. Ancaq, o zaman Azərbaycanda hamının vəziyyəti ağır idi. İkinci dünya müharibəsi başlamış, Sovet qoşunları İrana daxil olmuş, şah Rza pəhləvi qaçmış, iqtisadiyyat çökmüş, sabaha ümidlər də itmişdi. Hər kəs başını salamat saxlamağın dərdində idi.



*Təbriz 1980-ci il: solda Firudin Kazimi, sağda "Azərbaycan" qəzetinin redaktoru Ə.Əfğəmi.*

Seyid Cəfər Pişəvəri Azərbaycanda Milli Hökuməti elan edəndə Firudinin artıq 13–14 yaşı var idi. Hər gün səhər tezdən Azərbaycan ruznaməsinin mətbəəsinə gedərək yeni çapdan çıxmış qəzetləri alır və şəhər meydanında satırdı. O günləri qürurla xatırlayan Firudin Kazimi kiçik yaşda olmasına baxmayaraq ona edilən etibar və etimadı doğrultmağa çalışırdı. Bir gün qəzetin redaktoru məsləhət gördü ki, "min Təbriz–Culfa qatarına və qəzetləri paylaya-paylaya get sovet sərhədinə və həmin qatarla da geri qayıt". Firudin belə də etdi. Hər gün Təbriz–Culfa qatarının qəzetsatan müsafiri oldu.

Milli Hökumətin bir illik mövcudluğu ilə bağlı yaddan çıxmayan xatirələr, Təbrizin "Saat qabağı"nda keçirilən mitinqlər, Azərbaycanın görkəmli şəxsiyyətlənin çıxışları, Millət bağında flarmoniyanın keçirdiyi konsertlər, Milli Hökumətin Fədailər qoşununun fəxri keçidləri onun sonrakı həyatında böyük bir iz buraxdı.

1946-cı ilin dekabr ayında Milli Hökumətin xəyanətlə devrilməsi nəticəsində Pəhləvi rejimi amansız repressiyalara başladı. ADF ilə əməkdaşlığa və Milli Hökumətə xidmətlərə görə İran dövləti gənc qadını və onun 14 yaşlı oglu Firudini də həbs etdi. Onları da minlərlə digər Azərbaycanlı kimi edam edə bilərdilər. Firudin həddi-buluğa çatmadığına görə, anası isə bakılı olması səbəbindən edam yox, sürgün olundular.

Ailə ikinci dəfə sürgünə göndərildi. Gənc qadın yeniyetmə oğlu ilə ikinci dəfə İranın cənubunda yerləşən Kaşan şəhərinə sürgün edildi. Doğma insanlardan, yaxınlardan uzaqda, fars mədəni mühiti ilə ilk tanışlıq da məhz burada baş verdi. Bu sürgün Müsəddiqin islahatlara başlamasına qədər davam etdi. Bu kiçik ailənin 1951–53-cü illərdə həyatı ölkənin siyasi ab-havası kimi qaynar keçdi.

Artıq 20 yaşını keçmiş gənc Firudin Tehrana qayıtmış, orada çoxsaylı azərbaycan ziyalıları, tacirlər və iş adamları ilə münasibət qurmuş və cəmiyyətdə özünə yer etmişdi. Demokratik düşüncənin təhlükəli olması, hər an tutulmaq və edam edilmək təhlükəsi qalırdı. İran pəhləvi rejimində ən qorxulu məsələ milli hərəkat idi. Milli düşüncəli insanlar daim təqib altında idi. 1946-cı ilin represiyaları hələ də unudulmamışdı.

1953-cü illərin sonlarında ölkənin siyasi vəziyyəti ağırlaşır və Müsəddiqin devrilməsi ilə represiyalar yenidən başlanır. Gənc Firudin bakılı anasının təkidi ilə gizli yolla Sovet Azərbaycanına gəlməyi planlaşdırır. İranın bütün qonşu ölkələri ilə sərhədləri açıq, yalnız "Şurəvi" tərəf nəzarətdə idi. Butaya keçmək təhlükəli idi. Bundan əlavə, bu ailəyə sürgündən sonra Güney Azərbaycan şəhərlərində yaşamaq icazəsi verilməmişdi. Onların sovet sərhədinə gəlməsi üçün xüsusi plan hazırlamaq lazım idi.

Ailə sovet sərhədini keçərkən bir neçə gənclə tanış olur. Mühacirətdən sonrakı həyatında bu insanlarla əlaqəsini davam etdirən Firudin Kazimi Azərbaycan Demokratik Firqəsinin mübariz üzvləri doktor Makulu Pənahi və Əkrəm Bijə ilə dastluqları sona qədər davam edir. Firudinin anası bakılı qızı olsa da, ailəni şəhərə buraxmırlar və Şamxora (Şəmkir) göndərirlər.

ADF sıralarında Seyid Cəfər Pişəvəri, Qulam Yəhya, Mirqasım Çeşmazər, Əmirəli Lahuridi, Ənuşirəvan İbrahimi kimi siyasi rəhbərlərlə çiyin-çiyinə fəaliyyət göstərdiyini daim qürurla xatırlayır, Məhəmməd Birya, Balaş Azəroğlu, Söhrab Tahir, Əli Tudə və ADF-nin yüzlərcə qiymətli kadrları haqqında iftixarla söhbətlər edirdi.

İkinci Dünya müharibəsinin yaralarını sarıyan ölkədə tədricən həyat qaydasına düşürdü və Firudin seçim qarşısında qalır. Ya oxuyub təhsil almalı, ya da işləyib ailəsini saxlamalı idi. Siyasi fəaliyyətini bütün hallarda davam etdirəcəkdi.

1958-ci ildə Bakı şəhərində, təsədüfən mübariz firqəçilərdən olan Əkrəm Bijə ilə rastlaşır. Əkrəm Bijə Firudinin firqə nəşriyyatında fəaliyyətindən xəbərdar olduğu üçün ADF nəşriyyatında ona ehtiyac olduğunu bildirir və onlar birlikdə, o zaman "Azərbaycan" qəzetinin baş redaktoru olan Pənahi Makulinin yanına gəlirlər. Həmin görüşün sabahından başlayaraq Firudin mətbəədə işə başlayır. Bu zaman artıq Firidun Muğanın fədai başçılarından olan Məşədi İbrahim Cəlilvəndin qızı ilə ailə qurur və gələcəyin mübariz firqəçilərindən biri – qəzetimizin oxucularına öz yazıları ilə tanış olan fəlsəfə doktoru Pərviz Kazımi bu ailədə dünyaya gəlir. Firudinin ADF-nin siyasi mətbuatında fəaliyyəti 1979-cu ilə qədər davam edir.

1979-cu ilin fevralında, İrandakı inqilabi hərəkatın qələbəsi ilə artıq iyun ayında Firudin ADF rəhbərləri ilə birlikdə Təbriz şəhərində idi. ADF rəhbərliyinin tapşırığı ilə o, mühacirətdən qayıtmış bir qrup firqə rəhbəri ilə birlikdə yenidən Təbrizdə siyasi fəaliyyət qurdular və "Azərbaycan" qəzetini nəşr etməyə başladılar.

1981-ci ilin sonlarında ADF mətbutının nəşri zorakılıqla dayandırıldı və bir neçə aydan sonra tamamilə qadağan edildi. 1982-ci ildən İran İslam Respublikası ADF rəhbərlərini həbs etdi və az müddətdən sonra onları edam etdi. Firudin ADF rəhbərlərinin kütləvi həbslərindən bir ay qabaq məzuniyyətə göndərildiyindən həbsdən yaxasını qurtara bildi.

Lakin beynəlxalq təşkilatlar, sovet dövlət qurumları, ictimai birliklərin bu repressiyalara biganəliyi onu dəhşətə gətirirdi. Hər gün xəbərləri izləyirdi ki, Azərbaycan demokratlarını müdafiə edəcək bir bəyanat eşitsin. Lakin demokratları dünyada, eləcə də, guya, onların arxası olan SSRİ-də müdafiə edən olmadı.

***Kamal NİKBİN***

**İranda yeni tədris ili "professorların ovu" ilə başlayıb. Onlara qarşı təzyiqlərin davamı olaraq Tehran İncəsənət Universitetinin iki professoru olan Məsud Oliya və Firiştə Hüseyni Şəkib də universitetdən qovulduqlarını açıqlayıblar.**

# İranda "professor ovu"



İncəsənət Universitetinin sənət fəlsəfəsi professoru Məsud Oliya İnstaqram səhifəsində universitetin idarə heyətinin müqavilə müddətinin uzadılması ilə razılaşmadığını bildirən məktubunun təsvirini dərc edib. Alim universitetin bu qərarına cavab olaraq yazıb: "İncəsənət Universitetində 12 ildən sonra işdən çıxarıldım. Onların yersiz davranışlarına dediyim böyük "yox"a cavab olaraq universitetdə davamiyyətimə kiçik bir "yox" dedilər və bununla fəxr edirəm".

Animasiya professoru Firiştə Hüseyni Şəkib də öz İnstagram səhifəsində oxşar xəbər yayıb. Əxlaq polisi zorakılığı nəticəsində Məhsa Əmininin ölümündən sonra baş verən geniş etirazlardan sonra universitetlər etirazların əsas mərkəzlərindən birinə çevrilib. Bu səbəbdən hökumət etirazçı öyrənci və professorlarla sərt davranmaqdadır.

Mənbələrdən alınan məlumatlara görə, etirazları dəstəkləyən və cəzaları tənqid edən professorların işdən çıxarılması dalğası, eləcə də məcburi hicabla bağlı öyrəncilərə qarşı təzyiqlər yeni tədris ilindən daha da güclənib.

***Hüseyn RƏHİMZADƏ***

# Səs-küy salmağa görə də şallaq cəzası




**"İlna" xəbər agentliyinin yaydığı məlumatda deyilir ki, İranın "Milli Polad Qrupu"nda çalışan 17 işçi Əhvaz İnqilab Məhkəməsi tərəfindən cərimə və 74 şallaq cəzasına məhkum edilib.**

Xəbərə görə, bu hökm "Milli Polad Qrupu" şirkətinin ötən il idarəçilik vəziyyətinə və onların hüquqi şərtlərinə etiraz edən işçilər üçün işəgötürənin şikayəti əsasında çıxarılıb. Əhvaz İnqilab Prokurorluğunun 12-ci istintaq şöbəsinin çıxardığı cərimə və qamçı cəzası 3 il müddətinə təxirə salınıb.

Mehdi Vəlipur, Xalid Şərifi, Raed Obidavi, Tariq Xələfi, Seyyid Rəsul Haraq, Nader Hardani, Əli Naderi, Mehdi Nəqravi, Məsud Heydəri, Əbdül Hüseyn Həmidipur, Mustafa Abayat, Əbdül Kərim Siyahi, Kazım Heydəri, Əli Elhaifər, Hadi Vaelizade, Həsən Cavid Həmudi və Qarip Hoveyzavi "Milli Polad"ın etirazları zamanı "səs-küy və mübahisə yaradaraq ictimai asayişi pozmaq" ittihamı ilə idarəçilik və hüquqi statuslarına etiraz etdikləri üçün 2 milyon 500 min tümən cərimələnən işçilərdən bəziləridir. Qrup keçən il 3 ay həbs və 74 şallaq cəzasına məhkum edilib.

Azad İşçilər Həmkarlar İttifaqı bu işçilərin "Şəfəq Rahian Aksin Sənaye və Ticarət Şirkəti" olduğunu təsdiqləyib. Ötən illərdə "Milli Polad Qrupu"nun işçiləri dəfələrlə etiraz aksiyaları və tətillər keçirib və təhlükəsizlik qüvvələrinin hədəfinə çevrilib. Həmkarlar ittifaqına və yaşayış şəraitinə etiraz edən işçilərə şallaq cəzası verilməsi görünməmiş bir hadisədir.

Xatırladaq ki, 2013-cü ilin yanvarında Qərbi Azərbaycandakı Ağdərə qızıl mədəninin etiraz aksiyası keçirən 17 işçisi də "səs-küy və mübahisə yaradaraq insanların bizneslə məşğul olmasına mane olmaq və onları dayandırmaq", "şirkətin mühafizəçisini təhqir etmək", "mühafizəçinin paltarlarını məhv etmək və qanunsuz olaraq müsadirə etmək" və "şirkət nişanını qəsdən məhv etmək" ittihamı ilə 30 –100 şallaq cəzasına məhkum edilmişdilər.

***Rəhman GƏNCƏLİ***

# Güneydə Milli Hökumətin mətbu salnaməsi

**(əvvəli qəzetimizin 4 oktyabr 2023-cü il tarixli sayında)**

**Söhbət 1945 – 1946-cı illər Təbrizdə Milli Hökumət qurmuş Azərbaycan Demokrat Firqəsinin mərkəzi nəşri olmuş "Azərbaycan" qəzetindən gedir. Bu yazı isə konkret hadisənin, məsələnin, şəxsiyyətin, əsərin deyil, zəngin mövzular çələnginin səciyyələndirilməsinə həsr olunub.**

### 1945–1946-cı illərin Təbriz jurnalistika məktəbi

XX əsrin birinci yarısında İranda qaynar qazana bənzər Azərbaycanımız milli oyanışa, fəal ictimai-siyasi fəaliyyətə, hərəkatlara, üsyanlara, qiyamlara təkan verən mətbu nəşrlərin sayına, məzmun rəngarəngliyinə, keyfiyyətinə görə bütün əyalətləri üstələyən mərkəz funksiyasının daşıyıcılığını öz üzərimə götürmüşdü. 1905–1946-cı illər ərzində orada 160-a yaxın qəzet, jurnal, almanaxın çıxdığı təxmin edilir.

Bu nəşrlərin 50-yə yaxını milli oyanışın zirvəsi sayılan Səttarxan üsyanı və Məşrutə hərəkatı (1905–1911-ci illər) dövrünə düşür. Şeyx Məhəmməd Xiyabani hərəkatı (1918–1920-ci illər) zamanına isə 20-dən çoxu aid edilir. Repressiyaların, qadağaların 1921–1941-ci illər ərzində mətbu nəşrlərin sayına təsirsiz qalmadığını 20-yə yaxın rəqəmi təsdiqləməkdədir. 1941–1946-cı illərə aid rekord rəqəmi (50-dən çox mətbu nəşr) isə, ilk növbədə, ölkədə qəzet, jurnal, toplu nəşri üçün daha münbit şəraitin yaranması, yeni ictimai-siyasi canlanma ilə əlaqələndirmək olar.

Çox təəssüf ki, bu bolluğa baxmayaraq, kəmiyyət keyfiyyəti daim üstələyib. Bunun nəticəsidir ki, hər dövr üçün barmaqla sayılacaq qədər dəyərli nəşrlərin adları xüsusi hörmətlə, vüqar hissi ilə çəkilir. "İran-e-nou" ("Yeni İran"), "Bahar", "Sur-e İsrafil", "Məşrutə", "Təcəddüd", "Azadistan" Şeyx Məhəmməd Xiyabani hərəkatlarının cəhalətə, despotizmə, haqsızlıqlara daha fəal meydan oxuyan tribunaları idilər.

1941–1946-cı illərin siyasi mənzərəsi, münbit şəraiti bu çevrənin genişlənməsinə təsirsiz qalmadı. Proseslər İran Xalq Partiyasının orqanı "Rəhbəri", antifaşist "Mərdom"u ("Xalq"), "Zəfər"i (Fəhlə və Zəhmətkeşlər Birliyinin Birləşmiş Mərkəzi Şurasının orqanı), "Xavər-r nou"nu ("Yeni Şərq") önə çıxartdı. Hər birinin ictimai fikrin inkişafında, azad mətbu sözün çatdırılmasında böyük xidmətləri var. Əfsuslar olsun ki, onların heç biri jurnalistika məktəbi kimi formalaşa bilmədi.

Sinfiliyə meyl, baxışlardakı məhdudiyyətlər, müəllif, oxucu auditoriyası, yayımla bağlı problemlər, digər kəm-kəsirlər öz sözünü dedi. "Azərbaycan" qəzeti isə millətlərə, dillərə, dinlərə, mal-mülk imkanlarına fərq qoymadan, bütövlükdə, İran, fəallığı ilə seçilən Azərbaycan oxucusunun bəşəri duyğularının ifadəçisi kimi yenidən tarixləşdi, əbədiləşdi, məktəbləşdi.

Harada yaşamasından, hansı nəşrdə işləməsindən asılı olmayaraq demokratik ideyalar Seyid Cəfər Pişəvərini heç vaxt tərk etməyib. Tərəddüdlər, məsuliyyət 48 qəzeti öz ətrafında birləşdirən "Cəbhe-ye Azadi"nin ("Azadlıq cəbhəsi") rəhbərinin seçimini uzun müddət təxirə salmışdı. Nəhayət, yekun qərarın qəbulunda "Azərbaycan" qəzeti üzərində dayandı. Farsdilli "Ajir"in (Həyəcan siqnalı mənasında) redaktoru Seyid Cəfər əməkdaşlarına, məsləkdaşlarına niyyətini açıqladı, onları Tehrandan Təbrizə gətirdi. Təşkilatçı və ideya rəhbəri kimi Pişəvərinin "Azərbaycan" qəzeti fəaliyyətə başlamazdan əvvəl onun əməkdaşlarının hər birinə ilk tapşırığı, tövsiyəsi milli dildə səlis yazma vərdişlərinə yiyələnmələri oldu.

Oxucularla ana dilində mütəmadi görüşlər əvvəllər yarıfars, yarıazərbaycan dilində yazanları doğma dil orbitlərinə qaytardı. Anadilli ünsiyyət Firudin İbrahimi, Məhəmməd Biriya, Abbas Pənahi, M.Turabi, Qəhrəman Qəhrəmanzadə... kimi jurnalistlərə bütün ölkə miqyasında hörmət qazandırdı. İstedadı və təşkilatçılıq bacarığı ilə seçilən mütəfəkkirlərə redaktorluq etibar olundu. Qəzet işinin mahir ustaları Hacı Əli Şəbüstəri (1–29-cu saylar), Əhməd Müsəvi (98–151-ci saylar), Fəthi Xoşginabi (152–246-cı saylar), İsmayıl Şəms (247–293-cü saylar) nəsillərə yadigar jurnalistika məktəbinin yaradıcıları sırasında yer aldılar (30–97-ci və 294–370-ci sayların isə hazırlanması redaksiya heyətinə tapşırılıb).

Tanınmış şairlər Əli Fitrət, Mir Mehdi Etimad, Mehdi Çavuşi ilə yanaşı, Yəhya Şeyda, Fəxrəddin Məhzun, Məhəmmədəli Fərzanə, Həbib Sahir... ən yaxşı yazılarını burada dərc etdirirdilər.

Qəzet rəsmən siyasi partiyanın orqanı olsa da dəst-xətti, orijinallığı, dolğunluğu ilə müasirlərindən əsaslı şəkildə fərqlənirdi. "Azərbaycan" qəzeti mövzu, janr rəngarəngliyi, obyektivliyi, həqiqətə xidməti ilə məmləkətin hüdudlarını da aşan oxu-




cu gözləntilərini doğruldurdu. Auditoriyaya gəldikdə, ADF-nin yaranması ilə onun sıralarına hamılıqla qoşulan İran Xalq Partiyasının ("Tudə"nin) Azərbaycan təşkilatının minlərlə üzvü də bu mətbu nəşrin fəal oxucuları sırasında idilər.

Qəzetin ətrafına toplaşan Balaş Azəroğlu, Əli Tudə, Mədinə Gülgün, Hökümə Billuri, İbrahim Zakir, Hüseyn Cavan, Məhəmmədtağı Zehtabi, Haşım Tərlan, Bulud Qaraçorlu (Səhənd) və digər şair, yazıçı, publisistlər Təbriz ədəbi məktəbinin əvvəlki nüfuzunu, şöhrətini özünə qaytardılar. Onların bir qismi mühacirət illərində daha da kamilləşərək, bütövlükdə, milli ədəbiyyatımızın, söz sənətimizin zirvələrinə, fəxrlərinə çevrildilər.

Yazar bolluğu jurnalistika məktəbinin formalaşmasının ilkin şərtidir. Həftədə iki dəfə çıxan "Azad millət" qəzetinin (Milli Məclisin orqanı) mövcudluğu, rəsmi sənədləri çap etməsi "Azərbaycan"ın əl-qolunu bir növ açmışdı. Nəşrin təşkilatçısı Seyid Cəfər Pişəvərinin müvafiq göstərişləri redaktorlar və redaksiya heyəti üzvlərinin yaradıcılıq imkanlarını sərbəst, bütün çalarları ilə nümayiş etdirmələrinə şərait yaratmışdı. Xəbərlər, şərhlər, təhlillər, araşdırmalar, felyetonlar, satira və yumorlar, xalq yaradıcılığı nümunələri də yazarların, həvəskarların jurnalistika dərslərini əxz eləmələrində əyani nümunələr idi.

Cildlərdə toplanan mətbu materiallar əski əlifbadadır. Bu amilin həmin hürufatı bilməyənlərə, yaxud lazımi səviyyədə bələd olmayanlara yaşadacağı problemlər bəllidir. Belələri üçün də xoş xəbər var. Mütəxəssislər hazırda saylardakı yazıları latın qrafikasına çevirirlər, fars dilindəki materialları dilimizə tərcümə edirlər. Dəyərli xidmətdir, o gün olsun həmin cildləri də stolüstü kitablarımızın sırasında görək!

***Rəhim HÜSEYNZADƏ,***
***Əməkdar jurnalist***

# Nərgiz Məhəmmədi – mübariz nobelçi zindanda

**BMT-nin Baş katibi Antonio Quterreş sülh nominasiyasında builki Nobel Sülh Mükafatının Nərgiz Məhəmmədiyə verilməsinin "mübariz qadınlara hörmət" anlamında olduğunu deyib.**



Quterreş "X" şəbəkəsində yazıb: "Bu mükafatın Məhəmmədiyə verilməsi azadlıqlarını, sağlamlıqlarını və hətta yaşamlarını təhlükəyə salmaqla öz hüquqları üçün döyüşən qadınlara hörmət göstərməkdir".

BMT-nin İran üzrə insan haqları xüsusi təmsilçisi Cavid Rahman və qadınlara qarşı ayrı-seçkilik sahəsində BMT-nin Müstəqil Mütəxəssislər Komitəsinin sədri Dorsi Strada və qurumun digər 4 üzvü də Nərgiz Məhəmmədiyə Nobel Sülh Mükafatının verilməsi barədə müvafiq bəyanatla çıxış ediblər: "Qadın haqları üzrə bir cəsarətli fəal və jurnalistə 2023-cü il Nobel Sülh Mükafatının verilməsi qadınlara ayrı-seçkilik edən, ayıran, təhqir və məhrum edən sistemlərə qarşı mübarizə anlamındadır".

Xatırladaq ki, qadın haqları üzrə fəal Güney azərbaycanlı, Zəncan əsilli soydaşımız Nərgiz Məhəmmədi hazırda siyasi ittihamlarla Tehranın "Evin" zindanında saxlanılır.

***T.TURAN***

## Günün mövzusu

# Dayə – “döyən”, yoxsa “duyan”?

*O, ananı əvəz edə bilməsə də, ailənin dayağı ola bilər*



**Min arzu - istəklə dünyaya övlad gəlir. Hər bir valideyn ciyərparasını cəmiyyətə layiq, qəlbində Vətən sevgisi, doğmalara, dostlara, ətrafına məhəbbət və sədaqət ruhunda tərbiyə etmək istəyir. Körpənin sağlamlığı, qidalanması, gününə-ayına uyğun böyüməsi əsas qayğıya çevrilir.**

Hər ana istəyir ki, öz azyaşlı övladının tərbiyəsi ilə özü məşğul olsun, onun gözəl anlarını izləsin, böyüdüyünü müşahidə etsin. Lakin bir çox hallarda həyat şərtləri buna imkan vermir. Son illərdə dilimizə “baxıcı–dayə” ifadəsinin daxil olması ötən əsrlərin zadəgan ailələrinin həyat tərzini xatırladır. Valideyn zənginlik içində günlərini gəzib dolanmaqla, dostları ilə müxtəlif qonaqlıqlarda keçirir, övladlarını dayələrə (mürəbbiyə) etibar edirdilər. Uşaqların əylənməsi, yeyib-içməsi, gəzintisi, yatması, oxuması dayənin nəzarəti ilə həyata keçirilirdi. Söhbət bəy, yaxud statusu olmayan çox zəngin ailələrdən gedir.

Bəs bu gün vəziyyət necədir? Dayəyə ehtiyac o qədər artıb ki, son zamanlar ölkədə “dayəlik institutu” ilə bağlı müra-



ciətlər artır. İşini itirməmək üçün azyaşlı uşağına dayə tutan analar, buna razılıq verən ataların əksəriyyəti az keçmədən qəbul etdikləri qərara görə təəssüflənirlər. Çünki uşağını dayəyə etibar edəndə evin açarları da ona etibar edilir. Bu isə bir çox hallarda uşağa qarşı zorakılıq və digər neqativ hallarla müşayiət olunur.

Yaxşı xatırlayıram ki, həmkarımız Hamlet Qasımovun qızı işə analıq məzuniyyətindən erkən qayıtmalı olduğundan uşağına dayə tutmuşdu. Bir, iki, üç... Hər gələn dayə onlara bir problem yaşatmışdı... Nəhayət, körpə yüksək xasiyyətnamə və zəmanətlə gələn dayəyə etibar edildi və evə kamera quraşdırıldı. Amma cəmi bir həftə sonra kamera görüntülərinə baxanda dayənin uşaqla münasibəti valideynləri də, nənə-babanı da heyrətə gətirdi. Evdə kamera olduğunu bilə-bilə qulağında telefon uşaqla cansız gəlincik kimi davranan dayənin zorakı hərəkətlərinə etinasız qalmaq mümkün deyildi...

Məqsədimiz dayələrin işinə, davranışına kölgə salmaq deyil. Peşəsini sevən, uşağa doğması kimi yanaşan, onun sağlıq durumuna cavabdeh olan, xəstələnəndə yanından çəkilməyən, vicdanla çalışan dayələr az deyil. Analar işləmək məcburiyyətində qaldıqları üçün dayə xidmətinə müraciət edirlər. Ümumiyyətlə, dayəlik Azərbaycanda son 10–15 ildə yaranmış, ənənəsi olmayan yeni sahədir.

Statistikaya görə, ölkəmizdə təxminən 30–40 min belə işçi var. Aidiyyəti orqanlar onlarla əmək münasibətlərini rəsmiləşdirmək istəsələr belə, bu, mümkünsüzdür. Əslində, yaxşı olar ki, Əmək Məcəlləsinə sahibkar olmayan fiziki şəxs (dayə, baxıcı) anlayışı gətirilsin. Ev qulluğunda çalışanlarla bağlı fərqli yanaşma işləri qeyri-formal sektordan formal sektora keçirilənə qədər qalsın.

**Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın “dayəlik institutu”na, “dayə” peşəsinə münasibəti çağdaş tələblərə əsaslanır:**

– Müraciətinizə cavab olaraq bildiririk ki, ailə çoxuşaqlı olduqda, valideynlər işlədikdə və ya digər səbəblər yarandıqda uşaqlara qayğı göstərmək üçün “dayə xidməti”ndən istifadə edilir. Dayələrin əsas vəzifəsi, uşaqların rifah halını təmin etmək, uşaqlarla qarşılıqlı münasibət qurmaq, valideynlərin təlimatına uyğun olaraq onların qayğısına qalmaq, inkişaf və böyüməsinə yardım etmək, mürəkkəb situasiyalarda yol göstərmək, münaqişələri həll etmək, cəmiyyətdə düzgün ünsiyyət və davranış qaydalarını mənimsəməsinə köməklik etməkdir.

Dayənin vəzifələri bir qədər genişlənərək digər məişət və uşaqla bağlı işləri də əhatə edə bilər. Buraya evin saxlanılması, yeməyin bişirilməsi, uşaqların açıq havada gəzintisi, cari işlərin görülməsi və s. daxil ola bilər. Dayə bu vəzifələri öz evində də həyata keçirə bilər.

Dayələr təcrübəli olmalı, bütün yaş qruplarından olan uşaqlarla işləməyi, məktəbyaşlı uşaqların təlim bacarıqlarının inkişaf etdirilməsinə köməklik göstərməyi, uşaqlara gündəlik rejim və gigiyenik qaydaları aşılamağı bacarmalıdır. Dayələrin şəxsi keyfiyyətləri arasında səbrli, təmkinli olması, emosional baxımdan müvazinətliliyi və uşaqlara sevgi ilə yanaşması çox önəmlidir. Bundan əlavə, dayənin intellektual inkişaf səviyyəsi, müxtəlif sahələr üzrə məlumatlı olması da əhəmiyyətlidir. Dayələrin seçilməsi zamanı onların tibbi, narkoloji, psixiatrik müayinədən və psixoloji testlərdən keçirilməsi mütləqdir. Dayə işləmək istəyənlər fiziki və psixi baxımdan sağlam olmalıdırlar.

Nazirlər Kabinetinin qərarı ilə “Peşə təhsili üzrə ixtisasların təsnifatı”na dəyişiklik edilmiş və “İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə” peşə istiqaməti üzrə “dayə” ixtisası əlavə edilmişdir. Elm və Təhsil Nazirliyinin “dayə” ixtisası üzrə təhsil proqramı təsdiq olunmuşdur. Dayələrin peşəkar hazırlığı üçün onların xüsusi tədris proqramlarına cəlb olunması, bu sahədə ixtisaslı kadrların hazırlanması mütləqdir.

Bəs psixoloqlar nə düşünür? Uşağın böyüməsi və tərbiyəsində dayənin rolu vacibdirmi?

**Psixoloq Şəhla Quliyevanın fikrincə, uşağı, əsasən, ana böyütməlidir. Dayə ilə böyüyən uşaqla valideyn nəzarətində olan uşaq arasında xeyli fərq olur:**

– “Dayə uşaqları” ailəyə çox bağlı olmur. Onlar ata-anasını evə gedib-gələn qonaq kimi görürlər. Valideynlə uşaqlar arasında dayə bir vasitəçi, bəzən isə sədd rolunu oynayır. Uşaq valideynindən daha çox dayəsinin xasiyyətini, vərdişlərini mənimsəyir. Dayə uşağa öz tərbiyə üsulunu, dünyagörüşünü, ətrafa münasibətini və baxışını öyrədir. Bu isə valideynlə övladı arasında yadlıq yaradır. Hər dayə canyandıran olmur. Doğrudur, nadir hallarda uşağına laqeyd olan valideynlər olsa da, yenə övladına dayədən daha yaxın olur.

**Dayə xidmətindən istifadə edən, bu sahədə “bəxti gətirən” oxucumuz Ceyhunə Məmmədova deyir:**

– İşimlə əlaqədar dayəyə ehtiyac duymuşam. Uşağımı məcburiyyətdən 4 aylığından 2 yaşına qədər dayəyə etibar etməli olmuşam. Körpəmə əsl analıq edib. Temperaturu olanda belə narahat etməmək üçün mənə xəbər verməyib, işdən dönənə qədər nə lazımdırsa edib və hərarətini salıb. Qızım iki ildir dövlət bağçasına gedir, 4 yaşı var. Dayəsi arada onu görmək üçün bizə gələndə qollarını yana açıb elə qucaqlayır ki, qısqanıram. Amma hər şeyə görə ona minnətdaram.

Araşdırmalar sübut edir ki, müəllim olmaq da hələ uşaq psixologiyasına bələd olmaq, uşağın davranış qaydalarını bilmək demək deyil. Amma dayə uşaq psixologiyasını bilməlidir. Bu, xüsusi bir peşədir. İnkişaf etmiş ölkələrdə dayələrin hazırlanması üçün xüsusi təlim kursları, məktəblər təşkil edilir. Həmin ölkələrdə dayələr agentlik vasitəsilə tapılır. Bu agentliklər dayələrə xüsusi dərslər keçir, metodik bilgilər və ingilis dili öyrədirlər. Avropanın bir çox ölkəsində isə dayələri hazırlamaq üçün 1–2 aylıq kurslar təşkil olunur. Burada onlar psixologiya, pedaqogika, tibbi bilgilər əldə edirlər. Dayələrə uşaqla davranış, körpənin saxlanması, ilkin tibbi yardım kimi qaydalar öyrədilir.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin məlumatına görə, Bakıda peşə liseylərində bu ixtisas qəbul planına salınmır. Hazırda Ticarət və Xidmət üzrə Gəncə və Qəbələ Dövlət Peşə Təhsil mərkəzlərində, Beyləqan Peşə Məktəbində dayə ixtisası tədris olunur. Qeyd edək ki, Gəncədə artıq üçüncü ildir ki, dayə ixtisası üzrə hər il 20 tələbə təhsil alır və 1 və ya 2 illik təhsil müddətində Gəncə Körpələr evi və şəhərdə yerləşən uşaq bağçalarında təcrübə keçirlər. Təhsil alanlar körpələr evi–uşaq bağçalarında dayə peşəsi üzrə fəaliyyət göstərirlər.

Maraqlı odur ki, bəzi zəngin ailələr uşaqlarının tərbiyəsi üçün Azərbaycana Flippindən, İngiltərədən, Koreyadan və digər ölkələrdən dayələr gətizdirirlər. Həmin dayələr də uşaqlara öz mədəniyyətlərini və dillərini təbliğ edirlər. Bu, bizim genefondumuza da zərbə vurur, millimənəvi dəyərlərimizə də ziddir. Çünki həmin uşaqlar böyüyəndə öz ana dillərində danışa bilsələr də, cəmiyyətə baxışları fərqli olur. Bu isə olduqca təhlükəli tendensiyadır.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Sosial Dəstək Mərkəzi” publik hüquqi şəxs tərəfindən həyata keçirilən “Baxıcı-dayə” layihəsi çərçivəsində bu ilin avqust ayından praktik məşğələlər təşkil edilib. 40 saatı əhatə edən məşğələlərdə iştirakçılar ahıl və əlilliyi olan şəxslərdə baş verən fizioloji dəyişikliklər və bununla əlaqədar yaranmış psixoloji təsirlər, yaşlılıq dövrünün aktual xüsusiyyətləri, ilkin tibbi yardım qaydaları, hipertonik kriz, işemik insult xəstələrinə qulluq metodları, empatiyanın ünsiyyətdə rolu və s. mövzuları əhatə edən nəzəri təlimlərdə iştirak etmişlər. Yaxşı olardı ki, yaşlılara olduğu kimi, körpələrə də hər yaş dövrünə uyğun dayələr hazırlansın. Onda analar–dayələr arasında anlaşılmazlıq da aradan qalxar.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

## Diaspor fəallarımız

**Sənətindən, peşəsindən asılı olmayaraq, bu Vətən hamımızındır və hər kəs öz sahəsində Azərbaycan adının ucalığını qorumağa çalışır. Bu təəssübkeşliyimiz müzəffər Ali Baş Komandan, Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğalçı düşmən üzərində tam və qəti qələbəmizdən sonra daha da artıb. İkinci Qarabağ müharibəsindəki Zəfərimiz dünyaya səs salandan sonra Azərbaycandan kənarda yaşayan soydaşlarımızın da fəallığı, Vətənə gəliş-gedişi intensivləşib. Qürbətdəki soydaşlarımızla qürur duyduğumuz bu məqamlarda Vətənimizdə görüşüb ünsiyyətdə olmaq da son uğurlarımıza çox maraqlı və fərqli baxışlarını eşidib bilməyə imkan verir. Müsahibimiz Kanadada yaşayan türkoloq, Yaxın Şərq ölkələri üzrə şərqşünas alim Xoşqədəm Qaramandır.**

# Qarabağda zəfərimiz dünyanı mat qoydu



**– Xoşqədəm xanım, hələ sovet dönəmində Sankt-Peterburq Universitetinin şərqşünaslıq fakültəsini Yaxın Şərq ölkələri üzrə mütəxəssis olaraq bitirmisiniz. Bu ixtisası necə seçdiniz?**

– Bu ixtisası necə seçdim, sualınıza iftixarla və minnətdarlıqla ümummilli liderimiz Heydər Əliyevin sayəsində,- deyə cavab verirəm. Yəqin ki, bilirsiniz, Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə müxtəlif sahələr üzrə mütəxəssislərin respublikamızdan kənarda, nüfuzlu universitetlərdə təhsil almasına xüsusi diqqət göstərib və şərait yaradıb. Həmin kadrlar, mütəxəssislər sonralar ölkəmizin inkişafında da,sərhədlərimizdən kənarda tanınmasında da mühüm rol oynayıblar. Ölkədə hansı bir nailiyyət varsa, orada Heydər Əliyevin adı və apardığı uzaqgörən siyasət nəticəsində formalaşan yüksək səriştəli mütəxəssislərin rolu var.

Azərbaycandan kənarda nüfuzlu bir universitetdə əsaslı oxumaqla mən də özümü Ulu öndərin təhsil sahəsində göstərdiyi fəaliyyətdən bəhrələnən kadrlardan biri hesab edirəm. Universiteti bitirəndən sonra 25 ilə yaxın bir vaxtda AMEA-nın Şərqşünaslıq İnstitutunda çalışmışam. Sonra tale elə gətirib ki, Kanadaya köçmüşəm və orda fəaliyyətimi davam etdirirəm. Kanadada ixtisasım üzrə treninqlər keçirir, tez-tez müxtəlif ölkələrdə düzənlənən elm məclislərinə dəvət olunur, konfranslarda Yaxın Şərq üzrə mütəxəssis kimi çıxış edirəm. Yaxın Şərq ölkələrinin tarixinin, inkişafının gedişatı üzrə müzakirələrdə Azərbaycanımızın tanınması və dünyadakı proseslərdə mövqeyi haqqında səhih məlumatlar verib, dürüst təsəvvür formalaşdırmağa çalışıram.

**– Qürbətdə Azərbaycanımızın qələbələrini necə yaşadınız?**

– Öncə qeyd etmək istərdim ki, Azərbaycandan kənarda yaşayanların böyük əksəriyyətinin qəlbi həmişə Vətənlə döyünür. Bunu yaşadığım Kanadada və əksər ölkələrdə elmi konfranslarda, tədbirlərdə olarkən daim müşahidə etmişəm. Ərazilərimizin azadlığı uğrunda müharibədə Qələbəmizə həmımızın ürəyini dağa döndərdi, belə demək mümkünsə, qürbətdə yaşayan azərbaycanlıları digər xalqların içində bir boy ucaltdı. Dünyanın hansı nöqtəsində olursa-olsun, bu günlər soydaşlarımız Vətən müharibəsindəki böyük Qələbənin, son uğurların qürurunu yaşayırlar və bu, onların ictimai-siyasi baxımdan fəallaşmasına stimul verib. Mən özüm Kanadadakı təhsil ocaqlarına azərbaycanlı gənclərin cəlb olunması ilə bağlı fəaliyyətimdə bunu aydın hiss edirəm. Eləcə də dünyanın aparıcı ölkələrində son illər iştirak etdiyim tədbirlərdə bizə münasibətin əsaslı şəkildə müsbət istiqamətdə dəyişdiyinin şahidiyəm. Azərbaycana marağın qat-qat artması ilə qürbətdə yaşayan soydaşlarımızın da məsuliyyət hissi, Vətənimizi layiqincə təmsil etmək məsuliyyəti yüksəlib.

**– Uzun illər Yaxın Şərq ölkələrini araşdıran alim kimi, bu gün həmin regionda gedən proseslərlə bağlı fikirlərinizi bilmək istərdik.**

– Mən uzun müddət AMEA-nın Şərqşünaslıq İnstitutunda “Türkiyə tarixi və iqtisadiyyatı” şöbəsində çalışmışam. Bu gün o sahənin mütəxəssisi olaraq baxanda görürəm ki, Türkiyə dünya siyasəti və iqtisadiyyatında sözü keçən bir ölkə kimi tanınır. Qardaş ölkənin hərbi sənayedə, iqtisadıyyatın ayrı-ayrı sahələrində əldə etdiyi uğurlar dünya siyasətində söz sahibi səviyyəsinə yüksəlin Cumhurbaşqanı R.T. Ərdoğanın adı ilə bağlıdır.

Ümumiyyətlə, dünya düzənindən, başəri tərəqqidən danışarkən, öncə bu proseslərdə prezidentlərin rolunu xüsusi vurğulamaq istərdim. Onu da deyim ki, prezidentlərin fəaliyyətinə siyasi xadimlər, dünya siyasətini izləyib araşdıran mütəxəssislər danışıb dürüst qiymət verə bilərlər. Dünyanın gərdişindən az-çox xəbərdar olan şərqşünas kimi əminliklə deyə bilərəm ki, bu regionun gələcəyi iki uzaqgörən siyasi xadim, münasibətlərin inkişafına, tərəqqisinə töhfələr verən Türkiyə Prezidenti Rəcəb Tayib Ərdoğandan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən çox asılıdır. Müşahidə edirik ki, dünyada və Yaxın Şərqdə onlarsız heç bir məsələ həll olunmur. Tarix sübut edir və yaşadığımız zaman, gedən proseslər də onu göstərir ki, iki şəxsiyyətin atacağı addımlar regionun gələcək inkişafını təmin edə bilər.

**– Söhbətimizin əsas ruhunu təşkil edən qələbəmizin ölkəmizin gələcək inkişafına, sizcə, töhfəsi nə olacaq?**

– Azərbaycanımızdakı bugünkü vətənpərvərlik ruhu bütün dünyaya örnək ola bilər. Vətən müharibəsində biz torpaqlarımızı, sözün əsl mənasında, ANA deyib sevən, təəssübkeş, mərd cəsur gənclərimizin olduğuna şahidlik etdik. Qarşıya qoyulan müqəddəs bir məqsədə doğru, torpaqlarımızı azad etmək yolunda inamla irəlilədilər. Müharibə meydanında inadla mübarizə aparan, Azərbaycanımızın gələcəyi olan gənclərimiz elmi potensialımızın yüksəlməsində də böyük rol oynayacaqlar. Vətənpərvər gənclərimizin dünya elminə töhfə verərək, Azərbaycanın elmi potensialını da müasir səviyyəyə uyğun təmsil edəcəklərinə ümidim böyükdür.

*Söhbəti apardı:*
*Rahib QƏRİB*
*XQ*

## Sosial xəbərlər




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və kommunikasiya şöbəsindən XQ-yə verilən son məlumatda bildirilir:**

Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar–sentyabr aylarında 36 min 900 şəxsə əlillik təyin edilib.

Onlardan 18 min 200 nəfərinə ilkin, 18 min 700 şəxsə isə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunub. Qeyd olunan dövrdə agentliyin müəssisələrində 60 min şəxsə reabilitasiya xidmətləri göstərilib.

***

**9 ayda DOST mərkəzlərində 518 min vətəndaşa xidmət göstərilib, məmnunluq səviyyəsi 98,2 faiz təşkil edib.**

DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində növbəti addım olaraq bu il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdədə Qarabağ Regional DOST mərkəzinin açılışı olub. Beləliklə, bu mərkəzlərin sayı 7-ə çatıb. DOST konsepsiyası əsasında 159 sosial xidmət “bir pəncərə”dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. “Könüllü DOST” proqramına isə bu ilin 9 ayında 20 min 800-ə yaxın müraciət olub və proqrama daha 1123 nəfər cəlb edilib.




***

**Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşdırılması istiqamətində görülən kompleks tədbirlər bu il də əmək müqavilələrinin sayında artıma imkan verib.**




2023-cü ilin yanvar–sentyabr aylarında ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 24 min müqavilə və ya 1,4 faiz artaraq 1 milyon 770 minə çatıb. Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. 9 ayda əməkhaqqı fondunda daha 12 faiz artım olub. Ümumilikdə, son 5 ildə əmək müqavilələrinin sayında 35 faiz, əməkhaqqı fondunda 2,6 dəfə artım baş verib.

*Z.HÜSEYNOVA*
*XQ*

# Rəsul Rzanın Ankarada çap olunmuş kitabı təqdim olundu

**Ötən günlər Bakı Beynəlxalq Multikulturalizm və Beynəlxalq Münasibətlərin Təhlili mərkəzlərinin birgə keçirdikləri "İraq türkmanları və Türk dünyası: Tarixi yaddaşın bərpası" mövzusunda beynəlxalq konfransın iştirakçıları ilə Azərbaycan Yazıçılar Birliyində maraqlı görüş olub.**

Tədbiri açan AYB sədr müavini Rəşad Məcid qonaqları salamlayaraq, qardaş xalqlarımızın ədəbi əlaqələrinin dərin köklərindən söz açdı. Sonra o, Kərkük Kültür Dərnəyinin rəhbəri, ünlü yazar Şəmsəddin Küzəçinin təkrar nəşr kimi hazırlayaraq Ankarada çap etdirdiyi "Rəsul Rza: Uzaq ellərin yaxın töhfəsi" kitabını təqdim etdi.

Yeni nəşrin redaktoru və "Ön söz"ünün müəllifi – filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Qəzənfər Paşayev unudulmaz Xalq şairi Rəsul Rzanın zamanında geniş əks-səda doğurmuş "Uzaq ellərin yaxın töhfəsi" məqaləsi haqqında ətraflı məlumat verdi. O bildirdi ki, Azərbaycanın görkəmli şairinin həmin məqaləsi 60-cı illərdə "Azərbaycan" jurnalında çıxandan sonra geniş əks-səda doğurub. Hətta İraq türkmanlarının öndə gələn ziyalısı, folklorşünas alim Əbdüllətif Bəndəroğlu baş yazarı olduğu "Qardaşlıq" dərgisinin ardıcıl olaraq 6 sayında həmin məqaləni çap etdirmişdi. İndi isə Şəmsəddin Kuzəçi məqaləni kitab halında çıxararaq, İraqda yaşayan soydaşlarımıza, həmçinin qürur və güvənc yerimiz olan türkiyəli qardaşlarımıza ərməğan edib. Bunu əlamətdar hadisə sayan görkəmli ədəbiyyatşünas həm də bildirdi ki, böyük Azərbaycan sevdalısı olan Şəmsəddin Kuzəçinin bu yaxınlarda AMEA-nın fəxri doktoru seçilməsi fərəhli hadisədir.




AYB-nin sədri, Xalq yazıçısı Anar Rəsul Rza yaradıcılığına olan həssas münasibətdən, kitabda bir çox müəlliflərin şairin poetik özəllikləri barədə məqalələrinin toplanmasından məmnunluğunu bildirdi. Ardınca Anar mərasim iştirakçılarına bir xoş xəbəri də çatdıraraq dedi ki, indicə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, Rəsul Rza Fondunun sədri, akademik Rafael Hüseynov zəng edərək, Şəmsəddin Kuzəçinin bu il üçün Beynəlxalq Rəsul Rza mükafatına təqdim olunacağını bildirib.

Şəmsəddin Kuzəçi diqqətə görə minnətdarlıq edərək, Rəsul Rzanın iraqlı qardaşlarımıza diqqətinin nəticəsi olan məqaləsi əsasında hazırladığı kitabın üzərində apardığı yaradıcılıq işindən bəhs etdi. O, həmçinin qədirbilənliklə xatırladı ki, Rəsul Rzanın 80-ci ildə qələmə aldığı "Yaralı Kərkükün bugünkü xoryat və maniləri" silsilə şeirlərini də oradakı soydaşlarımız sevə-sevə oxuyurlar. Kitabın müəllifi qardaşlıq əlaqələrimizin, mədəni və ədəbi ünsiyyətlərimizin təməlini atanların daim böyük ehtiramla yad olunacağını və İraq böyük səmimiyyətlə qələmə aldığı səyahətnaməsi heç zaman öz təravətini, aktuallığını itirməyən ustad Rəsul Rzanın daim bu sırada başda olacağını söylədi.

Təqdimat mərasimində çıxış edən digər natiqlər də kitabın məziyyətlərinə işıq saldılar və bu kimi layihələrin davamlı olacağına inamlarını ifadə etdilər.

*Əli NƏCƏFXANLI*
*XQ*

---

# "Ədibin Evi" yazarları qələmlərini sınamağa dəvət edir

**"Ədibin Evi" noyabrın 1-dən etibarən Mir Cəlal adına IV Hekayə Müsabiqəsini elan edir.**

2024-cü il martın 1-dək davam edəcək müsabiqə həm peşəkar, həm də həvəskar yazarlara açıqdır.

2017-ci ildə təsis edilən Mir Cəlal adına Hekayə Müsabiqəsinə bu günə qədər 1100-dən çox hekayə təqdim olunub. Ədəbiyyatda qısa hekayəçilik janrına son zamanlar artan marağı nəzərə alaraq, iki ildən bir keçirilən müsabiqə bu ildən başlayaraq illik keçiriləcək.

Mir Cəlal adına IV Hekayə Müsabiqəsinin şərtləri dəyişməz qalır. Müsabiqəyə təqdim edilən hekayələr Azərbaycan dilində yazılmalı, həcmi 1500 sözdən çox olmamalı, yeni olmalı – əvvəllər çap və ya elektron şəkildə yayılmamalı, müəlliflərin adı, soyadı, əlaqə məlumatı ilə birgə 2024-cü il martın 1-dək elektron şəkildə edibinevi@gmail.com ünvanına göndərilməlidir.

Hekayə mövzusu sərbəstdir. Müsabiqəyə 2024-cü il aprelin sonunda yekun vurulacaq. Mükafat fondu I yer üçün 3000 manat, II yer üçün (2 nəfər) 2000 manat, III yer üçün 1000 manat nəzərdə tutulub.

Qeyd edək ki, görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlalın 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılmış "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondu Azərbaycan ədəbi irsinin tədqiq və təbliği ilə məşğul olur.

*XQ*

---

# I Musiqi forumu başa çatdı

**Musiqi forumunun sonuncu günündə "Azərbaycan musiqişünaslığı: araşdırmalar kəsişməsində" mövzusunda panel iclas keçirildi. Musiqişünas, Beynəlxalq Musiqi Şurası Azərbaycan şöbəsinin sədri Nigar Axundovanın moderatorluğu ilə gerçəkləşən paneldə "Azərbaycan musiqi elminin inkişaf istiqamətləri: strategiya və taktika", "Mədəniyyətlərarası dialoq kontekstində Azərbaycan musiqişünaslığının rolu", "Azərbaycanda musiqi tənqidi və jurnalistikası: mövcud problemlər" və "Müasir dövrdə musiqi sosiologiyası mövzuları üzrə çıxışlar dinlənildi.**




***Musiqişünas-pedaqoq, şərqşünaslıq üzrə fəlsəfə doktoru Lalə Hüseynova Azərbaycan müstəqilliyinə nail olandan sonra musiqişünasların kifayət qədər elmi işlər ərsəyə gətirdiyini, lakin bu sahədə aktual məsələlərə yer verilmədiyini dedi:***

– Son illər dissertasiyaların sayında artım müşahidə edilsə də, onların çox az qismi biz musiqiçiləri qane edir. Çünki araşdırmalar zamanı bu sahədə bir sıra problemlərə toxunulmur. Maliyyə vəsaiti az olduğuna görə bu işlərin dərindən araşdırılması prosesi o qədər də sürətlə getmir.

***Azərbaycan musiqisinin ölkədən kənarda tədqiq edilib öyrənilməsi məsələsinə toxunan L. Hüseynova musiqiçilərimizin musiqi irsimizin digər ölkələrdə təbliği ilə bağlı məsələləri araşdırmaqda çətinlik çəkdiklərini söylədi:***

– Muğam, aşıq sənəti və digər musiqi janrları Şərq musiqi mədəniyyətinin ayrılmaz hissəsidir. Buna görə də musiqi sənətini öyrənən şərqşünasların yetişdirilməsinə çox böyük ehtiyac var. Bu mövzuları araşdırmaq üçün kifayət qədər şərqşünaslarımız olsa da onların yaşı 60-70-dən yuxarıdır. Beynəlxalq səviyyədə musiqimizin təmsil olunması üçün gənclərin sayı kifayət qədər azdır. Onların arasında Şərq - ərəb və fars dillərini bilən musiqişünaslarımız demək olar ki, yoxdur. İlk növbədə bunun üçün ölkədə Şərq konservatoriyası təşkil olunmalıdır. Bunun üçün Şərq dillərini bilən mütəxəssislərə ehtiyacımız var".

**Musiqi tənqidçisi, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə musiqi mədəniyyətinin təbliği məsələsinə toxundu.** Elmi nəşrlərin mövcudluğunu müsbət qiymətləndirən alim daha geniş auditoriyaya hesablanmış elmi-kütləvi nəşrlərin də olmasının zəruriliyini qeyd etdi. Gənc musiqişünasların əməyinin qiymətləndirilməsi məsələsinə də toxunan Z.Dadaşzadə bu sahədə araşdırma aparmaq istəyənlərin elmi əsər yazmağa həvəssiz olduqlarını, söz və bilik ehtiyatlarının kasadlığını diqqətə çatdırdı.

Forumun ikinci hissəsi "Xoreoqrafiya sənəti: milli rəqs, balet, müasir rəqs formaları" mövzusunda panel iclasla davam etdi. "Milli rəqs ənənələrinin qorunması və təhrif olunma təhlükələrinə müqavimət", "Rəqs təbliğatı infrastrukturunun təkmilləşdirilməsi", "Azərbaycanda müasir rəqs sistemlərinin tətbiq olunması: imkanlar və problemlər", "Rəqqas peşəsinə yönləndirmə - təhsil, karyera imkanları, sosial təminat mexanizmləri", "Uşaq rəqs studiyaları, rəqs təlimi" mövzuları üzrə çıxışlar dinlənildi.

***Xalq artisti, baletmeyster Mədinə Əliyeva "ümumiyyətlə" operanın Azərbaycan mədəniyyəti üçün ən böyük tədqiqat mövzusu olduğunu və bu sənətin gələcək nəsillərə ötürülməsi üçün əhəmiyyətli olduğunu dedi:***

– Yaxşı olardı ki, Opera və Balet Teatrı və Akademik Musiqili Dram Teatrının tərkibində azyaşlı uşaqlar üçün balet truppaları yaradılsın və musiqili tamaşalar təşkil edilsin".

Çıxışlardan sonra iştirakçıların sualları cavablandırıldı, qaldırılan məsələlər ətrafında müzakirələr aparıldı.

**Bakı Xoreoqrafiya Akademiyasının müəllimi, pianoçu Sevda Axundova XQ-yə forumla bağlı təəssüratlarını danışdı:**

– Azərbaycanın bütün məşhur musiqiçiləri, sənətçləri bu foruma cəlb olunublar. Burada artıq 3 gündür ki, musiqiyə aid bütün problemlərin müzakirəsi aparıldı və həlli yolları araşdırıldı. Düşünürəm ki, bu forum gələcəkdə də musiqiçilərin inkişafına çox böyük dəstək olacaq.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə oktyabrın 29-da "Gülüstan" Sarayında işə başlayan Musiqi Forumu dünən başa çatdı.

*Fidan HÜQUQQIZI*
*XQ*

---

# Sözə bağlı ömrün media salnaməsi

**Dünən nüfuzlu media xadimi, Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərov 83 illik ömrünün 70 ilə yaxın bir dövrünü əhatə edən "Əzəldən sözə bağlıyam" adlı sənədli-xronikal, bədii-publisistik beşcildliyinin yenicə işıq üzü görmüş ilk 2 kitabını "Xalq qəzeti"nin kollektivinə təqdim etdi.**



Qocaman poliqrafçı və yazıçını salamalayan "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov redaksiyamızın çoxillik dostunun yaşının ahıl vaxtında da naşirlik fəaliyyətini davam etdirməklə yanaşı, fəal bədii-sənədli yaradıcılıqla da məşğul olmasını nadir bir nümunə kimi dəyərləndirdi. O bildirdi ki, Şəddat müəllim uzun illər ölkənin bir sıra iri poliqrafiya müəssisələrinə peşəkar rəhbərliyi ilə milli mediamızın və kitab mədəniyyətinin inkişafına samballı töhfələr verib. Baş redaktor orijinal media salnaməsinin müəllifini yaradıcılıq uğuru münasibətilə səmimi təbrik etdi, ona möhkəm cansağlığı, yeni uğurlar arzuladı.

Qəzetimizin keçmiş əməkdaşı, veteran jurnalist Hacı Mehman Fərzullayev qeyd etdi ki, müstəqilliyin ilk illərində qəzet-jurnalların çətinliklə işıq üzü gördüyü bir vaxtda Şəddat Cəfərov keçmiş ittifaqın poliqrafiya və kağız sənayesi sistemindəki nüfuzundan istifadə edərək mətbəələrin tələbatının ödənilməsinə çalışıb. O dövri nəşrlərin, eləcə də qəzetimizin texniki təchizatına və davamlı olaraq işıq üzü görməsinə öz təsirli köməyini göstərib. Digər əməkdaşlar da Şəddat Cəfərovun yüksək ziyalı və peşəkarlıq keyfiyyətlərini vurğuladılar, onun bədii-sənədli yaradıcılığının davamı olan yeni çoxcildliyin çağdaş media tariximiz üçün önəmli bir qaynağa çevriləcəyini söylədilər.

Qəzet-kitab nəşrini həyatının mənası bilən ustad poliqrafçı Şəddat Cəfərov həmişə sözə yüksək dəyər verdiyini, özü də fəal yaradıcılıqla məşğul olduğunu söylədi. Qonaq bildirdi ki, çoxillik müşahidələri və sistemli qeydlərinə əsaslanaraq, mediamızın 7 onillik tarixinin bir çox önəmli fakt və hadisələri barədə son illər qələmə aldığı yazılar artıq 5 cildə çatıb. Yazıçı-alim bu sənədli materialların indiki və gələcək nəsil üçün gərəkli olduğunu nəzərə alıb onları kitab şəklində nəşr etməyi qərara alıb. O, ilk 2 kitabı ən sevimli qəzetinin redaksiyasına – "Xalq qəzeti"nin kollektivinə təqdim etməkdə məqsədini belə açıqladı: "Həyatımın çox qiymətli bir məhsulunu – iştirakçısı və şahidi olduğum çoxillik jurnalistika təəssüratımın toplusununu "Xalq qəzeti"nə hədiyyə etmək elə xalqa ərməğan etmək anlamı daşıyır".

Sonra Şəddat Cəfərov yeni kitabının nüsxələrini redaksiya əməkdaşlarına hədiyyə etdi.

*Tahir AYDINOĞLU*
*XQ*

---

# "Anam kəlağaylı bir muğamıydı..."

**Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyi oktyabr ayında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrant müsabiqəsində qalib olan "Kəlağayı, əlvan qıyğacı" layihəsi üzrə silsilə tədbirlər keçirib. Qazax, İsmayıllı və Şəkidə, eləcə də Bakıda Xəzər Universitetində kəlağayı məclisləri yaddaqalan olub.**



Xatırladaq ki, Azərbaycan kəlağayısı 2014-cü ildə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyi ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

**İctimai birliyin sədri, "Kəlağayı Muzeyi"nin direktoru, şair Güllü Eldar Tomarlı layihə barədə XQ-yə məlumat verdi.**

– Ənənəvi qadın baş örtüyü kəlağayı Azərbaycanın milli dəyəri olsa da, onun dünyada tannması və qəbul olunması zəruri idi. Bu yöndə səylərin yüksək səviyyədə dəstəklənməsi fərəh doğurur. Elə ictimai birliyin fəalları da bu qayğıdan ruhlanaraq, Azərbaycan xanımlarının baş tacı, ismət örtüyü, yaraşığı, gözəlliyinə gözəllik qatan kəlağayını ölkəmizin ayrı-ayrı bölgələrində geniş təbliğ etməyə çalışırlar. İndiyədək rayonlarda çoxsaylı ədəbi-bədii gecələr keçirilib və ayrıca "Kəlağayı, əlvan qıyğacı" kitabı nəşr olunub. Həmin kitabda 73 müəllifin kəlağayıya həsr olunmuş şeiri toplanıb.

Güllü xanım özü ilk dəfə kəlağayını Qazaxda, Cahan nənəsində və onun rəfiqələrində, kəndin ağbirçəklərində, qız-gəlinlərində gördüyünü bildirdi. "Nənəm sandığında saxladığı iki kəlağayıdan birini – soğanı kəlağayısını mənə əmanət verərək, urvat kimi saxlamağı məsləhət biləndə məktəbli idim. O gün–bu gün kəlağayıya könül vermişəm. Evimdə muzey yaratmışam, keçirilən tədbirlərdən zövq almışam. Oktyabr ayında təşkil olunan ədəbi-bədii gecələri növbəti uğurlarımız saya bilərik" – deyə o əlavə etdi.

Öyrəndik ki, noyabr ayında Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycanda "Sazlı-sözlü kəlağayı günləri" keçiriləcək. Tədbirlər Naxçıvanda start götürüb, Qazax, Tovuz, Gəncə, Naftalan, Sumqayıt, Şamaxı, İsmayıllı, Şəki və Bakını əhatə edəcək. Sonda Beynəlxalq Muğam Mərkəzində ''Anam kəlağaylı bir muğamıydı'' adlı final konserti veriləcək və eyni adlı kitabın təqdimatı olacaq.

Onu da qeyd edək ki, hər il olduğu kimi, bu il də noyabrin 26-da "Azərbaycan kəlağayısı Günü" münasibətilə Beynəlxalq Muğam Mərkəzində kəlağayı sərgisi keçiriləcək, ardınca isə geniş konsert proqramı təqdim ediləcək. Konsertdə tanınmış aşıq, şair, qiraətçi və müğənnilərin, həmçinin Mədəniyyət və İncəsənət Universitetinin "Şuşam" xor qrupunun maraqlı çıxışları olacaq.

*Əli NƏCƏFXANLI*
*XQ*

---

# Xarici jurnalda Azərbaycan həqiqətləri

**Odessada çıxan "Mədəniyyət liqası" ("Liqa kulturı") Ukrayna-İsrail birgə jurnalının 23-cü sayı işıq üzü görüb. Jurnalda bir sıra tanınmış mədəniyyət xadimlərinin, kulturoloqlarla bərabər, azərbaycanlı müəlliflərin də məqalələri dərc olunub.**




Jurnalın "Mənəvi təkamül" rubrikasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədovun "Azərbaycan ruhi mədəniyyətinin inkişaf konsepsiyası", "Elm" bölməsində "Mədəniyyət elminin mahiyyəti və islahat imkanları" məqalələri yer alıb. Birinci məqaləsində o, ümummilli lider Heydər Əliyev və milli mədəniyyətin inkişaf aspektləri, Azərbaycan xalqının mədəni dəyərləri, Mədəniyyət Nazirliyinin yeni missiyası kimi məsələlərə toxunur.

Kulturoloq 2-ci məqaləsində ölkəmizdə mədəniyyətin inkişafının prioritet olduğunu əsaslandırır, intellektual mədəniyyətdə tərəqqi meyllərinin dövlət və cəmiyyət həyatında rolunu dəyərləndirir. Müəllif 100 illik yubileyi qeyd olunan ulu öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlətçilik mədəniyyətinin yaradıcısı kimi xidmətlərindən ətraflı bəhs edir.

"İnkişaf və Dünya" İctimai Birliyinin yaradıcısı, Ukraynanın Vladimir Vinniçenko adına Beynəlxalq mükafatı laureatı, multikulturalist Namazəli Mustafayevin "Titanların vətəndaş və elmi hünəri" adlı məqaləsi də jurnalın "Elm" bölməsində çap olunub.

Reyhan Əliyevanın "Əgər zamanı not işarələri ilə yazmaq olsaydı" adlı məqaləsi isə jurnalın "İncəsənət" bölməsində verilib.

Qeyd edək ki, "Mədəniyyət liqası" jurnalı ildə 2 dəfə və böyük tirajla çıxaraq bir sıra ölkələrdə yayınlanır.

*XQ*

Beynəlxalq həyat

# Pekin və Moskva çoxqütblü dünyaya üstünlük verir

**Pekində 10-cu Syanşan Təhlükəsizlik Forumu keçirilib. Dünyanın 90-dan çox ölkəsinin nümayəndə heyətləri, hərbi idarə rəisləri və baş qərargah rəisləri hər keçən gün daha da ağırlaşan qlobal və regional təhlükəsizlik problemlərini müzakirə ediblər. Forumda çıxış edən Sergey Şoyqu planetdə sülhə əsas çağırışı "kollektiv Qərbin tətbiq etdiyi qarşıdurma gündəmi" adlandırıb. Pekindəki müzakirənin bir çox iştirakçıları yeni "soyuq müharibə" kontekstində qüvvələr balansını və strateji sabitliyi bərpa edə biləcək yeni məhdudlaşdırma strategiyasının hazırlanmasının zəruriliyini vurğulayıblar.**



Ötən bazar günü Pekində açılan Syanşan Forumu Hind-Sakit Okean regionunun təhlükəsizlik məsələləri üzrə aparıcı forumlarından biri hesab olunur. Pekin tədbiri onuncu dəfədir keçirilir. Forumun təşkilatçıları Çin Xalq Azadlıq Ordusunun Hərbi Elmlər Akademiyası və Çin Beynəlxalq Strateji Araşdırmalar İnstitutu hazırda xidmət edən 90-dan çox hərbçi və istefada olan hərbi rəhbərləri, diplomatları və ekspertləri Pekində bir araya gətirib. İştirakçılar siyahısına təkcə Çinin ŞƏT və BRİKS-dəki tərəfdaş ölkələri, Asiya və Yaxın Şərqin dost dövlətləri deyil, həmçinin ABŞ, Böyük Britaniya və onların Hind-Sakit okean regionundakı müttəfiqlərinin nümayəndələri də daxildir. Beləliklə, Çin prezidenti Si Cinpin və ABŞ prezidenti Co Baydenin San-Fransiskoda Asiya-Sakit Okean İqtisadi əməkdaşlıq Forumunun sammiti çərçivəsində iki həftə sonra gözlənilən görüşü ərəfəsində Pekin təhlükəsizlik dialoquna ABŞ-ı təhlükəsizliklərinin qarantı hesab edən ölkələri də cəlb etməyə çalışıb.

Bununla yanaşı, forumun əsas mövzusu olan "Ümumi Təhlükəsizlik, Davamlı Sülh" getdikcə şərti görünür, çünki təhlükəsizlik getdikcə daha az ümumiləşir, dünya isə getdikcə daha da qeyri-sabitləşir. Buna görə də, forumu planlaşdırarkən təşkilatçılar bunun dünyadakı vəziyyəti daha da tarazsızlaşdıracaq hadisələr fonunda baş verəcəyini nəzərə almamışdılar. Yaxın Şərqdə cərəyan edən hadisələr, ABŞ-Rusiya strateji sabitlik dialoqunun pozulması və digər mühüm hadisələrin baş verməsi müzakirələrə də təsir göstərdi. Bunu Çin Xalq Respublikasının Mərkəzi Hərbi Şurasının (CMC) sədr müavini Çjan Yuxianın forum iştirakçılarına müraciətində də müşahifə etmək mümkündür: "Bəzi ölkələr bilərəkdən xaos və qeyri-sabitlik yaradır, regional və digər ölkələrin daxili işlərinə qarışır, "rəngli inqilablar" törədirlər. Biz fərqlilikləri süni şəkildə gücləndirməyə və qarşıdurmanı qızışdırmağa qarşı daha ayıq olmalı, həmçinin strateji səhvlərdən qaçmalıyıq. Əsas prioritet regional münaqişələrin nəzarətdən çıxmasının qarşısını almaqdır". Yüksək rütbəli hərbi zabit bir-birinə qarışan təhdid və çağırışları sadalamağa davam edərək vurğulayıb ki, enerji və ərzaq böhranları hər gün pisləşir, qlobal istehsal və təchizat zəncirlərinin sabitliyi hücuma məruz qalır, terrorizm, kiberhücumlar və transmilli cinayətlər bir-birinin ardınca ortaya çıxır.

Çin Xalq Respublikasının Mərkəzi Hərbi Komissiyasının sədr müavini Pekinin hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək niyyətində olduğu ölkələr siyahısında Rusiyanın adını birinci olaraq çəkməsi diqqətdən yayınmayıb. Xüsusilə də cənab Yuxianın Rusiya müdafiə naziri Sergey Şoyqu ilə ünsiyyəti forumun mərkəzi hadisəsi kimi qiymətləndirilir. Belə ki, Sergey Şoyqunun Pekinə gəlişindən sonra fəxri qarovul dəstəsinin və orkestrin iştirakı ilə Rusiya nümayəndə heyətinin rəsmi qarşılanma mərasimi olub. Cənab Yuxia "Biz artıq Çin və Rusiya ərazilərində keçirilən əsas və mühüm çoxtərəfli tədbirlərdə qarşılıqlı iştirakın yaxşı ənənəsini formalaşdırmışıq. Yoldaş nazir, siz Çin xalqının və Çin silahlı qüvvələrinin böyük dostusunuz" deməklə iki ölkə arasında hərbi əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasına işarə vurub.

Rusiya müdafiə naziri Sergey Şoyqu isə öz növbəsində çinli həmkarının qlobal və regional təhlükəsizliyin məyusedici vəziyyətinin əsas səbəbləri haqqında tezislərilə razı olduğunu vurğulayıb: "Avropada kəskin böhrana səbəb olan Qərb münaqişə potensialını Asiya-Sakit okean regionuna və bir neçə istiqamətdə yaymağa çalışır. Son zamanlar NATO-nun hərbi potensialını Asiya-Sakit okean regionunda yerləşdirmək üçün aktiv cəhdlər olub". Onun sözlərinə görə, "nüvə arsenalına malik dövlətlər arasında qarşıdurmada birbaşa iştirak strateji riskləri artırır". Asiya-Sakit Okean regionunda siyasi vəziyyəti təsvir edən cənab Şoyqu bölgədə Amerika mərkəzli blokların qarşısının alınması şəbəkəsinin NATO-nun avanqardı kimi çıxış etdiyi qənaətində olduğunu bildirib. Bu bloklar arasında o, QUAD kvartetini (Hindistan, ABŞ, Avstraliya və Yaponiya), AUKUS (Böyük Britaniya, ABŞ və Avstraliya) və Asiya-Sakit okean dördlüyünü (Yaponiya, Avstraliya, Yeni Zelandiya, Cənubi Koreya) sadalayıb.

Bununla belə, Çin nümayəndələri Qərblə əməkdaşlığa hazır olduqlarını açıqlayıblar. Cənab Yuxia sözlərinə görə, "cəngəllik qanunu ilə" hərəkət edən ölkələrin tənqidinə baxmayaraq, o, Çin ordusu ABŞ silahlı qüvvələri ilə münasibətləri qarşılıqlı hörmət, dinclik əsasında inkişaf etdirməyi planlaşdırdığını bildirib. Onun sözlərinə görə, Pekin, həmçinin "Avropa ölkələri ilə hərbi mübadilələri genişləndirməyə hazırdır". Vaşinqton səfərindən qayıdan Çinin xarici işlər naziri Vanq Yi də bildirib ki, "geosiyasi münaqişələr və dünya nizamının pozulması fonunda Çin və ABŞ əməkdaşlığı gücləndirməli və qlobal çağırışlara birgə cavab verməlidir".

Mütəxəssislərin fikrincə, ABŞ hərbi heyətinin 2019-cu ildən bəri ilk dəfə Çinə gəlməsi iki tərəfin Tayvan ətrafındakı vəziyyət və Cənubi Çin dənizindəki mübahisəli adalar da daxil olmaqla hərbi danışıqları bərpa etmək istəyindən xəbər verir. Məlumat mübadiləsinin bərpası Çin və ABŞ arasında real toqquşmaların qarşısını almaq üçün çox vacibdir. Əgər tərəflər Tayvan ətrafında gərginliyi azaltmağa nail olsalar, bu, ABŞ-Çin münasibətlərinə müsbət təsir göstərəcək. Hadisələrin belə gedişatı da dünya üçün yaxşı perspektiv vəd edir.

***S.ELAY***
***XQ***

# Yaxın Şərq: Silahlar ölüm saçır…

**Başıbəlalı yaşayış bölgəsidir Qəzza. Son onilliklər ərzində burada etnik, dini zəmində fələstinlilərlə israillilər arasında dəfələrlə ağır silahlı toqquşmalar olub. Hər dəfə də ölüm-itim və dağıntılar olub. Amma budəfəki qarşıdurma əsl qiyaməti xatırladır.**

Oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrail ərazisinə qəfil hücumu, bu zaman terrorçuların törətdiyi vəhşiliklər bütün dünyanı şoka salmışdır. Həqiqətən, terror bütün hallarda qəddar və amansızdır. O dəhşətli anlardan artıq 24 gün ötür.

İndi acı təəssüf doğuran hal həm də odur ki, HƏMAS-ın kökünü kəsərək məhv edəcəyini bəyan edən İsrail dövlətinin Qəzzada yaşayan əhaliyə qarşı gördüyü cəza tədbirləri hədsiz kəskinliyi ilə seçilir. Yəni, 1967-ci ildən başlayaraq bu ərazidə faktiki olaraq mühasirədə olan fələstinli ailələr – uşaq, qadın və ahıllar öz həyatları hesabına terrorçuların bədəllərini ödəməli olurlar. Bu, əlbəttə, insanlığa üzqaralığıdır!

Fakt və reallıq budur ki, məhz oktyabrın 7-dən başlayaraq və bir gün belə ara verilmədən ərazidə məskunlaşan 2,2 milyona yaxın fələstinli ərəb İsrail aviasiyasının ağır zərbələrinə məruz qalır. Bu zaman çox sayda dağıntılar baş verir. Elə yerlər var ki, sadəcə xarabalıqlara çevrilib.

Əraziyə atılan raket zərbələrindən hər gün onlarca dinc sakin həlak olur. "Sivil və demokratik" dünya bütün bunları görür, lakin sadəcə müşahidə edir, bəzi hallarda guya "etiraz edir", əməldə isə tərəflər arasında atəşkəsin əldə olunması və fəlakətin qarşısının alınması üçün heç bir iş görmür.

Təkcə dünən İsrail aviasiyası Qəzzadakı 300 obyekti vurub. İsrail Müdafiə Ordusunun rəsmisi HƏMAS-ın Beyt Lahia batalyonunun komandiri Nəsim Əbu Ajinanın öldürüldüyünü açıqlayıb.

Qeyd edək ki, Ajina oktyabrın 7-də İsrail vətəndaşlarına qarşı qətliam törətməkdə təqsirləndirilir. O, keçmişdə HƏMAS-ın "Aerial Array" qruplaşmasına komandanlıq edib, təşkilatın terror aktlarının hazırlanmasında iştirak edib.

Bundan başqa, İsrailin Baş Təhlükəsizlik Xidməti polislə birlikdə İŞİD terror təşkilatı ilə əlaqədə şübhəli bilinən 3 israillinin saxlanılması üçün əməliyyat keçirib.

Amma adıçəkilən terrorçu ilə bərabər yüzlərlə insan ölüb. Bu faktı sadəcə dilə gətirəndə adamı vahimə basır. Görün, orada yaşayan ailələr hazırda hansı ağrı-acıları çəkir?!

İsrail hökuməti Aralıq dənizinin sahilində yerləşən, uzunluğu təxminən 41 kilometr olan Qəzzanın şimal hissəsindən əhalini qovmağa cəhd edir və buna artıq müvəffəq olur.

İsrail Müdafiə Ordusunun sözçüsü Conatan Konrikus döyüşlər gedən əsas ərazidən, Qəzzanın şimalından 800 mindən çox fələstinlinin təxliyə edildiyini bildirib. Köçkünlər əhalinin onsuz da çox sıx məskunlaşdığı Qəzza şəhərinə və onun ətrafındakı yaşayış məntəqələrindəki ailələrə sığınıblar.



Qeyd edək ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin 2020-ci ilin iyul ayına olan hesablamalarına görə, Qəzza zolağında cəmi 360 kvadratkilometrlik ərazidə 1 milyon 918 min 221 nəfər yaşayır. Bu insanların az qala yarısı öz yurdunda məcburi köçkünə çevrilib.

İsrail Ordusu hazırda təkcə Qəzzada hərbi əməliyyatlar aparmır, qatı düşməni, Livanda yerləşən "Hizbullah"a da ara-sıra aviazərbələr endirir. "Blomberg" nəşri yazır ki, son 3 həftə ərzində İsraillə sərhəddə baş verən toqquşmalarda onlarla "Hizbullah" döyüşçüsü öldürülüb. Livan itkilərin qarşısının alınması üçün uzunmüddətli müharibəyə hazırlıq görür.

Xatırladaq ki, oktyabrın 7-də HƏMAS-la İsraillə arasında müharibə başlayandan bəri Livan 47 döyüşçü itirib. u rəqəm 2006-cı ildə "Hizbullah" və İsrail arasında genişmiqyaslı müharibədə həlak olanların təxminən beşdə biri qədərdir. Siyasi təhlilçilər bu faktdan çıxış edərək İsrail-Hizbullah savaşının tezliklə başlaya biləcəyini istisna etmirlər.

Bundan başqa, nəşr İsrailin Baş naziri Benyamin Netanyahunun fikirlərini xatırladıb. Hökumətin başçısı bir müddət əvvəl söyləmişdi ki, əgər Livanla müharibə başlasa, bu ölkə viran qalacaq. Eyni sərt ritorikanı "Hizbullah" başçılarının dilindən də eşitmək mümkündür.

"Blomberg"in təqdim etdiyi yazıda qeyd olunub ki, Hizbullah 2006-cı ildən bəri silah arsenalını genişləndirir: "Hizbullah"ın cəbbəxanasında hazırda İsrailin bütün hissələrini vura bilən pilotsuz təyyarələr və raketlər var". Dünən Livanın Baş naziri Nəcib Mikati Yaxın Şərqdəki müharibənin daha da genişlənə biləcəyi barədə xəbərdarlıq edib.

Yaxın Şərqdə eskalasiya baş verir. Münaqişəyə cəlb olunan tərəflərin heç biri geri çəkilmək istəmir. Görünür, bu vəziyyət böyük güclərin maraqlarına uyğundur. Böyük siyasətdə sadə, günahsız insanların taleyini düşünmək, sadəcə, dəbdə deyil.

***Məsaim ABDULLAYEV***
***XQ***

Şahmat aləmində

# "Uzaq sahillər"də zəka döyüşü

**Monteneqro Respublikasının Adriatik dənizi sahillərində yerləşən Budva kurort şəhəri noyabrın ikinci ongünlüyündə əsl şahmat Məkkəsinə çevrilib, qitəmizin qədim və müdrik oyun həvəskarlarının diqqət mərkəzində olacaq. Zəka sahiblərinin milli komandalar arasında növbəti Avropa çempionatı tədricən finişə yaxınlaşan 2023-cü ildə qrossmeysterlərin ən mötəbər yarışlarından biri kimi yadda qalacaq.**




Artıq məşhur chess-results.com saytında beşulduzlu "Splendid" hotelinin konfrans salonunda keçiriləcək turnirlər haqqında ətraflı məlumat verilmiş, həm kişilərin, həm də qadınların yarışlarında iştirak edəcək komandaların sayı, heyətləri, reytinq göstəriciləri diqqətə çatdırılmışdır. Həmin göstəricilərlə biz də yaxından tanış olaq.

Kişilərdən ibarət komandaların yarışında Avropa çempionatının medalları uğrunda 38 heyət mübarizə aparacaq. Reytinqə görə onların siyahısına 2700 əmsalla Azərbaycan millisi başçılıq edir. Birinci üçlüyə həmçinin Rumıniya (2681) və Almaniya (2677) daxildir. Türkiyə yığması (2591) siyahıda 15-cidir.

Burada öz tərəfimizdən razılıq hissi ilə əlavə edək ki, Azərbaycan komandası Avropa çempionatlarının 3 dəst qızıl medalının sahibidir. Qrossmeysterlərimiz 2009-cu ildə Novi Saddan (Serbiya), 2013-də Polşanın paytaxtı Varşavadan, daha dörd il sonra isə Yunanıstanın Krit adasından vətənə çempion kimi qayıtmışlar. Bundan əlavə, komanda bir dəfə gümüş, bir dəfə də bürünc mükafatçı olmuşdur.

Budvada millimiz öz tarixində dördüncü dəfə Azərbaycanı qızıl medalla sevindirmək əzmindədir. Bu məqsəd uğrunda komanda belə heyətlə mübarizə aparacaq: Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Nicat Abasov, Rauf Məmmədov və Vasif Durarbəyli. Yığmanın kapitanı Qədir Hüseynovdur.

Qadın komandalarının Avropa çempionatında 32 ölkə təmsil olunacaq. Azərbaycan millisi (2391) siyahıda Gürcüstandan (2463) sonra ikinci pillədədir. Üçüncü mövqedə Almaniyadır (2382). Türkiyə 2203 əmsalla 22-cidir. Qardaş ölkə komandası heyətində Azərbaycan şahmat məktəbinin yetirməsi Xəyalə İsgəndərova da vardır.

Qitə birinciliklərinin üççat bürünc mükafatçısı olan həmvətənlərimiz turnirdə Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Gülnar Məmmədova və Xanım Balacayevadan ibarət heyətlə çıxış edəcəklər. Komandanı çempionata Mixail Şereşevski və Yevgeni Tomaşevski hazırlayırlar.

Doqquz turdan ibarət yarışa noyabrın 11-də start veriləcək. Çempionatın qalib və mükafatçıları təbrikləri noyabrın 20-də qəbul edəcəklər.

Zəka sahiblərimizi Adriatik sahillərində özlərini Xəzər sahillərindəki kimi inamlı hiss edib, medallar uğrunda gərgin mübarizədə baş rollarda görmək arzusu ilə.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

bəzi təmir-tikinti mal-materiallarının alınması məqsədilə satınalma

## MÜSABİQƏSİ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 15 noyabr 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan– AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "İXTİSASLAŞDIRILMIŞ TİKİNTİ-32" ASC səhmdarlarının nəzərinə!

19 dekabr 2023-cü il saat 12.00-da Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 560-cı məhəllədə 2090 nömrəli ünvanda "İXTİSASLAŞDIRILMIŞ TİKİNTİ-32" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:
1. Cəmiyyətin aktivlərinin satılmasına aid xüsusi əhəmiyyətli əqdlərin bağlanılması.
2. Cəmiyyətin illik hesabatının təsdiq edilməsi.
3. Təşkilati məsələlər.

Əlaqə telefonu: (050) 252-22-28

***"İXTİSASLAŞDIRILMIŞ TİKİNTİ-32" ASC-nin direktoru***

## "Azərkabel" ASC səhmdarlarının nəzərinə!

11 dekabr 2023-cü il saat 11.00-da Mingəçevir şəhəri, Heydər Əliyev prospekti 65 nömrəli ünvanda "Azərkabel" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncaqda iştirak edən səhmdarlar qeydiyyatdan keçmək üçün şəxsiyyət vəsiqələri ilə (nümayəndələr səlahiyyətlərini təsdiq edən sənədlə) birlikdə iclas günü saat 9.00-dan 10.30-a qədər qeydiyyat masasına müraciət etməlidirlər.

Növbədənkənar ümumi yığıncağın gündəliyi:
1. "Azərkabel" ASC-nin öhdəliklərinin icrası və xüsusi əhəmiyyətli müqavilənin bağlanılması.
2. "Azərkabel" ASC-də təşkilati məsələlər.

Gündəlikdəki materiallarla cəmiyyətin binasında iclas günü tanış olmaq mümkündür.

***Müşahidə şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 239 (30355) 1 noyabr 2023-cü il, çərşənbə

İdman xəbərləri

## Qadın futbolçularımızdan daha bir qələbə

**UEFA Millətlər Liqasında qadın futbolçulardan ibarət Azərbaycan millisi daha bir qələbə qazanıb.**




C Liqasının III qrupunda yer alan komandamız "Dalğa Arena"da Monteneqroya 3:0 hesabı ilə qalib gəliblər. Matçda 58-ci dəqiqədə Manə Mollayeva, 62-ci dəqiqədə Nazlıcan Parlak, 84-cü dəqiqədə isə Ayşən Əhmədova fərqləniblər.

Qeyd edək ki, IV turdan sonra Azərbaycan millisi 10 xalla qrup lideridir. İkinci pillədə qərarlaşan Monteneqronun aktivində isə 6 xal var. Yığmamızın Millətlər Liqasında növbəti oyunu dekabrın 1-nə təsadüf edəcək. Milli səfərdə Kiprə qarşı oynayacaq.

## Dünya çempionatı: Komandamız 1/8 finalda

**Minifutbol üzrə Azərbaycan millisi dünya çempionatında növbəti oyununu keçirib.**



Birləşmiş Ərəb Əmirliklərinin Ras Əl-Xayma şəhərində təşkil olunan yarışda yığmamız yer aldığı G qrupunda son matçında Küveyt komandası ilə üz-üzə gəlib. Azərbaycan komandası rəqib üzərində 3:1 hesablı qələbə qazanaraq qrup lideri kimi növbəti mərhələyə adlayıb. Yığmamızın qollarını Cəfər Cəfərov, Mirmehdi Rzayev, Təmkin Xəlilzadə vurub. Bundan əvvəl millimiz İraq (2:0) Misir (4:1) yığmalarını məğlub edib.

Qeyd edək ki, H qrupunda ikinci yeri tutacaq komanda millimizin 1/8 finaldakı rəqibi olacaq. Həmin matç noyabrın 1-də təşkil ediləcək.

## "Çin döyüşü"ndə 37 medal

**Azərbaycanın kunq-fu millisi İtaliyanın Karrada şəhərində keçirilən dünya çempionatında uğurla çıxış edib.**



Gənclər və İdman Nazirliyi və Çin Döyüş Növləri Assosiasiyasının dəstəyi ilə yarışa yollanan yeniyetmələr, gənclər və böyüklərdən ibarət komandamız turnirdə ümumilikdə 37 medal qazanıb. Bu mükafatlardan 28-i qızıl, 6-sı gümüş, 3-ü isə bürünc medaldır.

*Leyla SABİRQIZI*
*XQ*

Texnologiya yenilikləri

## Səsin də "gözü" varmış...

**Avstraliyalı tədqiqatçılar insanların səsdən istifadə edərək "görməsinə" kömək edən "akustik toxunma" kimi tanınan qabaqcıl texnologiya hazırlayıblar. Texnologiya kor və ya zəif görən insanların həyatını dəyişdirmək potensialına malikdir.**



Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada təxminən 39 milyon insan kordur və əlavə olaraq 246 milyon insan zəif görmə ilə yaşayır ki, bu da onların gündəlik həyat fəaliyyətlərində iştirak etmək qabiliyyətinə təsir göstərir.

Beyin-kompüter interfeysi tədqiqatında qlobal lider olan professor Chin-Teng Lin deyib: "Ağıllı eynəklər adətən kompüter görmə qabiliyyətindən və digər sensor məlumatlardan istifadə edərək istifadəçinin ətrafını kompüterlə sintez edilmiş nitqə çevirirlər. Eyni zamanda, akustik toxunma texnologiyası obyektləri perspektivə salanda cihazın baxış sahəsinə daxil olduqda unikal səs təsvirləri yaradır. Məsələn, yarpaqların xışıltısının səsi bir bitki olaraq həmin şəxsə bildiriləcək".

Alimlər aşkar ediblər ki, akustik toxunma texnologiyası ilə təchiz olunmuş geyilə bilən cihaz kor və ya zəif görən şəxslərin aşırı zehni səy göstərmədən obyektləri tanımaq və onlara çatmaq qabiliyyətini əhəmiyyətli dərəcədə artırıb.

Bu gündəlik problemləri həll etməklə, akustik toxunma texnologiyası kor və ya zəif görmə qabiliyyətinə malik şəxslər üçün yeni qapılar açır, onların müstəqilliyini və həyat keyfiyyətini artırır.

Davam edən irəliləyişlərlə, akustik toxunma texnologiyası yardımçı texnologiyaların ayrılmaz hissəsinə çevrilə, fərdlərə ətraf mühitə əvvəlkindən daha səmərəli və effektiv şəkildə daxil olmağa kömək edə bilər.

*Ayan NƏCƏF,*
*tələbə-jurnalist*

Futbol aləmində

## Topuqların "əqrəb zərbəsi"



**Dünya futbol tarixində elə hadisələr var ki, onlar illər keçsə də, unudulmur. Kolumbiya millisinin qolkiperi, "El Loko" ləqəbi ilə tanınan, futbol tarixinin ən güclü qapıçılarından sayılan Xose Rene İquita Zapata 1995-ci ildə "Uembli"də İngiltərə ilə yoldaşlıq görüşündə özünü irəli ataraq əlləri ilə rahatlıqla tuta biləcəyi topu akrobatik bir hərəkətlə qapıdan uzaqlaşdırıb.**

Onun bu "seyvi" topuqlarla dəf edilən zərbə kimi yaddaşlara həkk olunub. Qapıçının seyv zamanı bədəninin aldığı formaya görə bu hərəkəti futbol dünyasında "əqrəb zərbəsi" adlandırırlar.

Həmin hərəkəti 15 sonra, yəni 2010-cu ildə "Marakeş" komandasının qapıçısı Hamza Budlal təkrarlayıb.

*Elçin ABBASOV*
*XQ*

Maraq dünyamız

## Arqoland qitəsi necə batıb?

***Hollandiyalı mütəxəssislər, təxminən, 155 milyon il əvvəl okean suları altında qalan Arqoland qitəsinin izlərini aşkar ediblər. 7 il ərzində komanda Yura dövrünün sonunda Avstraliyadan qopan Arqolandın qalıqlarının harada yerləşə biləcəyini araşdırıb.***



Onun mövcudluğunun sübutu Hind okeanında Arqo Abyssal düzənliyi kimi tanınan hövzəni əhatə edir. Batmış qitənin eninin, təxminən, beş min kilometrə çatdığı güman edilir.

Alimlər qitənin min illər boyu Cənub-Şərqi Asiyaya doğru sürükləndiyi qənaətinə gəliblər. Bundan sonra qitə (Trias dövrünün sonunda) arxipelaqlara bölünüb və nəhayət su altında yox olub. Hazırda onun qayalı fraqmentləri Hind okeanının dibində yerləşir, həmçinin İndoneziya və Myanma bölgəsindəki kiçik adalara inteqrasiya olunub.

Məlumatlara əsasən, geoloqlar Arqolandın mərhələli şəkildə məhv edilməsinin xəritəsini yarada biliblər. Sonra bu xəritəni videoda simulyasiya ediblər.

*XQ*

Poeziya

## İstanbulda şeir məclisi

**Türkiyədə X Uluslararası İstanbul Şeir Festivalı keçirilib. Qardaş ölkədə keçirilən bu poeziya bayramında ölkəmizi tanınmış şair, Dünya Gənc Türk Yazarlar Birliyinin Məsləhət Şurasının üzvü Rəsmiyyə Sabir təmsil edib. Tədbir Türkiyənin İstanbul şəhərində Sultanbəyli Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilib.**




Festivalın açılış tədbirində Sultanbəyli bələdiyyəsinin sədri Hüseyn Keskin iştirakçıları salamlayaraq festivalın əhəmiyyətindən danışıb. O, mədəniyyət sahəsində görülən fəaliyyətlər haqqında tədbir iştirakçılarına məlumat verib.

Festival çərçivəsində müxtəlif liseylərdə məktəblilərlə şairlərin görüşləri təşkil olunub. Onlar şagirdlər üçün öz şeirlərini oxuyub və şagirdlərin ədəbiyyatla bağlı suallarını cavablandırıblar. Rəsmiyyə Sabir də məktəblilərə Azərbaycan şairləri, müxtəlif ədəbi birliklər, ölkəmizdə nəşr olunan ədəbi dərgilər haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, bu il festivalda Azərbaycan, Türkiyə, Tunis, İran, Suriya, Fələstin, Seneqal, Mavritaniya, İordaniya, Bosniya və Hersoqovina və başqa ölkələrdən şairlər iştirak ediblər.

*XQ*

"Sənət inciləri"

## "Göyçay bağlarında"

**Görkəmli rəssam Toğrul Nərimanbəyovun 1965-ci ildə kətan üzərinə yağlı boya ilə çəkdiyi "Göyçay bağlarında" tablosunda xalça üzərinə sallanmış nar ağacının meyvəli budaqları təsvir olunub. Özünəməxsusluğu ilə seçilən əsər rəssamın yaradıcılığında xüsusi yer tutur.**



Xalq rəssamı narın vurğunu olduğunu əsərlərində dəfələrlə bu meyvəyə müraciət etməklə bizə çatdırıb. Əbəs yerə deyil ki, rəssam bəzi tablolarında soyadını "Narimanbəyov" kimi qeyd edib.

Natürmort janrında çəkilmiş bu əsər rəngarəngliyi ilə göz oxşayır. Tabloda qırmızı nar və yerə sərilmiş xalça isə diqqətdən qaçmır. Məharətlə hazırlanmış əsərin düzgün rəng seçimi əsərə yüksək canlılıq verir. Elə ona görədir ki, biz əsəri seyr edən zaman özümüzü o yaşıllıqda, nar ağacının yanında təsvir edə bilirik.

Tünd yaşıl, qırmızı, sarı rənglərin ahəngi isə əsərdə diqqəti daha da cəlb edir. Bir sözlə, deyə bilərik ki, sənət nümunəsində həm isti, həm də soyuq rənglərin ahəngini görmək mümkündür. Rənglərin bir-birini tamamlaması əsərdə xoş, səmimi əhval yaradıb.

Bu ahəngə yarpaqların zümrüd yaşıllığı, zərif naxışlarla bəzənmiş xalça, o cümlədən, mis qablar da qoşulur. Doğma Azərbaycanımızın gözəlliyini, füsunkarlığını özündə əks etdirən tablo hazırda Azərbaycan Mədəniyyət Nazirliyində saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Ödənişli yolda sürət həddi?

**Bu yaxınlarda istifadəyə verilən Bakı-Quba-Rusiya ilə dövlət sərhədi avtomobil yolu ilə bağlı sürücüləri düşündürən bir məqam da yolda sürət həddidir.**




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat katibi Anar Nəcəfli bildirib ki, mövcud qanunvericiliyə görə, Azərbaycanda magistral yollarda maksimal sürət saatda 110 kilometr təyin olunub. Yeni istifadəyə verilmiş Bakı-Quba ödənişli avtomobil yolunda da eyni sürət həddi nəzərdə tutulub. Sadəcə olaraq yol yeni istifadəyə verildiyi üçün radar yoxdur. Lakin ehtiyac yarandığı zaman aidiyyəti qurumlar tərəfindən müvafiq ərazilərdə (hansı tərəfdə məsləhətdirsə) quraşdırıla bilər.

A.Nəcəfli sonra bildirib ki, yoldan istifadə edən şəxslərin qovşaqlara qalxmaq, daxil olmaq üçün sürət limiti saatda 90 kilometr olaraq tənzimlənib. İddianı irəli sürənlər nəzərə almalıdır ki, limitsiz yolda avtomobili yüksək sürətlə idarə edən sürücü anidən sürəti aşağı sala bilməz.

*XQ*

Hava

## Bakıda hava yağmursuz, dağlıq ərazilərdə yağıntılı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən noyabrın 1-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 13-17°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunundan 764 mm civə sütununa enəcək, nisbi rütubət gecə 75-85, gündüz 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 21-26°, dağlarda gecə 5-9°, gündüz 11-16° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

*✓ Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 3 fevral 2017-ci il tarixli (protokol No 1-k) qərarı ilə Svetlana İbrahim qızı Quliyevanın adına verilmiş fizika üzrə fəlsəfə doktoru elmi dərəcə diplomu itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4793
SİFARİŞ 2841
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00